RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 153 (9032) ŞƏNBƏ, 23 iyul 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# İlham Əliyev Azərbaycanın 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasını təsdiq etdi

## "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı



Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" təsdiq edilsin *(Əlavə olunur)*.

2. Bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda (bundan sonra - Strategiya) nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsini, icrasına nəzarəti və hesabatlılığını Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Strategiyanın həyata keçirilməsi ilə bağlı görülən işlər, o cümlədən Strategiyada nəzərdə tutulmuş tədbirlərin icra vəziyyəti barədə ildə iki dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.2. icrası davam etməkdə olan konsepsiya, strategiya, dövlət proqramı, milli fəaliyyət planları və bu kimi digər sənədlərin Strategiya ilə əlaqələndirilməsi istiqamətində zəruri tədbirlər görsün;

3.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

4. Strategiyada nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini, Azərbaycan Respublikası Nazirlər Kabinetinin sifarişi əsasında, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirsin.

5. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə birlikdə Strategiyada dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilməsi nəzərdə tutulmuş tədbirlərin icrası üçün tələb olunan vəsaitin dövlət büdcəsinin 2023-2026-cı illər üzrə proqnozlarında nəzərdə tutulması ilə bağlı zəruri tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 iyul 2022-ci il*

*Sərəncama edilmiş əlavə ilə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan mediası sürətli inkişaf mərhələsinə qədəm qoymuşdur



## Azərbaycanın media nümayəndələrinə

Hörmətli media nümayəndələri!

Əziz jurnalistlər!

Sizi Azərbaycan milli mətbuatının yaranmasının ildönümü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Müstəqillik dövrümüzdə ilk dəfə Azərbaycan jurnalistləri Ermənistanın 30 ilə yaxın davam edən işğalından sonra öz peşə bayramlarını ölkəmizin mədəniyyət paytaxtı, milli mətbuatımızın inkişafında xüsusi yeri olan, Qarabağın tacı Şuşa şəhərində qeyd edirlər. Milli Mətbuat Günü ilə bağlı Şuşada keçirilən ilk tədbir zəngin ənənələrə malik Azərbaycan mediasının tarixində əlamətdar hadisə olacaqdır.

Azərbaycan mətbuatı 1875-ci il iyulun 22-də görkəmli ziyalı, publisist, təbiətşünas alim Həsən bəy Zərdabi tərəfindən Azərbaycan dilində nəşr olunmağa başlamış "Əkinçi" qəzetinin bəyan etdiyi prinsipləri rəhbər tutaraq böyük inkişaf yolu keçmişdir. XlX əsrin ikinci yarısından sonrakı dövrdə işıq üzü görən çoxsaylı nəşrlər tariximizin güzgüsü olmuş, insanların maariflənməsi, milli şüurun formalaşması, xalqımızın azadlıq amallarının gerçəkləşməsi və mənəvi dəyərlərimizin qorunmasına mühüm töhfələr vermişdir.

XX əsrin sonlarında müstəqilliyini yenidən bərpa etmiş Azərbaycanda xalqımızın Ümummilli Lideri Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilmiş demokratik islahatlar bütün sahələrdə olduğu kimi, milli informasiya resurslarının inkişafında da əsaslı dönüş yaratmışdır. Söz və məlumat azadlığının təmin edilməsi, mütərəqqi qanunvericilik bazasının formalaşdırılması, redaksiyaların müstəqilliyinin gücləndirilməsi istiqamətində həyata keçirilən sistemli tədbirlər nəticəsində Azərbaycan mediası sürətli inkişaf mərhələsinə qədəm qoymuşdur.

Kommunikasiya vasitələrinin transformasiya mərhələsini yaşadığı, rəqəmsal platformaların və sosial media alətlərinin öz əhatə dairəsini genişləndirdiyi hazırkı dövrdə milli informasiya resurslarımızın potensialının və qlobal informasiya şəbəkəsində mövqelərinin gücləndirilməsi başlıca vəzifələrdən biridir. Son illər həyata keçirilmiş islahatlar media fəaliyyətinin qanunvericilik bazasının təkmilləşdirilməsi, iqtisadi əsaslarının möhkəmləndirilməsi, jurnalistlərin sosial təminatının yaxşılaşdırılması, dövlətin kommunikasiya siyasətinin müasir dövrün tələblərinə uyğun həyata keçirilməsi, jurnalistika sahəsində çevikliyin, peşəkarlığın yüksəldilməsi, cəmiyyətimizi narahat edən mənfi təzahürlərin aradan qaldırılması, medianın beynəlxalq əlaqələrinin genişləndirilməsi və dost ölkələrlə birgə platformaların yaradılması məqsədi daşımış, bu sahədə nəzərəçarpacaq irəliləyiş əldə edilmişdir.

Azərbaycan Respublikası müstəqil siyasət yürüdən, müasir, güclü, beynəlxalq münasibətlər sistemində layiqli yeri olan dövlətdir. Məhz buna görə qlobal informasiya məkanında ölkəmizin yüksək beynəlxalq nüfuzuna xələl gətirmək, daxili həyatına təsir göstərmək cəhdləri səngimir. Vətən müharibəsi zamanı Azərbaycan mediası informasiya cəbhəsində mübarizə apararaq kütləvi dezinformasiya hücumlarının qarşısının alınmasında, cəmiyyətimizin operativ və düzgün məlumatlandırılmasında böyük rol oynamışdır. Media resurslarımız Azərbaycan həqiqətlərini, o cümlədən işğal dövründə ermənilərin tarixi torpaqlarımızda törətdikləri misli görünməmiş vəhşilikləri və vandallığı beynəlxalq ictimaiyyətə çatdırmaq üçün fəaliyyətlərini yorulmadan davam etdirirlər.

Vətənpərvərlik, yüksək milli şüur, ali məqsədlər uğrunda cəmiyyətimizin səfərbər olunmasına layiqli töhfələr vermiş Azərbaycan jurnalistləri hər zaman prinsipiallıq nümayiş etdirməli, saxta və yalan məlumatlara söykənən kampaniyaların qlobal səviyyədə vüsət aldığı bir şəraitdə Azərbaycanın dövlətçilik maraqlarını uca tutmalı, vətəndaşlarımızın dolğun və düzgün məlumat əldə etmək hüquqlarını təmin etməli, cəmiyyətimizin tərəqqisi naminə var gücləri ilə çalışmalıdırlar.

Əminəm ki, Azərbaycan jurnalistikası əldə olunmuş uğurların inkişaf etdirilməsi, cəmiyyətimizin davamlı tərəqqisi və xalqımızın xoşbəxt gələcəyi üçün bundan sonra da öz səylərini əsirgəməyəcək.

Bir daha peşə bayramınız münasibətilə sizi təbrik edir, hər birinizə cansağlığı və işlərinizdə uğurlar arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 iyul 2022-ci il*

# Qapısız açarlar

İnsan həyatda nə qədər qapı görür?

Sayı-hesabı varmı?

İnsan həyatında neçə dəfə qapı açıb- örtür?

Hesablamaq mümkünmü?

Amma bu qapıların ən yaxını, ən doğması, şübhəsiz, evimizin qapısı olur...

Xüsusən, dünyaya göz açdığımız evin qapısı...

*Adətən, qapını örtəndə evdə özümüzü təhlükəsiz hiss edirik: çünki içəri nə qurd-quş girə biləcək, nə də qapını döyməmiş kənar adam.*

*Bayıra çıxıb qapımızı açarla bağlayanda isə evimizi təhlükəsiz sayırıq: heç kim bizdən xəbərsiz və icazəsiz evə girə bilməz!*

**I Qarabağ müharibəsində min bir zəhmətlə, sevinclə, xərclə tikdirdiyi evini zorən düşmən işğalında qoyaraq tərk etməyə məcbur olan yüz minlərlə məcburi köçkün də evdən çıxanda qapısını açarla kilidlədi!**

**Sonra Allaha əmanət edərək sonuncu dəfə həyatinə, evinə baxıb ah çəkməklə doğma yurdu tərk etdi...**

→ 6

# Mətbuat Günü münasibətilə Şuşada Beynəlxalq Media Forumu keçirilib

Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə iyulun 22-də Şuşada Milli Mətbuat Günü münasibətilə "Mediada qlobal trendlər, yeni çağırışlar" mövzusunda Beynəlxalq Media Forumu keçirilib. AZƏRTAC xəbər verir ki, forumda Azərbaycanın media nümayəndələri, ekspertləri və rəsmi şəxslərlə yanaşı, xarici media təmsilçiləri də iştirak ediblər.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda mübarizədə canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 22 İyul - Milli Mətbuat Günü münasibətilə Azərbaycanın media nümayəndələrinə müraciətini oxuyub *(Məktubun mətni ilə AZƏRTAC-ın saytının "Rəsmi sənədlər" bölməsində tanış ola bilərsiniz).*

Azərbaycan mətbuatının 147 illiyi münasibətilə hazırlanmış videoçarx nümayiş olunub.

Forumda çıxış edən Azərbaycan Respublikası Audiovizual Şurasının sədri İsmət Səttarov deyib ki, bu gün Şuşada təşkil olunan forum gələcəkdə belə beynəlxalq tədbirlərin keçirilməsi üçün möhkəm zəmin yaradacaq. Biz informasiyanın yaradılması, ötürülməsi, cəmiyyətə çatdırılması üzrə texnologiyaların sürətlə dəyişdiyi bir dövrdə yaşayırıq.

→ 4-5

# "Heritage" Fondu "Azərbaycanın rəsmi Vaşinqtonun daha çox strateji diqqətinə layiq olmasının səbəbləri" haqqında məqalə dərc edib

ABŞ-ın nüfuzlu beyin mərkəzlərindən biri olan "Heritage" Fondunun "İqtisadi Azadlıq İndeksi"nin redaktoru, baş tədqiqatçı Entoni Kimin Azərbaycanın ABŞ üçün əhəmiyyətindən bəhs edən məqaləsi dərc olunub.

AZƏRTAC xəbər verir ki, qurumun saytında və "The Daily Signal" qəzetində yerləşdirilən məqalədə 2022-ci ildə ABŞ və Azərbaycan arasında diplomatik münasibətlərin 30-cu ildönümünün qeyd olunduğu bildirilir.

Müəllif yazır ki, Vaşinqtonun xarici siyasət nöqteyi-nəzərindən Azərbaycanın ABŞ üçün strateji əhəmiyyəti danılmazdır.

→ 7



# Yollar şaxələnir, yollar qovuşur

→ 8

## İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 879 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 879 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 684, № 7, maddə 1261; 2017, № 11, maddə 1836) aşağıdakı dəyişikliklər edilsin:

1. 3.1-ci bənddə "3" rəqəmi "10" rəqəmləri ilə əvəz edilsin.

2. 7-ci hissədə "Vergilər" sözü "İqtisadiyyat" sözü ilə əvəz edilsin.

3. Həmin Fərmanla təsdiq edilmiş "İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Nizamnaməsi"nin 5.1-ci bəndində "3" rəqəmi "10" rəqəmləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 iyul 2022-ci il*

## "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 2, maddə 135) 2.1-ci və 2.2-ci bəndlərində "2021-2025-ci" sözləri "2022-2026-cı" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 iyul 2022-ci il*

## "İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Müşahidə Şurası üzvlərinin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 1984 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Müşahidə Şurası üzvlərinin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 1984 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 740) birinci hissəsi aşağıdakı redaksiyada verilsin:

"İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Müşahidə Şurasının aşağıdakı tərkibi təsdiq edilsin:

**Müşahidə Şurasının sədri**

Azərbaycan Respublikasının Baş naziri

**Müşahidə Şurasının üzvləri**

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri

Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi

Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi

Azərbaycan Respublikasının iqtisadiyyat naziri

Azərbaycan Respublikasının maliyyə naziri

Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri

Azərbaycan Respublikası Mərkəzi Bankının sədri

Azərbaycan Respublikası Dövlət Neft Fondunun İcraçı direktoru.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 iyul 2022-ci il*

## "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin Müşahidə Şurasının aşağıdakı tərkibi təsdiq edilsin:

**Müşahidə Şurasının sədri**

Emin Hüseynov - Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi

**Müşahidə Şurasının üzvləri**

Səməd Bəşirli - Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini

Sarvan Cəfərov - Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini

Namiq Hümmətov - Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin birinci müavini

Azadə Hüseynova - Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi sədrinin müavini.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 iyul 2022-ci il*

## "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin Müşahidə Şurasının aşağıdakı tərkibi təsdiq edilsin:

**Müşahidə Şurasının sədri**

Vahid Hacıyev - Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi

**Müşahidə Şurasının üzvləri**

Sahib Məmmədov - Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini

Sarvan Cəfərov - Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini

Vüqar Kərimov - Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini

Namiq Hümmətov - Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin birinci müavini.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 iyul 2022-ci il*

## Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 6-cı və 17-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında" Azərbaycan Respublikasının 2019-cu il 22 oktyabr tarixli 1689-VQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 10, maddə 762, № 12, maddə 973; 2010, № 7, maddə 587; 2011, № 6, maddə 485, № 7, maddə 593; 2012, № 5, maddə 410; 2013, № 1, maddə 16, № 11, maddə 1267; 2016, № 1, maddə 12; 2017, № 4, maddə 522, № 5, maddə 752, №11, maddə 1976; 2018, № 5, maddələr 855, 878, № 7 (I kitab), maddə 1440; 2019, № 1, maddə 23, № 7, maddə 1199, № 12, maddə 1899; 2020, № 6, maddə 669; 2021, № 7, maddələr 711, 715) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3.2-ci maddənin birinci və ikinci cümlələrinə "XVIII-I," rəqəmlərindən sonra "XVIII-II," rəqəmləri əlavə edilsin;

1.2. aşağıdakı məzmunda XVIII-II fəsil əlavə edilsin:

**"XVIII-II FƏSİL**

**"AZƏRBAYCAN RESPUBLİKASI VƏTƏNDAŞLARININ QANUNVERİCİLİK TƏŞƏBBÜSÜ HÜQUQUNDAN İSTİFADƏ ETMƏSİ QAYDASI HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNA MÜVAFİQ OLARAQ QƏBUL EDİLMİŞ MƏRKƏZİ SEÇKİ KOMİSSİYASININ QƏRARLARININ MÜBAHİSƏLƏNDİRİLMƏSİNƏ DAİR İDDİA ÜZRƏ İCRAAT**

**Maddə 130-2. "Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq qəbul edilmiş Mərkəzi Seçki Komissiyasının qərarlarının mübahisələndirilməsinə dair iddia üzrə icraatın xüsusiyyətləri**

130-2.1. "Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq Mərkəzi Seçki Komissiyasının aşağıdakı qərarlarının mübahisələndirilməsinə dair iddia ərizəsi apellyasiya instansiyası məhkəməsinə verilə bilər:

130-2.1.1. Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə ilə bağlı yaradılmış təşəbbüs qrupunun və təklif olunan qanun (qərar) layihəsinin qeydiyyata alınmasından imtina barədə;

130-2.1.2. Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə ilə bağlı yaradılmış təşəbbüs qrupunun "Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə riayət etməməsi barədə.

130-2.2. Bu Məcəllənin 130-2.1-ci maddəsində nəzərdə tutulmuş Mərkəzi Seçki Komissiyasının qərarının mübahisələndirilməsinə dair iddia ərizəsi həmin qərarın surəti Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə ilə bağlı yaradılmış təşəbbüs qrupunun sədrinə təqdim edildiyi gündən 10 gün müddətində verilə bilər.

130-2.3. İddia ərizəsinə məhkəmə tərəfindən 15 gün müddətində baxılmalı və onun mahiyyəti üzrə qərar qəbul edilməlidir.

130-2.4. Məhkəmə tərəfindən iddia ərizəsinə ərizəçinin və Mərkəzi Seçki Komissiyasının nümayəndəsinin iştirakı ilə baxılır. Məhkəmə iclasının vaxtı və yeri haqqında lazımi qaydada xəbərdar edilmiş göstərilən şəxslərin məhkəməyə gəlməməsi işə baxılmasına və onun həll edilməsinə mane olmur.

130-2.5. İş üzrə apellyasiya instansiyası məhkəməsinin qərarından həmin qərarın tam formada təqdim olunduğu gündən 10 gün müddətində Ali Məhkəməyə şikayət verilə bilər.

130-2.6. Ali Məhkəmə şikayətə onun daxil olduğu vaxtdan 15 gün müddətində baxıb qərar qəbul etməlidir.".

**Maddə 2.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 23, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193, № 8, maddələr 1364, 1367, 1368, 1381, 1383, № 11, maddələr 1682, 1686, 1696, № 12, maddələr 1883, 1900; 2020, № 3, maddə 222, № 5, maddələr 505, 515, 519, № 6, maddələr 670, 672, 681, № 7, maddələr 838, 841, 846, 854, № 8, maddələr 1008, 1011, № 9, maddə 1138, № 11, maddələr 1332, 1333, 1336, № 12 (I kitab), maddələr 1432, 1440; 2021, № 4, maddə 306, № 5, maddə 428, № 6 (I kitab), maddələr 535, 541, 546, 560, № 7, maddələr 701, 705, 711, № 8, maddə 894, № 11, maddə 1208, № 12, maddələr 1306, 1334; 2022, № 1, maddə 2, № 2, maddə 89; Azərbaycan Respublikasının 2022-ci il 25 fevral tarixli 487-VIQD nömrəli və 26 aprel tarixli 517-VIQD nömrəli qanunları) aşağıdakı məzmunda 179-1-ci maddə əlavə edilsin:

**"Maddə 179-1. Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında qanunvericiliyin pozulması**

179-1.1. Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydasında hazırlanan və Azərbaycan Respublikası Milli Məclisinin müzakirəsinə təqdim edilməsi təklif olunan qanun (qərar) layihəsinin dəstəklənməsi üçün dövlət orqanlarının, bələdiyyə qurumlarının və mülkiyyət formasından asılı olmayaraq hüquqi şəxslərin imza toplanmasında iştirak etməsinə görə -

vəzifəli şəxslər beş yüz manatdan səkkiz yüz manatadək məbləğdə, hüquqi şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə cərimə edilir.

179-1.2. Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə ilə bağlı imza toplanması prosesinin və "Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan digər tədbirlərin maliyyələşdirilməsi üçün xarici dövlətlərin, beynəlxalq təşkilatların, xarici hüquqi şəxslərin, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin, həmçinin təsisçisi xarici dövlət, beynəlxalq təşkilat, xarici hüquqi şəxs, əcnəbi və ya vətəndaşlığı olmayan şəxs olan hüquqi şəxslərin vəsaitindən istifadə olunmasına görə -

fiziki şəxslər iki yüz manatdan dörd yüz manatadək məbləğdə, vəzifəli şəxslər min manatdan min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər dörd min manatdan altı min manatadək məbləğdə cərimə edilir .".

**Maddə 3.** Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12 (I kitab), maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 6, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289, 1298, № 12, maddələr 1437, 1445; 2016, № 4, maddələr 634, 636, 638, 653, № 5, maddə 845, № 6, maddələr 993, 1001, № 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, № 2, maddə 161, № 3, maddə 330, № 5, maddələr 694, 696, 702, 733, № 7, maddələr 1268, 1271, 1293, № 11, maddələr 1968, 1978, № 12 (I kitab), maddə 2231; 2018, № 3, maddə 403, № 5, maddə 861, № 6, maddə 1154, № 7 (I kitab), maddə 1441, № 10, maddə 1972, № 11, maddə 2213, № 12 (I kitab), maddə 2472; 2019, № 4, maddə 586, № 7, maddə 1201, № 8, maddə 1367; 2020, № 3, maddə 223, № 5, maddə 518, № 7, maddə 832, № 8, maddə 1010, № 11, maddələr 1332, 1333; 2021, № 6 (I kitab), maddə 541, № 8, maddə 894, № 12, maddə 1336; Azərbaycan Respublikasının 2022-ci il 26 aprel tarixli 516-VIQD və 519-VIQD nömrəli qanunları) aşağıdakı məzmunda 161-1-ci maddə əlavə edilsin:

**"Maddə 161-1. Vətəndaşların qanunvericilik təşəbbüsü qaydasında hazırlanan və Azərbaycan Respublikası Milli Məclisinin müzakirəsinə təqdim edilməsi təklif olunan qanun (qərar) layihəsinin dəstəklənməsi üçün imzaların toplanması qaydasının pozulması**

Vətəndaşların qanunvericilik təşəbbüsü qaydasında hazırlanan və Azərbaycan Respublikası Milli Məclisinin müzakirəsinə təqdim edilməsi təklif olunan qanun (qərar) layihəsinin dəstəklənməsi üçün imza toplanması prosesində vətəndaşları imza qoymağa məcburetmə və ya imza qoymağa maneolma, yaxud bunlara görə onları hər hansı formada mükafatlandırma -

min beş yüz manatdan iki min beş yüz manatadək miqdarda cərimə və ya iki yüz qırx saatdan üç yüz saatadək ictimai işlər ilə cəzalandırılır.".

**Maddə 4.** "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 11, maddə 1248; 2017, № 6, maddə 1032) aşağıdakı məzmunda 5.4-1-ci maddə əlavə edilsin:

"5.4-1. Vətəndaşların qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi ilə bağlı yaradılmış təşəbbüs qrupunun və Azərbaycan Respublikası Milli Məclisinin müzakirəsinə təqdim edilməsi təklif olunan qanun (qərar) layihəsinin qeydiyyata alınması məqsədilə ərizələrin verilməsi və bu ərizələrə baxılması qaydası "Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 iyun 2022-ci il*

## "Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 22 iyun tarixli 552-VIQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 22 iyun tarixli 552-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 179-1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslər barədə təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2. "Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 22 iyun tarixli 552-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 iyul 2022-ci il*

# "Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2022-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasi Prezidentinin 2021-ci il 23 dekabr tarixli 1527 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində dəyişikliklər edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2022-ci il büdcəsinin gəlirlərini və xərclərini dəqiqləşdirmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2022-ci il büdcəsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 23 dekabr tarixli 1527 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 12, maddə 1392) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci hissədə "10589701,9" və "12789674,6" rəqəmləri müvafiq olaraq "15789147,9" və "11597136,5" rəqəmləri ilə əvəz edilsin;

1.2. 2-ci hissə üzrə:

1.2.1. 2.1-ci bənddə "8578995,4" rəqəmləri "14993401,2" rəqəmləri ilə əvəz edilsin;

1.2.2. 2.3-cü bənddə "23290,0" rəqəmləri "21760,0" rəqəmləri ilə əvəz edilsin;

1.2.3. 2.4-cü bənddən "1216792,9" rəqəmləri çıxarılsın;

1.2.4. 2.5-ci bənddə "765340,0" rəqəmləri "768703,1" rəqəmləri ilə əvəz edilsin;

1.2.5. "Gəlirlərin məbləği" sütununun "Cəmi" sətrində "10589701,9" rəqəmləri "15789147,9" rəqəmləri ilə əvəz edilsin;

1.3. 3-cü hissə üzrə:

1.3.1. 3.1-ci bənddə "12710000,0" rəqəmləri "11517500,0" rəqəmləri ilə əvəz edilsin;

1.3.2. 3.2-ci bənddə "27836,0" rəqəmləri "27797,9" rəqəmləri ilə əvəz edilsin;

1.3.3. 3.3-cü bənddə "Azərbaycan gənclərinin nüfuzlu xarici ali təhsil müəssisələrində təhsil imkanlarının genişləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 30 sentyabr tarixli 2931 nömrəli Sərəncamında nəzərdə tutulan Dövlət Proqramının" sözləri "Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 fevral tarixli 3163 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı"nın" sözləri ilə əvəz edilsin;

1.3.4. "Xərclərin məbləği" sütununun "Cəmi" sətrində "12789674,6" rəqəmləri "11597136,5" rəqəmləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Dövlət Neft Fondu bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 iyul 2022-ci il*

# Azərbaycan Respublikasının ərazisinə müşayiətsiz gələn və ya gəldikdən sonra müşayiətsiz qalan 18 yaşına çatmamış əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin vahid məlumat bazasının yaradılması və Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 4 iyun tarixli 276 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikasının ərazisinə müşayiətsiz gələn və ya gəldikdən sonra müşayiətsiz qalan 18 yaşına çatmamış əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin vahid məlumat bazasının yaradılması məqsədilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemində "18 yaşına çatmamış müşayiətsiz əcnəbilər və vətəndaşlığı olmayan şəxslər barədə məlumatlar" altsistemi (bundan sonra - altsistem) yaradılsın.

2. Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti:

2.1. altsistemin formalaşdırılmasını 2022-ci il oktyabrın 1-dək təmin etsin, altsistemin aparılması, həmçinin fəaliyyətinin təşkili və inkişaf etdirilməsi üçün zəruri tədbirlər görsün;

2.2. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Azərbaycan Respublikası Təhsil Nazirliyinin, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin, Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin və yerli icra hakimiyyəti orqanlarının həmin altsistemə çıxışını təmin etsin;

2.3. altsistemə daxil ediləcək məlumatların, habelə qanunla qorunan digər məlumatların mühafizəsinin təmin olunması üçün Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti ilə birlikdə zəruri tədbirlər görsün.

3. Bu Fərmanın 2.2-ci bəndində nəzərdə tutulmuş dövlət orqanları (qurumları) Azərbaycan Respublikasının ərazisinə müşayiətsiz gələn və ya gəldikdən sonra müşayiətsiz qalan 18 yaşına çatmamış əcnəbilər və vətəndaşlığı olmayan şəxslər barədə məlumatları aşkar etdikdə, həmin məlumatların aşkar edildiyi tarixdən 1 (bir) iş günü müddətində altsistemə daxil olunmasını təmin etsinlər.

4. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq altsistemin aidiyyəti dövlət informasiya ehtiyatları və sistemləri ilə əlaqələndirilməsini Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə təmin etsin.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

6. Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 4 iyun tarixli 276 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 491; 2011, № 11, maddə 995; 2013, № 9, maddə 1048; 2014, № 9, maddə 1060, № 10, maddə 1177; 2015, № 2, maddə 117; 2016, № 5, maddə 867, № 11, maddə 1798; 2017, № 5, maddələr 777, 818; 2018, № 12 (I kitab), maddə 2586; 2019, № 6, maddə 1029; 2020, № 8, maddə 1024; 2021, № 2, maddə 130, № 6 (I kitab), maddə 567) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

6.1. aşağıdakı məzmunda 7.5-1-ci, 10.15-1-ci bəndlər və 11.3.3-cü, 11.4.4-cü, 11.5.7-ci, 11.6.3-cü yarımbəndlər əlavə edilsin:

"7.5-1. "18 yaşına çatmamış müşayiətsiz əcnəbilər və vətəndaşlığı olmayan şəxslər barədə məlumatlar";";

"10.15-1. 18 yaşına çatmamış əcnəbinin və vətəndaşlığı olmayan şəxsin Azərbaycan Respublikasının ərazisinə müşayiətsiz gəlməsi və ya gəldikdən sonra müşayiətsiz qalması aşkar edildikdə bu barədə məlumatların Sistemə daxil edilməsi;";

"11.3.3. 18 yaşına çatmamış əcnəbinin və vətəndaşlığı olmayan şəxsin Azərbaycan Respublikasının ərazisinə müşayiətsiz gəlməsi və ya gəldikdən sonra müşayiətsiz qalması aşkar edildikdə bu barədə məlumatlar;";

"11.4.4. 18 yaşına çatmamış əcnəbinin və vətəndaşlığı olmayan şəxsin Azərbaycan Respublikasının ərazisinə müşayiətsiz gəlməsi və ya gəldikdən sonra müşayiətsiz qalması aşkar edildikdə bu barədə məlumatlar;";

"11.5.7. 18 yaşına çatmamış əcnəbinin və vətəndaşlığı olmayan şəxsin Azərbaycan Respublikasının ərazisinə müşayiətsiz gəlməsi və ya gəldikdən sonra müşayiətsiz qalması aşkar edildikdə bu barədə məlumatlar;";

"11.6.3. 18 yaşına çatmamış əcnəbinin və vətəndaşlığı olmayan şəxsin Azərbaycan Respublikasının ərazisinə müşayiətsiz gəlməsi və ya gəldikdən sonra müşayiətsiz qalması aşkar edildikdə bu barədə məlumatlar;";

6.2. 11.8.2-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 11.9-cu bənd əlavə olunsun:

"11.9. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və yerli icra hakimiyyəti orqanları 18 yaşına çatmamış əcnəbinin və vətəndaşlığı olmayan şəxsin Azərbaycan Respublikasının ərazisinə müşayiətsiz gəlməsini və ya gəldikdən sonra müşayiətsiz qalmasını aşkar etdikdə, onlar tərəfindən bu barədə məlumatlar.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 iyul 2022-ci il*

# "Bərpa olunan enerji mənbələrindən istifadə sahəsində pilot layihələrin həyata keçirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 5 dekabr tarixli 1673 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Bərpa olunan enerji mənbələrindən istifadə sahəsində pilot layihələrin həyata keçirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 5 dekabr tarixli 1673 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 1969) aşağıdakı dəyişikliklər edilsin:

1. Adında "pilot layihələrin həyata keçirilməsi tədbirləri" sözləri "layihələrin həyata keçirilməsi ilə bağlı əlavə tədbirlər" sözləri ilə əvəz edilsin.

2. 1-ci hissə üzrə:

2.1. birinci abzasdan "pilot" sözü çıxarılsın;

2.2. həmin hissə ilə yaradılmış Komissiyanın tərkibi aşağıdakı redaksiyada verilsin:

**"Komissiyanın sədri**

Azərbaycan Respublikasının energetika naziri

**Komissiyanın üzvləri**

Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini

Azərbaycan Respublikası maliyyə nazirinin müavini

Azərbaycan Respublikası ədliyyə nazirinin müavini

Azərbaycan Respublikası fövqəladə hallar nazirinin müavini

Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini

Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini

Azərbaycan Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini

Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin müavini

Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti sədrinin müavini

Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri

"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti

"Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri";

2.3. 1.2.1-ci yarımbəndə "sahələrinin" sözündən sonra "və su obyektlərinin" sözləri əlavə edilsin və həmin yarımbənddən "bir ay müddətində" sözləri çıxarılsın;

2.4. 1.2.2-ci yarımbənddən "bir ay müddətində" sözləri çıxarılsın;

2.5. 1.2.3-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"1.2.3. beynəlxalq məsləhətçi şirkətləri cəlb etməklə, elektrik enerjisinin satınalınması müqaviləsinin, elektrik stansiyalarının elektrik enerjisi şəbəkəsinə qoşulması müqaviləsinin, investisiya müqaviləsinin və tələb olunan digər müqavilələrin hazırlanmasını təmin etsin;";

2.6. 1.2.5-ci yarımbənddən "bir ay müddətində" sözləri çıxarılsın, həmin yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 1.2.6-cı yarımbənd əlavə edilsin:

"1.2.6. investorlara tətbiq edilən təşviq mexanizmlərinin genişləndirilməsi ilə bağlı təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.".

3. 2-ci hissə aşağıdakı redaksiyada verilsin:

"2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 iyul 2022-ci il*

# Parlament Sədrlərinin İkinci Üçtərəfli Görüşünün iştirakçıları Baykar istehsal müəssisəsində olublar



**Parlament sədrlərinin İstanbulda keçirilən İkinci Üçtərəfli Görüşünün iştirakçıları İstanbulda Baykar istehsal müəssisəsinə gəliblər.**

Burada Milli Məclisin Sədri Sahibə Qafarovaya, Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopa, Pakistan İslam Respublikası Milli Assambleyasının Sədri Raca Pərviz Əşrəfə və onların başçılıq etdikləri nümayəndə heyətlərinin üzvlərinə Türkiyənin Milli Texnologiya Mərkəzi, Baykar istehsal müəssisəsində hazırlanan məhsullar və aparılan araşdırmalar barədə məlumat verilib.

Sonra qonaqlar Baykar tərəfindən hazırlanmış məhsullarla tanış olublar.

***"Azərbaycan"***

# Bolqarıstanın Baş naziri Heydər Əliyev Mərkəzini ziyarət edib









Bolqarıstan Respublikasının Baş naziri Kiril Petkovun rəhbərlik etdiyi nümayəndə heyəti iyulun 22-də Heydər Əliyev Mərkəzi ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, qonaq əvvəlcə Heydər Əliyev Muzeyində Ümummilli Liderin xidməti istifadəsində olmuş avtomobillərə baxıb. O, muzeydə Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətinin bütün dövrlərini əhatə edən video və fotoarxiv sənədlər, eləcə də müxtəlif eksponatlarla tanış olub.

Sonra qonaqlar dünyanın memarlıq incilərı sırasında olan və Bakının müasir rəmzinə çevrilən Heydər Əliyev Mərkəzinin binası, onun arxitektor özəllikləri barədə məlumatlandırılıb.



Mərkəzdəki Heydər Əliyev Muzeyi qonaqların böyük marağına səbəb olub. Qeyd olunub ki, Muzeyin "Azərbaycanın ictimai-siyasi həyatı", "Dövlətçilik, irs və nailiyyətlər", "Fotolarda əks olunmuş həyat" bölmələrində Ulu Öndərin həm sovet dövründə, həm də müstəqillik illərində fəaliyyət konsepsiyasının müxtəlif aspektləri virtual formada təqdim edilir.

Sonra nümayəndə heyəti mərkəzdə Azərbaycanın tarixinə və mədəni irsinə dair eksponatların nümayiş olunduğu "Azərbaycan inciləri: tarixin axarında", "Mini Azərbaycan" sərgilərinə baxıblar. Nümayəndə heyəti mərkəzdə nümayiş etdirilən klassik avtomobil sərgisinin eksponatları olan nəqliyyat vasitələri ilə də tanış olublar.

Sonda Bolqarıstan Respublikasının Baş naziri Kiril Petkov xatirə kitabına ürək sözlərini yazıb.

# Bolqarıstanın Baş naziri Kiril Petkovun Azərbaycana səfəri başa çatıb

Bolqarıstan Respublikasının Baş naziri Kiril Petkovun Azərbaycana səfəri iyulun 22-də başa çatıb.



AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Kiril Petkovu Baş nazirin müavini Şahin Mustafayev, xarici işlər nazirinin müavini Fariz Rzayev və digər rəsmi şəxslər yola saldılar.

# Mətbuat Günü münasibətilə Şuşada




















**Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə iyulun 22-də Şuşada Milli Mətbuat Günü münasibətilə "Mediada qlobal trendlər, yeni çağırışlar" mövzusunda Beynəlxalq Media Forumu keçirilib.**








AZƏRTAC xəbər verir ki, forumda Azərbaycanın media nümayəndələri, ekspertləri və rəsmi şəxslərlə yanaşı, xarici media təmsilçiləri də iştirak ediblər.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda mübarizədə canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 22 İyul - Milli Mətbuat Günü münasibətilə Azərbaycanın media nümayəndələrinə müraciətini oxuyub *(Məktubun mətni ilə “Azərbaycan” qəzetinin bugünkü nömrəsinin birinci səhifəsində tanış ola bilərsiniz).*

Azərbaycan mətbuatının 147 illiyi münasibətilə hazırlanmış videoçarx nümayiş olunub.

Forumda çıxış edən Azərbaycan Respublikası Audiovizual Şurasının sədri İsmət Səttarov deyib ki, bu gün Şuşada təşkil olunan forum gələcəkdə belə beynəlxalq tədbirlərin keçirilməsi üçün möhkəm zəmin yaradacaq. Biz informasiyanın yaradılması, ötürülməsi, cəmiyyətə çatdırılması üzrə texnologiyaların sürətlə dəyişdiyi bir dövrdə yaşayırıq. Bu səbəbdən media sahəsi üzrə peşəkarlar arasında daimi qarşılıqlı təcrübə mübadiləsi aparılmalıdır.

İ.Səttarov vurğulayıb ki, cəmi iki il əvvəl Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşada kimlərsə özlərinin milli, mənəvi və dini ideyalarını təbliğ edir, Azərbaycanın ərazi bütövlüyünə açıq hörmətsizlik nümayiş etdirirdilər. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuz tərəfindən azad edilən Şuşa ədalətin bərpa olunacağının rəmzidir.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov çıxışında bildirib ki, bu gün 147 illiyini qeyd etdiyimiz Azərbaycan milli mətbuatı böyük və şərəfli inkişaf yolu keçib, bütün dövrlərdə qabaqcıl ictimai ideyaların carçısı olub. Tarixinin bütün mərhələlərində Azərbaycan mediası öz mütərəqqi ənənələrini formalaşdırıb, cəmiyyət qarşısında üzərinə götürdüyü missiyanı layiqincə yerinə yetirib.

İcraçı direktor diqqətə çatdırıb ki, 1875-ci il iyulun 22-də Həsən bəy Zərdabi "Əkinçi" qəzetini nəşr etdirməklə xalqı maarifləndirmək, onu dünyada baş verən ictimai-siyasi, mədəni, iqtisadi inkişafla tanış etmək və tərəqqi yoluna çıxarmaq məqsədini qarşıya qoymuşdu. Mediamız yarandığı gündən ciddi senzura altında fəaliyyət göstərməyə məcbur olsa da, Azərbaycanın müstəqillik tarixinin əsasını qoymuş Ümummilli Lider Heydər Əliyev tərəfindən senzuranın ləğvi ictimai fikir tariximizdə yeni mərhələ kimi dəyərləndirilir. Ulu Öndərin siyasi iradəsi və böyük səyləri nəticəsində müstəqil Azərbaycanda plüralizmi, söz və məlumat azadlığını məhdudlaşdıran süni maneələr aradan qaldırılıb və bunun parlaq nümunəsi 1998-ci ildə senzuranın ləğv edilməsi olub.

"Bu gün Azərbaycanın media ictimaiyyəti növbəti tarixi hadisəyə şahidlik edir. "Mediada qlobal trendlər, yeni çağırışlar" Beynəlxalq Media Forumunun Azərbaycanın mədəniyyət paytaxtı, ölkəmizin tarixi-mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biri olan Şuşada keçirilməsindən ikiqat qürur və fəxarət hissi duyuruq", - deyə Əhməd İsmayılov qeyd edib.

Daha sonra çıxış edən Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev diqqətə çatdırıb ki, 44 günlük Vətən müharibəsində qazandığımız tarixi Qələbə ilə bölgəmizdə yeni reallıq yaranıb. Ordumuzun qəhrəmanlığı həm xalqımızı Qələbə ilə sevindirdi, həm də ermənilərin torpaqlarımıza vurduğu zərər üzə çıxarıldı. Azərbaycan işğaldan azad olunmuş əraziləri öz resursları hesabına bərpa edir və bu da dünyada hökm sürən ikili standartların bir sübutudur.

R.Hacıyev deyib ki, yaxın günlərdə Qarabağ Dirçəliş Fondunun maliyyə göstəriciləri ictimaiyyətə təqdim olunacaq. Onun sözlərinə görə, fonda minlərlə həmvətənimiz, bir çox şirkətlər ianələr edib.

"Fond artıq bir neçə layihəyə maliyyə dəstəyi ayırmağa başlayıb. Bu layihələrin arasında Şuşa şəhərində üç tarixi abidənin bərpası və yenidən qurulması var. Bunlar Heydər Əliyev Fondu tərəfindən bərpa olunan Üzeyir bəy Hacıbəylinin yenidən qurulan heykəli, Xalça Muzeyi və Yaradıcılıq Mərkəzidir. Mədəniyyət Nazirliyi ilə Ağdamdakı İmarət kompleksinin bərpası üzrə konsepsiya hazırlanır. Dövlət Turizm Agentliyi ilə Şahbulaq qalasının bərpası və ətrafında turizm infrastrukturunun yaradılması üzrə müəyyən işlər aparılır. Füzulidə fondun birbaşa icra etdiyi 20 hektar ərazidə müasir "ağıllı" park salınır. Hələ ki layihələndirmə işləri aparılır. Zəngilan rayonunda Ekologiya Nazirliyi ilə birlikdə 30 min ağac əkilir. Gələcəkdə isə daha 20 min ağac əkiləcək. Bu, Zəngilan şəhərinin girişində olan meşə massivinin bərpası layihəsidir", - deyə Rəhman Hacıyev diqqətə çatdırıb.

Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Məftun Abbasov çıxışında qeyd edib ki, idarə media nümayəndələri ilə sıx əlaqələr qurur. Şuşa şəhərindəki dağıntılar, bərpa və yenidənqurma işləri, keçirilən tədbirlər mediada geniş işıqlandırılır və təbliğ edilir.

M.Abbasov qeyd edib ki, bu gün Azərbaycanda böyük jurnalist ordusu yetişir. Məhz bu jurnalist ordusu 44 günlük Vətən müharibəsi zamanı döyüş bölgələrində operativ informasiyalar verdi, xalqa Ordumuzun uğurları haqqında məlumatlar çatdırdı. Həmçinin Ermənistanın müharibə cinayətlərinin dünya ictimaiyyətinə çatdırılmasında media nümayəndələrinin böyük rolu var.

ADA Universitetinin Kommunikasiya və Rəqəmsal Media Proqramının direktoru Şəfəq Mehrəliyeva bildirib ki, bu il Milli Mətbuat Gününə yaraşan ən gözəl format 147-ci ildönümünün Şuşada keçirilməsidir. O deyib ki, ADA Universitetinin bir il əvvəl irəli sürdüyü təşəbbüslə tədris edilən ali ixtisaslar sırasına Kommunikasiya və rəqəmsal media əlavə olunub.

Qeyd edilib ki, ali təhsil müəssisələrində jurnalistika fakültəsi üzrə məzun olan tələbələrin hər biri Həsən bəy Zərdabinin davamçılarıdır.

Forum işini panel iclasları ilə davam etdirib.

❖ ❖ ❖

"ASAN Radio"nun direktoru Emin Musəvinin moderatorluğu ilə keçirilən birinci panel iclası "Yeni media jurnalistikasına keçid: Konvergensiya və yeni imkanlar" mövzusunda olub.

Tədbirdə çıxış edən TASS İnformasiya Agentliyinin baş direktorunun birinci müavini Mixail Qusman bildirib ki, dünyada yaranan yeni reallıqlar ilk olaraq kütləvi informasiya vasitələrinə təsir edib. Hazırda rəqəmsal informasiya vasitələrindən əldə olunan gəlirlər ənənəvi medianı üstələyir. Müasir dövrdə insanların 60 faizi xəbərləri sırf internet vasitəsilə oxuyurlar.

O qeyd edib ki, sosial şəbəkələrdə anonimlik və bəzi məsuliyyətsiz davranışlar bəzən ciddi fəsadlara səbəb olur. Hazırda media sahəsində çoxsaylı feyk xəbərlərlə üzləşilir. Azərbaycan da dezinformasiya hücumlarına məruz qalan ölkə kimi bununla mübarizə aparır. Bu müharibədə ən böyük silah isə dəqiq, yoxlanılmış məlumatlardır.

"Əl-Cəzirə" Media İnstitutunun təlimlər üzrə meneceri Muhəmməd Talal Əbdülkərim Şuşada Beynəlxalq Media Forumunda iştirak etməkdən qürur duyduqlarını bildirib.

O deyib ki, medianın hamı tərəfindən güvənilən struktur olması üçün çalışmaq vacibdir. Kütləvi informasiya vasitələrinin üzərilərinə düşən vəzifə isə etibarlı məlumatları çatdırmaqdır. "Azərbaycanda Medianın İnkişafı Agentliyinin yarandığını görəndə çox sevindim. Bu, daha faydalı, obyektiv və operativ iş görmək üçün imkan yaradır", - deyə menecer əlavə edib.

Bolqarıstanın "BTA" İnformasiya Agentliyinin informasiya siyasəti üzrə baş direktorun müavini Evgenia Doitcheva Droumeva diqqətə çatdırıb ki, müasir dövrdə sosial şəbəkələrdən düzgün istifadə xəbərlərin daha böyük auditoriyaya yayılması üçün ən vacib şərtlərdən biridir.

"Gənclər sosial şəbəkələrdən geniş şəkildə istifadə edirlər və onlar xəbər əldə etmək üçün sosial şəbəkələrə üz tuturlar. Biz sosial şəbəkələrə xüsusi önəm verməliyik. Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) feysbuk sosial şəbəkəsində 240 minə yaxın izləyicisi var. Lakin bizdə rəqəmlər bu qədər deyil. Hazırda bu istiqamətdə bir çox layihələr hazırlayırıq. Həmçinin çalışırıq ki, ölkənin hər yerindən xəbərləri canlı şəkildə çatdıraq", - deyə baş direktorun müavini vurğulayıb.

Digər çıxış edənlər - APA Media Qrupun baş direktoru Vüsalə Mahirqızı və "haqqin.az" analitik-informasiya veb-saytının rəhbəri Eynulla Fətullayev müasir dünyada media qarşısında duran çağırışlara toxunub, yaranmış problemlərin həlli istiqamətində səylər göstərilməsinin əhəmiyyətini bildiriblər. Eyni zamanda diqqətə çatdırılıb ki, bu gün feyk xəbərlərlə mübarizə media qarşısında duran vacib məsələlərdən biridir.

❖ ❖ ❖

Forumun ikinci panel iclası "Media etikası: Rəqəmsal mühitdə jurnalistlərin peşə davranışı" mövzusuna həsr edilib.

ADA Universitetinin Kommunikasiya və Rəqəmsal Media Proqramının direktoru Şəfəq Mehrəliyevanın moderatorluğu ilə keçirilən panel iclasında çıxış edən Avropa Xəbər Agentlikləri Alyansının baş katibi Aleksandru Giboi Beynəlxalq Media Forumunun yüksək səviyyədə təşkil olunduğunu vurğulayıb.

Forumun təşkilinə və dəvətə görə AZƏRTAC-a və Medianın İnkişafı Agentliyinə təşəkkürünü bildirən Aleksandru Giboi deyib ki, media nümayəndələrinin qəbul olunmuş normalara - media etikasına əməl etmələri vacibdir.

"Medianın insan həyatında müəyyən trendlərin ortaya çıxmasında vacib rolu var. Media etikası KİV-i dağıdıcı xarakter almaqdan qoruyur. Etik davranışlar olmadan mediadan hər hansı sosial məsuliyyət gözləmək mümkün deyil. Tələbələrin jurnalistika ilə bağlı təhsil almaları, media savadlılığının artırılması önəmlidir. Gənclər bu barədə maarifləndirilməlidir. Jurnalistikanın böyük gücə malik olduğunu onlara göstərmək lazımdır. Gənclər bunun əhəmiyyətini anladıqca biləcəklər ki, onlar cəmiyyətə təsir göstərə bilərlər. Bunun üçün isə media etikasına riayət etmək lazımdır", - deyə o əlavə edib.

Real Təhlil İnformasiya Mərkəzinin baş direktoru Mirşahin Ağayev bu gün bu foruma gələn iştirakçılardan əsas istəyinin diqqəti Qarabağa, işğaldan azad edilmiş ərazilərə yönəltmək olduğunu bildirib. Deyib ki, Qarabağ həqiqətlərinin dünya mediasına çatdırılmasına şərait yaratmaq istiqamətində səylərin göstərilməsi vacibdir.

Sonra çıxış edən Anadolu agentliyinin baş direktorunun müavini Yusuf Özhan deyib ki, müasir dövrdə oxucuların mediaya xərclədiyi zaman çox azdır və bu vaxtı onlar üçün faydalı etmək önəmlidir.

# Beynəlxalq Media Forumu keçirilib






Gənc nəsil üçün qəzetçilik anlayışından danışarkən gənclərin düşüncələrinə də diqqət yetirməliyik.

O bildirib ki, feyk xəbərlər cəmiyyətin psixoloji fenomenidir. Oxucuların düşüncəsinin feyk xəbərlərə necə reaksiya verdiyini öyrənərək iş görmək KİV üçün önəmli amillərdən biridir.

"Biz Azərbaycanda bu foruma qatılarkən 44 günlük Vətən müharibəsini, ovaxtkı fəaliyyətimizi xatırladıq. Biz 44 gün ərzində Qarabağ həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq üçün davamlı olaraq işlədik. Bu zaman biz feyk xəbərin nə dərəcə böyük təsirə malik olduğuna şahidlik etdik. Feyk xəbərlərlə böyük kütləni ələ almaq mümkündür. Lakin onu da bilmək lazımdır ki, həqiqət hər zaman ortaya çıxır və feyk xəbər verən media orqanlarına qarşı ciddi inamsızlıq yaranır", - deyə baş direktorun müavini vurğulayıb.

Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli deyib ki, mediada etik qaydalara riayət olunması cəmiyyətin keyfiyyətli informasiya almaq əmsalını yüksəldir. Müasir dövrdə rəqəmsal inkişaf nə qədər faydalı olsa da, bir o qədər də ziyana yol açır. Etik standartların pozulmasının qarşısını almaq üçün müasir dövrün problemləri sırasında feyk xəbərlər xüsusi qeyd olunmalıdır. Feyk xəbərlərin qarşısını almaq üçün qanunvericiliyin sərtləşdirilməsi, etik kodekslərdə dəyişikliklərin edilməsi, ənənəvi medianın imkanlarının və əhalinin media savadlılığının artırılması vacib amillərdir.

Daha sonra çıxış edən Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin dekanı Vüqar Ziferoğlu müasir medianın yeni yaşam tərzinin ən vacib və ayrılmaz hissəsinə çevrildiyini bildirib. Vurğulayıb ki, ənənəvi mediada əsas vacib element sosial məsuliyyət hissinin olmasıdır. İstər beynəlxalq, istərsə də yerli təşkilatların qəbul etdiyi etik qaydalarda sosial məsuliyyət hissi qabardılır. Müasir jurnalistikada dəqiqlik və operativlik yeni medianın ayrılmaz elementləridir. Yeni mediada isə operativlik prioritet təşkil edir.

❖ ❖ ❖

Forum çərçivəsində təşkil olunan "Azərbaycan mətbuatında Şuşa izi" adlı panel iclasına isə Milli Məclisin deputatı Sevil Mikayılova moderatorluq edib.

Tədbirdə çıxış edən "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin sədri Rövşən Məmmədov Şuşanın milli ideologiyadakı önəmindən, Şuşa ziyalılarının Azərbaycan cəmiyyətindəki böyük rolundan bəhs edib. Bildirib ki, Şuşa milli təfəkkürün formalaşmasının beşiyidir. O deyib ki, Şuşa ziyalıları çar Rusiyasına Şuşanın Azərbaycan torpaqları olması həqiqətini çatdırmağa çalışıblar.

"44 günlük Vətən müharibəsi ilə Ali Baş Komandan Şuşa ziyalılarının ovaxtkı çağırışlarını yerinə yetirdi. Azərbaycan mediası artıq müharibədən yox, Zəfərdən danışır. Bu gün Azərbaycanın media nümayəndələrinin Şuşada toplaşması mətbuatımızın qarşısına yeni vəzifələr qoyur. Qalib Ordu, qalib xalq, qalib Sərkərdə və qalib media. Azərbaycan mediası bu gün qalibdir", - deyə R.Məmmədov qeyd edib.

Azərbaycan Jurnalistlər Birliyinin sədri Elçin Şıxlı çıxış edərək Ulu Öndər Heydər Əliyevin Şuşaya böyük önəm verdiyini bildirib. Deyib ki, bunun nəticəsi olaraq Molla Pənah Vaqifin məqbərəsi ucaldılıb və abidənin açılışında Ulu Öndər şəxsən iştirak edib.

"Yeni Müsavat" Media Qrupunun rəhbəri Rauf Arifoğlu isə Şuşanın işğaldan azad olunması barədə danışıb. O, Şuşa ilə bağlı məqalələr, cəbhə bölgəsindən reportajlar, sonda isə Zəfər xəbərləri hazırladıqlarını bildirib. Deyib ki, bu gün Azərbaycan bu bölgəni beynəlxalq əməkdaşlığın mərkəzinə çevirib. Azərbaycan mediası artıq məğlubiyyəti yox, Zəfəri yazır.

"Azad Şuşa" saytının baş redaktoru Kərim Kərimli qeyd edib ki, Şuşa bu günədək haqqında ən çox yazı yazılan şəhərlərdəndir. Şuşa qədər adına şeir qoşulmuş ikinci şəhər yoxdur.

Baş redaktor ilk "Şuşa" qəzetinin fəaliyyətindən danışıb. Bu il qəzetin 90 yaşının tamam olduğunu qeyd edib. Deyib ki, bu qəzet tarixboyu müxtəlif adlarla fəaliyyət göstərib. Erməni vandalları isə "Şuşa" qəzetinin binasını tamamilə dağıdıblar.

Media Forumunun yüksək səviyyədə təşkil olunduğunu vurğulayan İraq Respublika Strateji Araşdırmalar Mərkəzinin direktoru Matz Muhi Əbdülhəmid Obada müqəddəs Şuşa torpağında belə bir tədbirdə çıxış etməkdən məmnunluğunu bildirib.

Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı bir sıra məqalələrin müəllifi olduğunu vurğulayan qonaq çıxışında xüsusilə Vətən müharibəsi zamanı ermənilərin, demək olar ki, kütləvi şəkildə dezinformasiyalar yaydıqlarını bildirib. O deyib: "İraqda, Suriyada və bir çox ərəb ölkəsində bu münaqişə ilə bağlı yanlış məlumatlar yayılırdı. Erməni lobbisinin təsiri ilə ərəb mediasında Azərbaycanın haqq işi barədə bir sıra yalan məlumatlar yayılmışdı. Vətən müharibəsində xeyli sayda dezinformasiyalar yayılırdı. Belə ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış əraziləri bəzən ərəb mediasında yanlış, təhrif olunmuş şəkildə təqdim edilirdi. Həmçinin ermənilər 44 günlük müharibə zamanı xristian məbədlərinin guya Azərbaycan tərəfindən dağıdılması kimi yalan informasiyaları geniş yayırdılar. Lakin Vətən müharibəsi başa çatdıqdan sonra beynəlxalq ictimaiyyət əsl həqiqətlərin şahidi oldu. Onlar şəhər və kəndlərin, tarixi-dini abidələrin ermənilər tərəfindən dağıdılmasını, yerləyeksan olunmasını gördülər".

❖ ❖ ❖

Forum çərçivəsində keçirilən dördüncü panel iclasında "Azərbaycan mediasının beynəlxalq əməkdaşlıq perspektivləri" mövzusunda müzakirələr aparılıb.

ADA Universitetinin Siyasi tədqiqat və nəşrlər üzrə direktoru Damjan Krnjeviç Miskoviçin moderatorluq etdiyi paneldə Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) İdarə Heyətinin sədri Aslan Aslanov, Türk Dövlətləri Təşkilatının layihə direktoru Ersin Aydoğan, Özbəkistan Respublikası Prezidentinin Administrasiyası yanında İnformasiya və Kütləvi Kommunikasiyalar Agentliyinin direktorunun birinci müavini Dilşod Saidjonov, Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin (MEDİA) Beynəlxalq əlaqələr və strateji planlaşdırma üzrə işçi qrupunun rəhbəri Rasim Bağırov və CBC TV-nin baş direktoru Vüqar Xəlilov çıxış ediblər.

Bu paneldə Azərbaycan mediasının beynəlxalq əməkdaşlıq perspektivləri, Azərbaycan-Türkiyə media platforması və Türk Dövlətləri Təşkilatı çərçivəsində media tərəfdaşlığı barədə müzakirələr aparılıb.

Forumun mediadakı yeni trendləri birlikdə müzakirə etmək baxımından əhəmiyyətini vurğulayan AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov bildirib ki, mətbuatın beynəlxalq əməkdaşlığında uğurları onun peşəkarlığı, jurnalistika ənənələrinə sadiqliyi, yeni texnologiyaların tətbiqi, etibarlı xəbər mənbəyi imicinin qorunması kimi amillərdən çox asılıdır. Sosial media dövründə etibarlı xəbər mənbələrinə ehtiyac durmadan artır. Bu səbəbdən də media qurumları, xüsusən də informasiya agentlikləri xəbər istehsalında təcrübəsi olan, informasiyaları dəqiqliyi ilə seçilən tərəfdaşlarla çalışmağa üstünlük verirlər. Müasir dövrün tendensiyaları da digər tərəfdən mətbuatın beynəlxalq əməkdaşlığının vacibliyini şərtləndirən amillərdən biri kimi çıxış edir.

Media sahəsində beynəlxalq əməkdaşlığın əsas istiqamətlərinin KİV-in informasiya mübadiləsi aparması və qabaqcıl təcrübələrdən qarşılıqlı şəkildə yararlanması olduğunu vurğulayan A.Aslanov deyib: "Belə yanaşma media orqanlarının təşkilatlanmasına, peşəkarlıqlarının artmasına, mətbuatın problemlərini təhlil etmək üçün konfrans və seminarların təşkili kimi vasitələrdən geniş istifadə etməsinə şərait yaradır. Bu baxımdan Azərbaycan media subyektlərinin beynəlxalq informasiya qurumlarında təmsil olunması önəmlidir. Düşünürəm ki, Azərbaycan mediasının beynəlxalq əlaqələri indi daha fəaldır, daha genişdir. Əminəm ki, media sahəsində həyata keçirilən islahatlar, tətbiq edilən yeniliklər mətbuatın beynəlxalq əməkdaşlığının daha da güclənməsinə töhfə verəcək".

Türk Dövlətləri Təşkilatının layihə direktoru Ersin Aydoğan bu qurumun fəaliyyətindən bəhs edib. O bildirib ki, Türk Dövlətləri Təşkilatının 44 günlük müharibədən sonra türk dövlətləri arasında ortaq platforma kimi çıxış etməsi müasir geosiyasi reallıqlar kontekstində onun əhəmiyyətini daha da artırır. Feyk xəbərlərin yayılmasının qarşısının alınmasının vacib olduğunu vurğulayan layihə direktoru deyib: "Dezinformasiya ilə mübarizədə mediaya daha çox dəstək vermək lazımdır. Bunun üçün də media qurumlarının qarşılıqlı əməkdaşlıq şəraitində fəaliyyətinə diqqətin artırılması indi daha vacib rol oynayır".

Özbəkistan Respublikası Prezidentinin Administrasiyası yanında İnformasiya və Kütləvi Kommunikasiyalar Agentliyinin direktorunun birinci müavini Dilşod Saidjonov paneldə türkdilli dövlətlər arasında əməkdaşlıqdan danışaraq deyib: "Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin hakimiyyəti dövründə Azərbaycanda güclü KİV ordusu yaranıb. Vətən müharibəsi dövründə Azərbaycanın informasiya savaşında qalib gəlməsində Prezident İlham Əliyevin əsl həqiqətləri beynəlxalq media vasitəsilə dünyaya çatdırması mühüm rol oynadı. Onun verdiyi bəyanatlar, müsahibələr beynəlxalq mediada, sosial şəbəkələrdə geniş yayılırdı. Bu məlumatlar hər yerdə dərc olunurdu. İctimaiyyət də bu prosesləri izləyirdi. Bu, böyük nailiyyətdir. Bizim milli informasiya agentliyimiz UzA AZƏRTAC ilə sıx əməkdaşlıq edir. İnanıram ki, bu, xalqlarımız arasında əlaqələrin daha da möhkəmlənməsinə mühüm töhfə verəcək".

MEDİA-nın Beynəlxalq əlaqələr və strateji planlaşdırma üzrə işçi qrupunun rəhbəri Rasim Bağırov çıxışında bildirib ki, Azərbaycan media sahəsində əməkdaşlığın qurulmasını prioritet məsələ kimi diqqət mərkəzində saxlayır. O, media sahəsində əməkdaşlığın beynəlxalq münasibətlərdə mühüm rol oynadığını vurğulayıb.

CBC TV-nin baş direktoru Vüqar Xəlilov çıxışında Azərbaycan mediasının İkinci Qarabağ müharibəsi zamanı öz peşəkarlığını nümayiş etdirdiyini diqqətə çatdıraraq qeyd edib: "Bu peşəkarlıq hər kəsə nümunə ola bilər. Digər KİV nümayəndələri də bu təcrübədən yararlana bilərlər. Azərbaycan mətbuatı müharibə zamanı irqçi məqalələr dərc etmədi, qonşu xalqa düşmənçilik münasibəti göstərmədi, yalnız əsl həqiqətləri beynəlxalq ictimaiyyətə çatdırdı".

Bununla da Azərbaycanın mədəniyyət paytaxtı Şuşada Beynəlxalq Media Forumu işini başa çatdırıb.

❖ ❖ ❖

Forumdan sonra tədbirin iştirakçıları Şuşa şəhərinin görməli yerləri ilə tanış olublar.

Qonaqlar əvvəlcə Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir bəy Hacıbəylinin güllələnmiş heykəllərinin qoyulduğu Şuşa şəhər mərkəzi meydanına gəliblər. Məlumat verilib ki, işğal zamanı ermənilər heykəlləri Ermənistana apararaq əritmək istəyiblər. Lakin Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə bu heykəllər Ermənistandan alınaraq Azərbaycana gətirilib və Bakıda İncəsənət Muzeyinin həyətində saxlanılıb. Şuşa işğaldan azad olunduqdan sonra həmin heykəllər əvvəlki yerlərinə qaytarılıb.

Sonra qonaqlar Şuşa qala divarlarını ziyarət ediblər. Onlara Şuşa şəhərinin tarixi, qala divarlarının tikilməsi barədə məlumat verilib. Bildirilib ki, Qarabağ xanı Pənahəli xan tərəfindən inşa edilən qala uzun müddət şəhəri xarici müdaxilələrdən qoruyub, alınmazlıq simvolu olub. İşğal dövründə qala divarları erməni vandalizminə məruz qalıb. Şuşa işğaldan azad edildikdən sonra qalada təmir-bərpa işləri aparılıb.

Daha sonda forum iştirakçıları Cıdır düzündə olub, oradan açılan gözəl mənzərəni seyr ediblər. Diqqətə çatdırılıb ki, Vətən müharibəsi zamanı qəhrəman əsgərlərimiz böyük şücaət göstərərək sıldırım qayalarla Cıdır düzünə qalxıb, canları, qanları bahasına Şuşanı işğaldan azad ediblər. Bu gün Cıdır düzü işğaldan əvvəl olduğu kimi, yenə də möhtəşəm tədbirlərin keçirildiyi məkana çevrilib.

## *Mixail QUSMAN:* "Beynəlxalq Media Forumun Azərbaycanın mədəniyyət paytaxtı Şuşada keçirilməsi mühüm hadisədir"

"Medianın İnkişafı Agentliyi tərəfindən və Prezident Administrasiyasının dəstəyi ilə təşkil edilmiş Beynəlxalq Media Forumun keçirilməsi çox mühüm hadisədir. Əlbəttə, çox mühümdür ki, bu tədbir işğaldan azad edilmiş Şuşada - böyük tarixi ənənələr şəhərində, Azərbaycanın mədəniyyət paytaxtında keçirilir".



AZƏRTAC xəbər verir ki, bu sözləri Şuşa şəhərində keçirilən "Mediada qlobal trendlər, yeni çağırışlar" mövzusunda Beynəlxalq Media Forumda iştirak edən Rusiyanın TASS İnformasiya Agentliyinin baş direktorunun birinci müavini Mixail Qusman mətbuata müsahibəsində söyləyib.

Mixail Qusman deyib: "Burada Azərbaycanın, demək olar ki, bütün media resurslarının liderləri, görkəmli jurnalistlər, peşəkarlar toplaşıb. Biz hamımız - forumun iştirakçıları və qonaqları medianın inkişafı, onun müasir Azərbaycanda və dünya media məkanında rolu, yeri barədə ətraflı söhbət aparacağıq. Buna görə Azərbaycan Prezidenti İlham Əliyevin xeyir-duasını, müasir Azərbaycan jurnalistikasının cəmiyyətin, ölkənin həyatında yeri və rolu barədə sözlərini eşitmək bizim üçün vacib idi. Mübaliğəsiz deyə bilərəm ki, bu təbrik bizi ruhlandırdı".

TASS İnformasiya Agentliyinin baş direktorunun birinci müavini vurğulayıb ki, panel diskussiyalarında jurnalistlərin yaşadıqları böyük ölkənin səviyyəsinə necə layiq olmaq, Azərbaycanda baş verən fasiləsiz müsbət proseslərin kütləvi informasiya vasitələrində layiqli yer tutması, bütün cəmiyyətə açıq və çox əyani şəkildə çatdırılması üçün nə etmək lazım olması barədə ətraflı, açıq, prinsipial söhbət aparılacaq.

## Beynəlxalq Media Forumunun iştirakçılarının Şuşaya səfəri başlayıb

Beynəlxalq Media Forumda iştirak məqsədilə Azərbaycana gələn nümayəndə heyətinin Şuşa şəhərinə səfəri başlayıb.

AZƏRTAC xəbər verir ki, forum iştirakçıları əvvəlcə təyyarə ilə Qarabağın hava qapısına - Füzuli Beynəlxalq Hava Limanına gəliblər.

Beynəlxalq Media Forumunun iştirakçıları arasında əcnəbi media təmsilçiləri ilə yanaşı, Azərbaycanın media nümayəndələri, ekspertləri və rəsmilər də var.

Qeyd edək ki, onlar iyulun 22-də Şuşada "Mediada qlobal trendlər, yeni çağırışlar" mövzusunda keçiriləcək beynəlxalq forumda iştirak edəcəklər.



# Ağdam artıq işğal gününü deyil, Zəfər bayramını qeyd edir





# Qapısız açarlar

İnsan həyatda nə qədər qapı görür?

Sayı-hesabı varmı?

İnsan həyatında neçə dəfə qapı açıb-örtür?

Hesablamaq mümkünmü?

Amma bu qapıların ən yaxını, ən doğması, şübhəsiz, evimizin qapısı olur...

Xüsusən, dünyaya göz açdığımız evin qapısı...

*Adətən, qapını örtəndə evdə özümüzü təhlükəsiz hiss edirik: çünki içəri nə qurd-quş girə biləcək, nə də qapını döyməmiş kənar adam.*

*Bayıra çıxıb qapımızı açarla bağlayanda isə evimizi təhlükəsiz sayırıq: heç kim bizdən xəbərsiz və icazəsiz evə girə bilməz!*

**I Qarabağ müharibəsində min bir zəhmətlə, sevinclə, xərclə tikdirdiyi evini zorən düşmən işğalında qoyaraq tərk etməyə məcbur olan yüz minlərlə məcburi köçkün də evdən çıxanda qapısını açarla kilidlədi!**

**Sonra Allaha əmanət edərək sonuncu dəfə həyətinə, evinə baxıb ah çəkməklə doğma yurdu tərk etdi...**

❖ ❖ ❖

Çoxları hələ hara gedəcəyini, harada məskunlaşacağını dəqiqləşdirməmişdi...

Heç biri haçan geriyə dönəcəyini də bilmirdi...

Amma hamının içində zorən, özünü inandırmaq bahasına bir ümid işartısı da vardı!

*Tezliklə geri dönəcəklər!*

*Mütləq geri dönəcəklər!*

*Geri qayıdanda qoyduqları evi olduğu kimi, salamat görəcəklər!*

*Bağladıqları qapını bərk-bərk saxladıqları açarla açacaqlar!*

**Və həmin açarı ən möhkəm yerdə gizlətdilər!**

**Heç vaxt onu itirmədilər!**

Sönməyən ümid şöləsi kimi qoruyub saxladılar!

Dünyalarını dəyişənlər isə doğmalarına etibar etdilər!

Beləcə, doğma evin qapı açarını əziz-əziz saxlayaraq uzun illər boyu gözlədilər, dözdülər!

Heyhat!!!

❖ ❖ ❖

*Hara getsək, harada qalsaq da, öz evimizin dadını, rahatlığını heç yerdə tapmadıq...*

*Ən yaraşıqlı parklar belə qoyub gəldiyimiz həyəti əvəz etmədi...*

Heç bir meyvə öz zəhmətimiz, alın tərimiz ilə hasilə gətirdiyimiz meyvələrin tamını vermədi...

Gözümüz həmişə doğma yurdu axtardı...

Ürəyimiz həmişə bizi geriyə səslədi...

**Özümüzü özümüzlə gətirdiyimiz açarla ovundurduq!**

**Bizə təsəlli olan, ümidimizin itməyinə yol verməyən "sirli açarla!"**

**Artıq bizim üçün bircə evin yox, bütün Vətənin rəmzinə çevrilən açarla!**

Nə biləydik ki...



❖ ❖ ❖

Düşmənin də layiqlisi və şərəfsizi olur!

Düşmənin də mədənisi və vəhşisi olur!

Düşmənin də insanı və faşisti olur!

*Erməni düşməni isə bambaşqadır!*

*O, həm şərəfsizdir, həm vəhşidir, həm qəddardır, həm də faşistdən də artıq faşistdir!*

O, dildə özünü "məzlum", "mədəni", "qədim" xalq kimi təqdim edir.

Əməldə isə..

**Bunun nə olduğunu görmək və bilmək üçün işğaldan azad edilmiş Qarabağa baş çəkmək kifayətdir!**

İşğal dövründə erməni Qarabağda "daş üstə daş qoymayıb".

Hər iki mənada!

*Yalnız dağıdıb, oğurlayıb, söküb-daşıyıb, məhv edib!*

*Bayquş xislətli olduğundan hər yanı xarabalığa çevirib.*

*Bütün murdarlığını yaşayış məntəqələrinə, evlərə, yollara, ağaclara, təbiətə, çaylara, göllərə töküb!*

"Mədəni"liyini, "məzlum"luğunu, "qədim"liyini bu yolla sübuta yetirib!

Od düşdüyü yeri yandırdığı kimi, o da ayaq basdığı yeri məhv edib!

Özündən sonra yalnız dağıntı, viranəlik qoyub!

"Bura mənimdir" desə də, amma buradan qovulacağını dəqiq bilib və heç zaman unutmayıb!

Odur ki, bacardığı qədər ziyan vurmağa calışıb!

Bu düşmən üçün müqəddəs heç nə yoxdur!

Məsələn:

Özünü "xristian dinini birinci qəbul edən millət" adlandırsa da, bir kilsəni belə abadlaşdırmayıb!

Məscidləri dağıdıb, orada murdar heyvanlar saxlayıb!

Qəbirləri sökərək ölənlərin qızıl dişini oğurlayıb!

Çayları zəhərləyib, "qırmızı kitab"a düşən ağacları belə qırıb aparıb.

Yəqin ki, əli səmaya çatsaydı, ulduzları da oğurlayıb satardı...

❖ ❖ ❖

**Müzəffər Ali Baş Komandan İlham Əliyev təkcə Qarabağı azad etmədi!**

**Həm də bu murdarları, insan adına yaraşmayan varlıqları cəzalandırdı!**

*Qarşısında diz çökdürdü, belini qırdı, "dəmir yumruğ"u ilə başlarını əzdi!*

*"Bayraqdar"larla parça-tikə etdi, leşlərini torpağa qarışdırdı!*

*Əsgərlərini fərariyə, ordenli generallarını qorxağa, gizlənməyə deşik axtaran siçovula çevirdi!*

**Nə yaxşı ki, İlham Əliyev kimi qüdrətli sərkərdəmiz var!**

**Nə yaxşı ki, Müzəffər Ali Baş Komandanımız düşməni darmadağın edərək torpaqlarımızdan qovdu!**

**Nə yaxşı ki, 44 gün ərzində İlham Əliyev qisasımızı da alaraq ürəyimizə bir sərinlik gətirdi!**

Yoxsa viran qalmış yurda qayıdarkən dözə bilməzdik!

İndi torpağımız da qaytarılıb, qisasımız da alınıb!

*Prezidentimiz isə Qarabağı tikib-qurmağa, cənnətə çevirməyə başlayıb!*

*Sönməkdə olan ümidimiz gur tonqala, möhkəm inama çevrilib!*

**İndi həqiqətən də Qarabağ bizimdir!**

**İndi həqiqətən Qarabağ Azərbaycandır!**

❖ ❖ ❖

Məcburi köçkünə çevrilib qaçqın düşəndə qeyri-müəyyənliyə üz tutmuşduq!

Doğma Vətəndə, doğmalar arasında olsaq da, cavabsız suallar, məchulluqlar çox idi!

Lap çox!

Həmin məchulların bir qismi məcburi köçkünlük dövründə bizi tərk etmədi!

Düzdür, bir çox suallar cavabını tapdı!

**Baş sualın cavabını isə bizə Müzəffər Ali Baş Komandanımız 8 noyabr 2020-ci ildə verdi!**

**Həsrətlə gözlədiyimiz cavabı, bizim üçün hər şeydən vacib, hər şeydən əziz və qiymətli olan cavabı!**

**Zəfər müjdəli o cavab bizim geriyə doğru yolumuzu açdı!**

*Bizi 27 il həsrətlə, əzabla, səbirsizliklə gözlədiyimiz xoşbəxtliyə qovuşdurdu!*

*İndi isə həsrətlə doğma yurda dönəcəyimizi gözləyirik.*

*Dövlətimiz, Prezidentimiz həmin günün mümkün qədər tez gəlməsi üçün hər şey edir!*

**Bilirik ki, tezliklə cənnət Qarabağa qayıdacağıq!**

**"Ağıllı" kəndlərə, şəhərlərə qayıdacağıq!**

**Yeni çəkilən yollarla qayıdacağıq!**

*Xoşbəxt günlərimizə qayıdacağıq!*

*Açıq qapılı yeni, rahat evlərimizə qayıdacağıq!*

*O evlərin, o qapıların açarını bizə irəlicədən dövlətimiz, Prezidentimiz verəcək!*

27 il saxlayıb, sonra qapısını tapmadığımız evlərin köhnə açarlarını əvəz edəcək açarları!

Bizim üçün yeni həyata çevrilən açarları!

**Və həmin açarları heç zaman itirməyəcəyik!**

**Çünki yurd itkisinin, ev itkisinin, Vətən itkisinin nə olduğunu, necə əzablı olduğunu qaçqın həyatı dövründə yaxşı gördük!**

**Heç nə unudulmur, heç kəs yaddan çıxmır!**

**Bəxtiyar SADIQOV**

# Azərbaycanda söz azadlığı təmin olunub

## YAP Mərkəzi Aparatında KİV nümayəndələri ilə görüş keçirilib

**İyulun 22-də Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında 22 İyul - Milli Mətbuat Günü münasibətilə kütləvi informasiya vasitələrinin nümayəndələri ilə görüş keçirilib. Əvvəlcə Yeni Azərbaycan Partiyasının Mərkəzi Qərargahında Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə gül dəstələri düzülüb. Ulu Öndər Heydər Əliyevin, torpaqlarımızın müdafiəsi və azad edilməsi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**




Görüşdə çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, Azərbaycan zəngin dövlətçilik tarixinə və ictimai-siyasi ənənələrə malikdir. Onun sözlərinə görə, Azərbaycan milli mətbuatı zəngin və şərəfli inkişaf yolu keçib. Dövrünün görkəmli ziyalısı olan Həsən bəy Zərdabinin 22 iyul 1875-ci ildə nəşr etdirdiyi "Əkinçi" qəzeti xalqın maariflənməsində, milli və bəşəri dəyərlərin təbliğində müstəsna rol oynamaqla yanaşı, günümüzdə də dəyərli və aktual olan mətbuat ənənəsi formalaşdırmışdır. "Təsadüfi deyil ki, Azərbaycan mətbuatı SSRİ dövründə bu ənənələrə söykənərək öz milliliyini qoruyub saxlamış, xalqımızın mənafeyinin, İttifaqın tərkibində olan respublikamızın maraqlarının qorunmasında mühüm rol oynamış, mövcud imkanlar və şərait çərçivəsində ziyalı sözünü cəmiyyətə çatdırmağa müvəffəq olmuş, dəyərli sözün tribunasına çevrilmişdir. Müstəqillik dövründə isə Azərbaycan mətbuatının tarixində yeni dönəm - inkişaf mərhələsi başlanmışdır. Ümummilli Liderimiz Heydər Əliyevin bu sahəyə xüsusi diqqət və qayğı göstərməsi nəticəsində Azərbaycan mediası milli maraqların qorunması, cəmiyyətin siyasi-ideoloji hazırlığının gücləndirilməsi, ölkə daxilində və dünyada baş verən proseslərin ictimaiyyətə çatdırılması üçün önəmli işlər görmüşdür. Mətbuat üzərində senzuranın ləğv edilməsi, bu sahədə qanunvericilik bazasının yaradılması, KİV-in maddi-texniki bazasının gücləndirilməsi isə medianın imkanlarının genişlənməsini təmin etmişdir", - deyə Tahir Budaqov bildirib.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri qeyd edib ki, Ümummilli Liderimizin əsasını qoyduğu bu siyasət Prezident İlham Əliyev tərəfindən dövrün çağırışlarına, reallıqlarına uyğun olaraq uğurla davam etdirilir: "Demokratik inkişaf yolunda əmin addımlarla irəliləyən Azərbaycanda söz azadlığı təmin olunub. Jurnalistlərin peşəkarlığının artırılması, sosial müdafiəsinin gücləndirilməsi, mətbuatın maddi-texniki bazasının möhkəmləndirilməsi dövlətin diqqət mərkəzindədir və davamlı olaraq bu istiqamətdə mühüm addımlar atılır. Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyinin yaradılması, bununla yanaşı, "Media haqqında" yeni qanunun qəbul olunması mətbuatımızın inkişafına xidmət edən məqsədyönlü işlərdir".

Tahir Budaqov diqqətə çatdırıb ki, Heydər Əliyevin siyasi mirası olan, Ümummilli Liderimizin ideyaları əsasında fəaliyyətini uğurla davam etdirən, Prezident İlham Əliyevin sədrliyi ilə möhtəşəm nailiyyətlər qazanan, Azərbaycanın dayanıqlı inkişafına önəmli töhfələr verən Yeni Azərbaycan Partiyası da media ilə əməkdaşlığa böyük əhəmiyyət verir. 22 İyul - Milli Mətbuat Günü münasibətilə KİV nümayəndələri ilə görüşümüz ənənə halını alıb və bundan sonra da media ilə sıx təmaslarımız davam edəcək.

22 İyul - Milli Mətbuat Günü münasibətilə media nümayəndələrini səmimi-qəlbdən təbrik edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri onlara yeni yaradıcılıq uğurları diləyib.

Tədbirdə çıxış edənlər Azərbaycan dövlətinin milli mətbuatımıza qayğısından bəhs edib, göstərilən diqqətə görə Yeni Azərbaycan Partiyasının rəhbərliyinə təşəkkürlərini bildiriblər.

Sonda KİV nümayəndələrinə mükafatlar təqdim olunub.

*"Azərbaycan"*

# Gürcüstan Prezidenti Salome Zurabişvili Şeyxülislam Allahşükür Paşazadəni qəbul edib

Tbilisidə səfərdə olan Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə iyulun 22-də Gürcüstan Prezidenti Salome Zurabişvili ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Gürcüstan arasında siyasi, iqtisadi, mədəni və din sahələrində əlaqələrin inkişaf perspektivləri diqqət mərkəzində olub. Tərəflər ölkələrimiz arasındakı qədim dostluq və mehriban qonşuluq münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsindən məmnunluqla danışıblar. Bildirilib ki, Azərbaycan və Gürcüstanın ali dini rəhbərləri arasındakı dostluq münasibətləri xalqlarımız tərəfindən də yüksək qiymətləndirilir.

Görüşdə Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev və digər rəsmi şəxslər iştirak ediblər.

# Azərbaycan Gürcüstanın yalnız qonşusu deyil, qardaş xalq, dost dövlətdir

Tbilisidə səfərdə olan Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, QMİ sədri Azərbaycan Prezidenti İlham Əliyevin səmimi salamlarını Baş nazir İrakli Qaribaşviliyə çatdırıb.

Baş nazir İrakli Qaribaşvili Azərbaycan Prezidenti ilə olan dostluğundan söz açıb, onun da səmimi salamlarını dövlətimizin başçısına çatdırmağı QMİ sədrindən xahiş edib.

Ölkələrimiz arasındakı münasibətləri yüksək qiymətləndirən İrakli Qaribaşvili deyib ki, Azərbaycan Gürcüstanın yalnız qonşusu deyil, qardaş xalq, dost dövlətdir.

"Sizə böyük hörmətimiz var və Sizi Gürcüstanda görməyə şadam. Sizi Gürcüstanda qonaq etmək bizim üçün böyük şərəfdir. Xatırlayıram ki, bir neçə il əvvəl tanış olmuşuq, çox gözəl söhbətimiz olub. Şadam ki, Siz bu gün Tbilisidə bizə yenidən baş çəkmisiniz", - deyə İ.Qaribaşvili bildirib.

Baş nazir deyib ki, Gürcüstan dövləti Azərbaycan ilə qardaşlığı, dostluğu yüksək qiymətləndirir. Bütün istiqamətlərdə bizim qeyri-adi nəticələrimiz, konkret irəliləyişlərimiz, çox yaxşı münasibətlərimiz var və Sizin səfəriniz bu qardaşlığın, sevginin sübutudur.

"Sizin şəxsinizdə xüsusi dostluğumuzun olması məni xüsusilə sevindirir və sizin xüsusi ehtiramınızdan xəbərim var", - deyə Baş nazir vurğulayıb.

Allahşükür Paşazadə Gürcüstanın Baş nazirinin iki ölkənin qardaşlıq və dostluq münasibətlərinə verdiyi töhfəni qeyd edib.

"Mən siyasətçi deyiləm, amma Qafqazda bu iki qonşu ölkənin münasibətlərinin siyasi, iqtisadi, mədəni, dini və digər istiqamətlərdə yüksək səviyyədə olması birmənalı olaraq diqqət çəkir", - deyə A.Paşazadə vurğulayıb.

Söhbət zamanı bildirilib ki, Gürcüstan hökuməti ölkənin müsəlman icmasına dəstək istiqamətində bir sıra tədbirlər görür. Bu gün Gürcüstanda 300 məscid fəaliyyət göstərir. Onların 228-i müsəlmanların mülkiyyətinə verilib. Bundan başqa, müsəlmanlara mərkəzi qərargah inşa etmək üçün 1300 kvadratmetrlik torpaq sahəsi də ayrılıb.

Görüşdə Azərbaycanın bu ölkədəki səfiri Faiq Quliyev, QMİ sədrinin müavini Salman Musayev, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Sahib Nağıyev, Gürcüstanın Zuqduqi və Tsaişi Yeparxiyasının mitropoliti Gerasim, Dini Məsələlər üzrə Dövlət Agentliyinin sədri Zaza Vaşakmadze və digər rəsmi şəxslər iştirak ediblər.

# Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilir

Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərlərinin 2022-ci ilin iyul ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, energetika naziri Pərviz Şahbazov iyulun 22-si Quba şəhərində vətəndaşları qəbul edib. Energetika Nazirliyindən bildirilib ki, qəbul zamanı vətəndaşlar elektrik enerjisi və qaz təchizatı, texniki şərtin verilməsi, şəbəkəyə qoşulma, elektrik və qaz sərfiyyatına görə yaranan borc və cərimələr, elektrik enerjisinin keyfiyyəti, qurğu və avadanlıqların istismara yararsız olması və digər məsələlərlə bağlı müraciətlərini diqqətə çatdırıblar.

Nazirliyin aidiyyəti struktur bölmə rəhbərlərinin iştirakı ilə keçirilmiş qəbulda vətəndaşların müraciətləri dinlənilib, qaldırılan məsələlərin qanunvericiliyin tələblərinə uyğun həll edilməsi üçün müvafiq tapşırıqlar verilib. Nazirliyin fəaliyyət dairəsinə aid olmayan müraciətlər isə aidiyyəti qurumlara göndərilməsi üçün qeydə alınıb.

Qəbulda Sumqayıt şəhəri və Quba, Qusar, Xaçmaz rayonlarından olan 14 vətəndaş iştirak edib.

❖ ❖ ❖

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin (AAYDA) İdarə Heyətinin sədri Saleh Məmmədov Cəlilabad rayonunda vətəndaşları qəbul edib.

Agentlikdən bildirilib ki, qəbuldan əvvəl Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət edilərək abidə önünə gül dəstələri düzülüb, Ulu Öndərin əziz xatirəsinə ehtiram bildirilib.

Daha sonra Cəlilabad rayonu Heydər Əliyev Mərkəzinin inzibati binasında keçirilən qəbulda Cəlilabad, Biləsuvar və Cəbrayıl rayonlarından olan vətəndaşların müraciət və şikayətləri dinlənilib.

Qəbul zamanı müraciətlər əsasən avtomobil yollarının təmir-bərpası və yenidən qurulması, işə qəbul və digər məsələlərlə bağlı olub.

Qəbulda hər bir vətəndaşın müraciəti dinlənilib, şikayətlərin qısa müddətdə araşdırılaraq zəruri tədbirlərin görülməsi barədə aidiyyəti struktur bölmələrinin rəhbərlərinə tapşırıqlar verilib. Vətəndaşlar tərəfindən qaldırılan məsələlərin bir qismi yerində həll olunub, araşdırılmasına ehtiyac olan müraciətlər nəzarətə götürülüb.

❖ ❖ ❖

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev iyulun 22-də Bərdə Rayon Mərkəzi Xəstəxanasında Bərdə və Tərtər rayonlarının sakinləri ilə görüşüb.

Görüşdən əvvəl Ümummilli Lider Heydər Əliyevin Bərdə şəhərindəki abidəsi ziyarət edilib. Abidə önünə gül dəstələri qoyulub, Ulu Öndərin xatirəsi ehtiramla yad olunub.

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İdarə Heyəti sədri vəzifəsini icra edən Vüqar Qurbanov, Bərdə və Tərtər rayon mərkəzi xəstəxanalarının rəhbərlərinin iştirakı ilə keçirilən qəbulda 42 nəfərin müraciətinə baxılıb. Vətəndaşların müraciətləri əsasən əlillik məsələləri, iş və əmək münasibətləri, müayinə-müalicə, icbari tibbi sığorta çərçivəsində ixtisaslaşdırılmış tibb müəssisələrinə göndəriş vərəqələrinin verilməsi ilə bağlı olub. Müraciətlər diqqətlə dinlənilib və bir sıra məsələlər yerində həll olunub. Digər müraciətlərin araşdırılması və qanunvericiliyə uyğun baxılması məqsədilə müvafiq tapşırıqlar verilib.

Qəbuldan sonra agentliyin sədri Bərdə və Tərtər rayon mərkəzi xəstəxanalarında işlə təmin olunan 22 nəfər Vətən müharibəsi iştirakçısı və şəhid ailə üzvləri ilə görüşüb.

*AZƏRTAC*

# Şeyxülislam Allahşükür Paşazadə Gürcüstanın "Dostluq" ordeni ilə təltif olunub

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Gürcüstanın "Dostluq" ordeni ilə təltif olunub.



AZƏRTAC xəbər verir ki, iyulun 22-də Gürcüstan Patriarxının iqamətgahında orden Allahşükür Paşazadəyə təqdim olunub.

Bildirilib ki, Gürcüstan Pravoslav Kilsəsi QMİ sədrini xüsusi mükafata şeyxülislamlıq fəaliyyətinin 40-cı ildönümü, habelə gürcü və Azərbaycan xalqları arasında əlaqələrin möhkəmlənməsinə verdiyi xüsusi töhfələrə görə layiq görüb.

Patriarx II İlya Allahşükür Paşazadəni təbrik edib, onun şüyxülislamlıq fəaliyyətini, xalqlarımız arasında dostluq münasibətlərinin inkişafındakı xidmətlərini xüsusi qeyd edib və ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

II İlya deyib: "Gürcüstan-Azərbaycan dostluğunu və qardaşlığını heç kim poza bilməz. Bu dostluq toxunulmaz və əbədidir".

A.Paşazadə onu "Dostluq" ordeninə layiq gördüklərinə görə II İlyaya və Gürcüstan Pravoslav Kilsəsinə minnətdarlığını bildirib.

Şeyxülislam deyib: "Mən bir çox mükafat almışam, lakin yaxın dostumun əlindən "Dostluq" ordenini almaq mənim üçün böyük şərəfdir. Bu orden, həmçinin Azərbaycan və Gürcüstan dövlətləri və xalqları arasındakı yüksək səviyyəli münasibətlərin, qardaşlığın, II İlya həzrətlərinin böyüklüyünün və ağsaqqallığının bariz nümunəsidir".

A.Paşazadə II İlyanı Azərbaycana, işğaldan azad olunan Qarabağ torpaqlarına səfərə dəvət edib. Bildirib ki, Azərbaycan 30 il əvvəlki simasını tam dəyişib, inkişaf edib və daha da gözəlləşib. Qarabağda quruculuq işləri görülür. Qafqazın ağsaqqalı kimi sizin Azərbaycana yenidən səfər etməyiniz və xeyir-dua verməyinizi istəyirəm.

Mərasimdə Gürcüstan Pravoslav Kilsəsinin yepiskopu Mitropolit Şio, ruhanilər, Azərbaycanın bu ölkədəki səfiri Faiq Quliyev, QMİ sədrini müşayiət edən nümayəndə heyətinin üzvləri iştirak ediblər.

Qeyd edək ki, ordenin üzərində şam, küknar və kiparisdən kəsilərək yonulmuş üç əsadan cücərən möcüzəvi ağac - Allahın insanlara verdiyi rəhmət, sülh və xeyir-dua əlaməti və rəmzi kimi təsvir edilib.

# Azərbaycan ilə Gürcüstan arasında ikitərəfli əlaqələrin inkişafı məmnunluq doğurur

Tbilisidə səfərdə olan Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Allahşükür Paşazadə Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə iki ölkə arasında əlaqələrin inkişaf perspektivləri diqqət mərkəzində olub, ikitərəfli münasibətlərin daha da dərinləşməsində parlamentlərin rolu qeyd edilib.

Şalva Papuaşvili QMİ sədrini Gürcüstan parlamentində salamlamaqdan məmnun olduğunu deyib, iki ölkənin ali dini liderləri arasındakı dostluq münasibətlərinin dövlətlərimiz arasındakı əlaqələrin inkişafına böyük təkan verdiyini bildirib. Vurğulayıb ki, Cənubi Qafqazda sülh və xalqların tərəqqisi üçün dini-mənəvi liderlərin yüksəksəviyyəli əlaqələrinin mühüm önəmi var.

Qafqazın ağsaqqalı olan Gürcüstan Patriarx-Katolikosu ilə 42 il ərzində davam edən qardaşlıq münasibətlərinə böyük dəyər verdiyini bildirən Şeyxülislam Allahşükür Paşazadə Gürcüstanın dini liderinin dəvəti ilə baş tutan səfərini yüksək qiymətləndirib. Bildirib ki, xalqlarımızın son onilliklərdə həyatında baş verən mühüm və mürəkkəb dönəmlərdə möhtərəm qardaşı ilə hər zaman Uca Yaradanın buyurduğu yolla birgə addımlayıblar. Müstəqil Azərbaycan və Gürcüstan arasında uğurlu siyasi, iqtisadi münasibətlərdən, regionun mənafeyi naminə birgə əməkdaşlığın inkişafından danışan Allahşükür Paşazadə xalqlarımızın dini-mənəvi müstəvidə əlaqələrinin inkişafı üçün iki ölkənin dini liderlərinin əllərindən gələni əsirgəmədiklərini qeyd edib.

Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək uğrunda Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuzun qalibiyyətli Vətən müharibəsi zamanı Gürcüstanın dost dəstəyini yüksək qiymətləndirən Allahşükür Paşazadə bu gün azad Qarabağda aparılan geniş quruculuq işlərindən bəhs edib.

Allahşükür Paşazadə Azərbaycan ilə Gürcüstan arasında ikitərəfli əlaqələrin, o cümlədən parlamentlərarası münasibətlərin inkişafından məmnunluqla danışıb. Bildirib ki, qanunverici orqanlar arasındakı dostluq əlaqələri digər sahələrdə də əməkdaşlığın genişləndirilməsinə imkan yaradır. Söhbət zamanı Azərbaycan Milli Məclisinin Sədri Sahibə Qafarovanın bir müddət əvvəl Gürcüstana səfərinin əhəmiyyəti vurğulanıb. Parlament sədrləri, eləcə də deputatların qarşılıqlı səfərlərinin sayının artırılmasının əhəmiyyətli olduğu qeyd edilib.

Görüşdə Azərbaycanın bu ölkədəki səfiri Faiq Quliyev, Milli Məclisin deputatları və digər rəsmi şəxslər iştirak ediblər.

# "Heritage" Fondu "Azərbaycanın rəsmi Vaşinqtonun daha çox strateji diqqətinə layiq olmasının səbəbləri" haqqında məqalə dərc edib

ABŞ-ın nüfuzlu beyin mərkəzlərindən biri olan "Heritage" Fondunun "İqtisadi Azadlıq İndeksi"nin redaktoru, baş tədqiqatçı Entoni Kimin Azərbaycanın ABŞ üçün əhəmiyyətindən bəhs edən məqaləsi dərc olunub.




AZƏRTAC xəbər verir ki, qurumun saytında və "The Daily Signal" qəzetində yerləşdirilən məqalədə 2022-ci ildə ABŞ və Azərbaycan arasında diplomatik münasibətlərin 30-cu ildönümünün qeyd olunduğu bildirilir.

Müəllif yazır ki, Vaşinqtonun xarici siyasət nöqteyi-nəzərindən Azərbaycanın ABŞ üçün strateji əhəmiyyəti danılmazdır. Bakı Xəzər dənizindəki ən böyük liman və Avropa ilə Mərkəzi Asiya arasında daşınan mallar üçün mühüm nəqliyyat qovşağıdır. Dünyada həm Rusiya, həm də İranla həmsərhəd olan yeganə ölkə olan Azərbaycan balanslaşdırılmış siyasət aparır və fəal şəkildə Qərblə münasibətlərini genişləndirməyə çalışır.

Məqalədə qeyd edilir ki, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra son otuz il ərzində ABŞ-Azərbaycan əlaqələri digər siyasət prioritetləri ilə yanaşı, Avropada enerji təhlükəsizliyinin inkişaf etdirilməsi, transmilli təhdidlərlə mübarizə, ikitərəfli ticarət və investisiyaların artırılması sahəsində hərtərəfli inkişaf edib.

Enerji təhlükəsizliyindən söz açan tədqiqatçı yazır ki, ölkə iqtisadiyyatının əsas hissəsini təşkil edən böyük karbohidrogen ehtiyatları və digər təbii ehtiyatları Azərbaycana alternativ neft və qaz təminatçısı rolunu oynamağa imkan verir. Bununla Azərbaycan Avropanın enerji təhlükəsizliyinə və əlavə olaraq ABŞ-ın təhlükəsizliyinə öz töhfəsini verir.

Müəllif yazır ki, Birləşmiş Ştatlar uzun müddət ərzində Azərbaycanın öz enerji resurslarını inkişaf etdirmək və Qərb bazarlarına ixrac etmək səylərini dəstəkləyib, ABŞ şirkətləri orada dənizdə neftin işlənməsi layihələrində iştirak ediblər. Son bir neçə ildə tamamlanan Azərbaycan "Cənub qaz dəhlizi" Xəzər regionundan olduqca əhəmiyyətli olan enerji resurslarını Avropa bazarına çıxarıb.

Entoni Kim Azərbaycanın alternativlərin enerji mənbəyi kimi genişləndirilməsi və təhlükəsizliyinin təmin edilməsi kontekstində Avropa və Birləşmiş Ştatlar üçün aktuallığı yüksək olan geosiyasi əhəmiyyətə malik ölkə olduğunu vurğulayır: "Azərbaycandan qlobal bazarlara çəkilən "Cənub qaz dəhlizi"nin daha çox istifadəsinin region üçün, eləcə də ABŞ üçün böyük faydası var". "Heritage" Fondunun qanunun aliliyi, fiskal sağlamlıq, tənzimləmə səmərəliliyi və bazar açıqlığının mühüm siyasət sahələrini əks etdirən illik "İqtisadi Azadlıq İndeksi"nin nəticələrinə görə, Azərbaycanda nəzərəçarpacaq dərəcədə yüksəliş tendensiyası müşahidə olunur.

Müəllif qeyd edir ki, Vaşinqton iki ölkə arasında qarşılıqlı maraq doğuran məsələlər üzrə səmimi, açıq və ikitərəfli dialoqu genişləndirmək və dərinləşdirməklə Xəzər dənizi regionunda Azərbaycan kimi mühüm və etibarlı tərəfdaşı dəstəkləyə bilər. Məqalənin sonunda ABŞ siyasətçilərinə müraciət edən Entoni Kim yazır ki, bu məqsədlərə nail olmaq üçün Vaşinqton Azərbaycana həmişəkindən daha çox strateji və praktiki diqqət yetirməlidir.

# Ceyhun Bayramov Rusiya XİN-in Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə nümayəndəsi ilə görüşüb



**İyulun 22-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Rusiya Federasiyasının Xarici İşlər Nazirliyinin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayevlə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə bölgədəki cari vəziyyət, o cümlədən Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesi çərçivəsində müxtəlif istiqamətlər üzrə atılan addımlar barədə fikir mübadiləsi aparılıb.

Tərəflər bölgədə sülh və təhlükəsizliyin təmin edilməsi üçün Azərbaycan, Ermənistan və Rusiya liderlərinin imzaladığı üçtərəfli bəyanatların müddəalarının tam icrasının vacibliyini vurğulayıblar. Normallaşma prosesinin irəli aparılması və konkret nəticələrin əldə olunması üçün bütün səylərin səfərbər edilməsinin əhəmiyyəti vurğulanıb.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər regional məsələlər müzakirə edilib.

# Birləşmiş Ərəb Əmirlikləri ilə iqtisadi tərəfdaşlığın inkişafı istiqamətləri müzakirə edilib



**İqtisadiyyat naziri Mikayıl Cabbarov Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Azərbaycandakı səfiri Məhəmməd Əl Bluşi ilə görüşüb.**

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, iqtisadiyyat naziri qarşılıqlı dostluq və hörmət prinsiplərinə əsaslanan Azərbaycan-BƏƏ əlaqələrinin yüksək səviyyədə olduğunu, iqtisadi sahədə uğurlu əməkdaşlığı vurğulayıb, ölkəmizdəki fəaliyyətində səfirə uğurlar arzulayıb. Diqqətə çatdırılıb ki, ticarət, qarşılıqlı investisiya qoyuluşu, KOB-ların dəstəklənməsi, logistika, turizm və sair sahələrdə əməkdaşlıq genişlənir. İqtisadi-ticarət tərəfdaşlığının inkişafında Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında iqtisadi, ticarət və texniki əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiya, Azərbaycanın BƏƏ-də ticarət nümayəndəliyi və Dubayda Azərbaycan Ticarət Evi kimi platformaların əhəmiyyətli rolu var.

İqtisadiyyat naziri işğaldan azad edilmiş ərazilərimizdə BƏƏ şirkətlərinin iştirakının təşviqi, "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları tətbiqi ilə həyata keçirilən layihələr, sənaye, rəqəmsallaşma, 4-cü Sənaye İnqilabı və digər istiqamətlər üzrə tərəfdaşlıq üçün geniş imkanlar olduğunu bildirib, bu baxımdan biznes dairələrinin fəal əməkdaşlığının əhəmiyyətini qeyd edib.

BƏƏ-nin Azərbaycandakı səfiri Məhəmməd Əl Bluşi ölkəsinin Azərbaycanla əlaqələrin inkişafına önəm verdiyini, Birləşmiş Ərəb Əmirlikləri şirkətlərinin azad edilmiş ərazilərimizdə həyata keçirilən layihələrdə iştiraka marağını vurğulayıb, əməkdaşlığın genişləndirilməsi üçün səy göstərəcəyini bildirib.

Görüşdə iki ölkə arasında iqtisadi-ticarət sahəsində tərəfdaşlığın inkişaf istiqamətləri müzakirə olunub.

# Şəhid ailələri və qazilərlə bağlı sosial dəstək tədbirləri daha da genişlənəcək



**Prezident İlham Əliyevin tapşırığına əsasən, Vətən müharibəsi şəhidlərinin ailələri, müharibə iştirakçıları ilə bağlı görülən sosial dəstək tədbirləri qarşıdakı dövrdə daha da genişlənəcək.**

Bu fikir Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində keçirilən kollegiya iclasında vurğulanıb. Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev qeyd olunan tədbirlər çərçivəsində artıq 100 mindən çox şəxsə 193 min xidmətin göstərildiyini deyib.

O, cari ilin altı ayının yekunlarına dair müşavirədə Prezident İlham Əliyev tərəfindən bu sahədə aparılan işlərə verilən yüksək qiymətə görə nazirliyin kollektivi adından dövlət başçısına minnətdarlığını ifadə edib. Bu yüksək etimadın nazirlik üçün həm də böyük məsuliyyət olduğunu vurğulayıb. Ölkə Prezidentinin uğurlu sosial islahatlar proqramının icrası, həssas qruplarla bağlı dəstək mexanizmlərinin gücləndirilməsi istiqamətində səylərin daim artırılacağını bildirib.

İclasda qeyd edilib ki, ötən il 3 il əvvələ nisbətən 5 dəfə çox olmaqla 3 min mənzil və fərdi ev şəhid ailələri və müharibə əlillərinə verilib. Bu il üçün onlara daha 1500 mənzil və fərdi evin verilməsi nəzərdə tutulub. Cari ilin birinci yarımilində artıq 600-ü təqdim olunub. 44 günlük Vətən müharibəsindən sonra 3600, ümumiyyətlə, ötən dövrdə 12500-dən çox mənzil və fərdi ev bu kateqoriyalardan olanlara verilib.

Yaxın iki ayda daha 500 mənzil və fərdi ev veriləcək. Ümumilikdə dövlət başçısının tapşırığına uyğun olaraq nazirlik növbədə olan bütün şəhid ailələri və müharibə əlillərini yaxın gələcəkdə mənzil və fərdi evlərlə təmin edəcək.

Bu ilin ilk yarımilində nazirliyin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondunun gəlirlərində ötən ilin müvafiq dövrünə nisbətən 7,3 faiz, o cümlədən sosial sığorta daxilolmalarında 21 faizədək, fondun xərclərində 5 faiz artım qeydə alınıb. DSMF-nin əhaliyə ödənişləri 4,2 faiz və ya 102 milyon manat çox olmaqla 2 milyard 507 milyon manat olub. Bu dövrdə pensiya ödənişlərinə ötən ilin müvafiq dövrünə nisbətən 4,5 faiz (104 milyon manat) çox olmaqla 2 milyard 443 milyon manat vəsait yönəldilib. Pensiyaların orta aylıq məbləği 11 faizədək artaraq 364, yaşa görə orta aylıq pensiya isə 10,2 faiz artaraq 395 manata çatıb.

Son 6 ayda Vətən müharibəsi veteranlarına Prezidentin aylıq təqaüdlərinin proaktiv qaydada təyinatı proqramı da uğurla icra edilərək ödənişləri tam həyata keçirilib. 40 min ailəni və ya 173 min nəfəri əhatə edən ünvanlı sosial yardımın bir ailəyə düşən orta aylıq məbləği də 35 faiz artaraq 347 manata çatıb.

Yanvar-iyun aylarında nazirliyin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən 16 min nəfər işlə təmin edilib, 5000-dən çox şəxs özünüməşğulluq proqramına, 1900-dək şəxs peşə hazırlığına, DOST İş Mərkəzi tərəfindən isə 4500-dək şəxs ödənişli ictimai işlərə cəlb edilib.

DOST mərkəzlərində son 6 ayda 313 minədək şəxsə xidmət göstərilib. Vətəndaşların bu xidmətlərdən məmnunluq səviyyəsi 98,7 faiz olub. Bu günlərdə isə DOST mərkəzlərində 1 milyonuncu vətəndaşa xidmət göstərilib. Bu il nazirlik işğaldan azad edilmiş bölgələrdə də DOST xidmətləri infrastrukturunun qurulması işlərinə start verib və Zəngilan rayonunun Ağalı kəndində ilk "Smart DOST" xidmət məntəqəsi istifadəyə verilib.

İclasda sosial sığorta və pensiya, sosial təminat, işsiz və işaxtaran vətəndaşların aktiv məşğulluq proqramlarına cəlb olunması, sosial xidmətlər, əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarəti, övladlığagötürmə və digər sahələrdə görülmüş işlər və qarşıda duran vəzifələr müzakirə edilib.

# Yollar şaxələnir, yollar qovuşur





**2004-cü ildən üzübəri Azərbaycanda regionların sosial-iqtisadi inkişafına yönəldilən dövlət proqramları çərçivəsində gerçəkləşdirilən layihələr yollarımızın şəbəkəsini genişləndirib. Bununla yanaşı, yolların keyfiyyəti də yüksəlib.**

Beləliklə, Azərbaycanın adı yol infrastrukturunun keyfiyyəti reytinqində də dünyanın qabaqcıl ölkələri sırasında çəkilir.

Bu ilin altı ayının yekunlarına həsr olunan müşavirədə Prezident İlham Əliyev infrastruktur layihələrinin yerinə yetirilməsi ilə bağlı demişdir: "Təbii ki, gələn ilin büdcəsində infrastruktur layihələrinin icrası nəzərdə tutulacaq və hesab edirəm ki, burada əsas məqsəd bu infrastruktur layihələrinin real iqtisadiyyatın artımına nə dərəcədə təsir etməsi məsələsidir. Çünki bütövlükdə son illər ərzində aparılmış işlərlə Azərbaycan infrastruktur layihələrinin icrası ilə bağlı əsas məqsədlərə çatmışdır. Biz bunu həm real həyatda görürük, həm də Davos Ümumdünya İqtisadi Forumunun hesabatlarında da görürük. "Dövlətimizin başçısı avtomobil yollarının çəkilişi sahəsində də böyük layihələrin icra edildiyini diqqətə çatdırmışdır.

İndi əsas diqqət işğaldan azad edilmiş ərazilərdə tikilən yollara yönəldilsə də, digər bölgələrdə də bu istiqamətdə genişmiqyaslı işlər həyata keçirilir. Prezident İlham Əliyev ölkənin regionlarına, o cümlədən Qarabağa və Şərqi Zəngəzura hər səfəri zamanı yol çəkilisi sahəsində aparılan işlərlə maraqlanır, yeni yolların təməlini qoyur, tikintisi sona çatanların isə açılışını edir. Elə ötən ay Göygöl, Kəlbəcər və Laçın rayonlarına səfərləri zamanı da belə oldu. Dövlət başçısı Göygöl rayonunda Toğanalı-Kəlbəcər avtomobil yolunun 13-cü kilometrliyində inşa edilən iki tunelin tikintisinə baş çəkdi. Bu layihənin 13,5-ci kilometrindən Murovdağ silsiləsi başlayır. Yüksəklik 1700 metrdən Murovdağ zirvəsində 3250 metrə qədər artır. Qeyd edək ki, Murovdağ tuneli dünyanın ən uzun avtomobil tunellərindən biri olacaq. Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolunun tikintisi layihəsi çərçivəsində bundan əlavə daha üç tunelin inşası nəzərdə tutulur.

Tikintisinin 2025-ci ilədək yekunlaşdırılması nəzərdə tutulan bu avtomobil yolu başlanğıcını Göygöl rayonunun Toğanalı kəndindən götürməklə Kəlbəcər rayonunun ərazisindən keçir. Buna görə də yol rayonun bir çox yaşayış məntəqələri ilə yanaşı, Kəlbəcər şəhərinə və məşhur İstisu ərazisinədək rahat gediş-gəlişi təmin edəcək.

Prezident sözügedən səfər zamanı Kəlbəcər-Laçın avtomobil yolunun tikintisi ilə bağlı görülən işlərlə də tanış olub.

Ölkəmizdə yollar qovuşaraq ayrı-ayrı bölgələri Qarabağla və Şərqi Zəngəzurla, eləcə də bütün regionların rayonlarını bir-birinə sıx bağlayacaq. Məsələn, bu ilin fevral ayında Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Ağcabədi rayonunda açılışında iştirak etdikləri yenidən qurulan Avşar-Salmanbəyli-Aşağı Avşar-Xocavənd avtomobil yolunu xatırladaq. Uzunluğu 41 kilometr olan Avşar-Salmanbəyli-Aşağı Avşar-Xocavənd marşrutu ilə yaşayış məntəqələrinə gedən bu yol başlanğıcını respublika əhəmiyyətli Mingəçevir-Stansiya Mingəçevir-Bəhrəmtəpə avtomobil magistralından götürür.

Bu il respublika əhəmiyyətli Ucar-Zərdab-Ağcabədi avtomobil yolunun yenidən qurulması işləri də sürətlə və keyfiyyətlə başa çatdırılıb. Ucar şəhərinin girişindən başlayan yol Ağcabədi şəhərinin cənubunda Mingəçevir-Bəhrəmtəpə avtomobil yoluna birləşir. Bu yol ölkənin regionları, o cümlədən Ucar, Zərdab, Ağcabədi rayonları arasında iqtisadi əlaqələrin inkişafı, nəqliyyat xərclərinin azaldılması baxımından mühüm əhəmiyyətə malikdir. Bununla yanaşı, ölkəmizin ərazisindən keçən nəqliyyat dəhlizlərini əlaqələndirərək tranzit xidmətlərinin səmərəliliyinin artırılmasında sanballı rol oynayacaq.

Yollar yeniləndikcə ölkədə iqtisadi həyat daha da canlanır, kənd təsərrüfatı, turizm və digər sahələrdə inkişaf sürətlənir. Yolların müasir səviyyədə inşası, eləcə də əhalinin rahatlığını təmin edən əsas sosial amildir. Paytaxtda və bölgələrdə yeni yolların tikintisi, Prezidentin verdiyi növbəti sərəncamlar və tapşırıqlar həmin istiqamətdə aparılan işlərin davamlı olduğunu bir daha təsdiqləyir. Bu sənədlərin birinə əsasən, Yevlax rayonunun Mingəçevir-Stansiya Mingəçevir-Bəhrəmtəpə (6 kilometr) - Tanrıqulular avtomobil yolunun tikintisi həyata keçiriləcək. Bunun üçün dövlət başçısı cari ilin may ayında Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 2,1 milyon manat vəsaitin ayrılması barədə sərəncam verib.

Prezidentin iyun ayında imzaladığı digər sərəncamla Saatlı rayonunda dörd min nəfər əhalinin yaşadığı iki yaşayış məntəqəsini birləşdirən Məmmədabad-Genişkənd avtomobil yolunun tikintisinə də vəsaitin (bir milyon manat) ayrılması tapşırılıb. Keçən ay verilən başqa bir sərəncamla Neftçala rayonunun Neftçala-Xol Qaraqaşlı-Şorsulu (7 kilometr) - Həsənabad-Neftçala və Bankə-Beştalı avtomobil yolları yenidən qurulacaq. Bu yol dörd yaşayış məntəqəsini birləşdirəcək. Son bir ay ərzində verilən sərəncamlarla Ağstafa rayonunun Ağstafa-Poylu-Gürcüstanla dövlət sərhədi (11 kilometr) - Qıraq Kəsəmən avtomobil yolunun tikintisi də həyata keçiriləcək. Qəbələ rayonunun Ağdaş-Zarağan (40 kilometr) - Böyük Pirəli-Kiçik Pirəli-Xırxatala-Cığatelli-Həmzəli avtomobil yolunun tikintisinin başa çatdırılması üçün əlavə vəsait ayrılacaq.

Bir sözlə, vətəndaşların rahat gediş-gəlişinin, yük və sərnişin daşınmasının keyfiyyətinin təmin olunması ilə yanaşı, kənd təsərrüfatı, turizm və iqtisadiyyatın digər sahələrinin birbaşa inkişafına yönəldilən yol infrastrukturu layihələrinin icrası davam etdirilir. Layihələr yerli, respublika və beynəlxalq əhəmiyyətlidir.

Respublika əhəmiyyətli Hacı Zeynalabdin Tağıyev-Sumqayıt avtomobil yolunun 4 zolağa genişləndirilməsi bu layihələr sırasında özünə yer alır. Genişləndirilən hissəsinin uzunluğu 13,7 kilometr təşkil edir.

Şamaxı şəhərində də yol infrastrukturunun müasir səviyyəyə çatdırılması, vətəndaşların rahat gediş-gəlişinin təmin olunması istiqamətində genişmiqyaslı təmir-tikinti işləri aparılır. Bu il şəhərdə uzunluğu 13 kilometr olan 18 küçənin təmiri işlərinə başlanıb. Təmir işlərinin aparıldığı sahə 73 min 587 kvadratmetrdir. Qeyd edək ki, keçən il Şamaxı şəhərinin ərazisində ümumi uzunluğu 27 kilometr olan 44 prospekt və küçədə təmir-tikinti işləri həyata keçirilib.

Eləcə də paytaxtın küçə və prospektlərində cari ilin "İnvestisiya Proqramı"na əsasən, genişmiqyaslı iş gedir. Belə ki, Bakının Pirallahı rayonunda ümumi uzunluğu 4,6 kilometr təşkil edən üç küçə təmir olunub. Təmir işlərinin aparıldığı ərazinin sahəsi 27 min 600 kvadratmetrdir. Rayon üzrə təmirə ehtiyacı olan digər küçə və yolların da qaydaya salınması nəzərdə tutulur.

Paytaxtın Xəzər rayonunun Zirə qəsəbəsində isə ümumi uzunluğu 1150 metr təşkil edən Yeni sahə, Dəmiryol küçəsi, həmçinin Seyid Əzim Şirvani və Həsrət Ağamalıoğlu küçələrində təmir işləri görülür. Cari ilin "İnvestisiya Proqramı"na uyğun olaraq, rayonun Mərdəkan, Binə, Buzovna, Qala və Zirə qəsəbələri ərazisində ümumi uzunluğu 26,5 kilometr küçə və yolun təmiri aparılır. Keçən il rayonun Binə, Buzovna və Qala qəsəbələrində ümumi uzunluğu 16,3 kilometr olan küçə və yolların təmiri icra olunub.

Qaradağ rayonunun Qobustan qəsəbəsi üzrə təmiri nəzərdə tutulmuş küçə və yollarda işlər tamamlanır. Qəsəbədə ümumi uzunluğu 2,9 kilometr olan 4 küçədə təmir işləri həyata keçirilib. Bu istiqamətdə işlər paytaxtın bütün rayonlarında genişlənməkdədir.

Beləliklə, müasir yol infrastrukturunun yaradılması yenə də həyata keçirilən sosial-iqtisadi islahatların tərkib hissəsini təşkil edir. Rahat və abad yol isə dayanıqlı iqtisadi inkişafı təmin edən əsas amillərdəndir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***



# TURİZM



## Turizm marşrutları paytaxtdan Abşeronun kənd və qəsəbələrinə səmtlənir

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra yeniliklərin və quruculuq işlərinin geniş tətbiq edildiyi sahələrdən biri də Abşeron yarımadasında yerləşən kəndlərin və qəsəbələrin inkişafı ilə bağlıdır. Əvvəlcə onu qeyd edək ki, bu məsələ səxsən dövlət başçısının nəzarətindədir. Məhz onun diqqəti və xüsusi qayğıkeşliyi sayəsində Bakı və ətraf yaşayış məntəqələrində tikinti-quruculuq işləri səngimir.

Bu istiqamətdə indiyəcən Bakı şəhərinin və qəsəbələrinin sosial-iqtisadi inkişafına dair vacib sənədlər icra edilmişdir. Xüsusən Bakıətrafı kənd və qəsəbələr bu hesaba büsbütün dəyişmiş, qədim abidələrin qorunması və bərpası, yeni iş yerlərinin yaradılması istiqamətində konkret addımlar atılmışdır. Çoxsaylı proqramların, maraqlı layihələrin icrası nəticəsində Bakı şəhəri, onun qəsəbə və kəndləri yeni inkişaf mərhələsinə qədəm qoymuş, yaşamaq və işləmək üçün daha rahat, daha əlverişli olmuşdur.

Bu yerdə Bakı kəndləri haqqında qısa da olsa məlumat vermək yerinə düşərdi. Əvvəlcə onu qeyd edək ki, "Bakı kəndləri" Abşeron yarımadasında qədimdən işlədilən məşhur ifadədir. Əsrlərdir ki, Abşerondakı kəndlərin ümumi adı belədir. Bu, hamıya bəllidir. Lakin bəzilərinə elə gələ bilər ki, Bakıda olduğu kimi, onun ətrafındakı kəndlərin də inkişafı neftin tarixi ilə bağlıdır. Lakin belə deyil, əksinə, Abşeron yarımadasındakı kəndlərin "bioqrafiya"sı neftin tarixindən daha qədimdir.

Bakı kəndləri ifadəsi artıq XIX əsrin əvvəllərində, neft fəvvarə vurmamışdan təxminən 50 il qabaq işlədilirdi. Yəni Abşeron yarımadasında sənayeləşmə getməmişdən əvvəl bu ərazidə kəndlərin sayı kifayət qədər çox idi. Yeri gəlmişkən, qeyd edək ki, Bakının ənənəvi kəndlərinin sayı həmişə çox olub. Hələ 1813-cü ildə Bakıətrafı kəndlərin sayı 37 idi. Tarixi mənbələrdə Bakı ətrafında və Abşeronda kəndlərin sayının hətta XVII əsrdə 32 olduğu göstərilir. Ona görə də tarixçilər əminliklə qeyd edirlər ki, məşhur "Bakı kəndləri ifadəsi" ən geci XVII əsrdə yaranmışdır.

Qayıdaq bu günümüzə. Onun şahidiyik ki, Prezident İlham Əliyev Bakı kənd və qəsəbələrini mütəmadi gəzir, əhalinin qayğıları ilə maraqlanır, yaşayış məntəqələrinin inkişafı üçün vacib qərarlar verir. Dövlət başçısının mövqeyi belədir: ölkədə gedən inkişaf hər bölgəni, şəhəri, qəsəbəni və kəndi əhatə etməlidir. Biz Prezidentin bu mövqeni bir neçə gün əvvəl Bakının Ramana qəsəbəsində görülən abadlıq işləri ilə tanış olarkən növbəti dəfə sərgilədiyni gördük. Prezidentə məlumat verildi ki, təkcə Ramanada 300 iş yeri açılıb, ilin sonunadək isə 450-yə qədər əlavə iş yeri yaradılacaq. Bundan əlavə, Ramanada yenidənqurma işləri yekunlaşıb, qəsəbədaxili yollar asfaltlanıb, divar və dam örtükləri yenilənib, küçələr işıqlandırılıb, ərazilər tullantılardan təmizlənib.







Ramana qəsəbəsi Abşeron ərazisində turizm marşrutlarına daxil edilə biləcək abidələrlə zəngindir. Onlardan biri qəsəbənin girişində əzəməti ilə diqqəti cəlb edən, XII-XIV əsrlərə aid Ramana qalasıdır. Söz düşmüşkən, xatırladaq ki, məşhur "Koroğlu", "Nəsimi" və "Babək" filmlərinin müəyyən səhnələri Ramana qalasında çəkilib.

Onu da xatırlatmaq yerinə düşər ki, Prezident İlham Əliyev 2020-ci ilin avqustunda Balaxanı qəsəbəsində aparılan abadlıq işləri ilə tanış olarkən sakinlərə demişdi ki, kəndin yeni dövrü başlayır. Bu gün qəsəbə, həqiqətən, tanınmaz dərəcədə dəyişmişdir. Balaxanı Sənaye Parkı yaradılmış, Böyükşor gölünün böyük hissəsi təmizlənmiş, gölün üzərindən yol salınmışdır: "Bütün işlər böyük məhəbbətlə, zövqlə görülübdür. Həm infrastruktur layihələri, kanalizasiya, insanların rahatlığı üçün yaradılmış şərait, elektrik xətləri, binaların təmiri, dam örtükləri, yollar, küçələr, estetik görünüş - bütün bunlar bir məqsədlə edilir ki, burada yaşayan insanlar özlərini rahat hiss etsinlər, onlar üçün yaxşı şərait yaradılsın. Eyni zamanda iş yerləri yaradılıbdır". Bu sözləri deyən dövlət başçısının mövqeyi belədir ki, bütün işlər mərhələlərlə davam edəcək və əsas məqsəd həm də Bakı kəndlərində qədim abidələri aşkarlamaq və bərpa etmək, onların ilkin görkəmlərini qaytarmaqdır. Məhz görülən bu işlərin sayəsində qonaqların və şəhər sakinlərinin Bakıətrafı yaşayış məntəqələrinə marağı ilbəil artır.

Xarici mətbuatda da Bakı kəndləri ilə bağlı tez-tez materiallar dərc edilir, bloqçular Abşeron kəndlərini, palçıq vulkanlarını xüsusi məhəbbətlə təqdim edirlər. Ümumiyyətlə, turizm Abşeronun qədim yaşayış məntəqələri üçün gəlirli sahəyə çevrilir. Prezident İlham Əliyev bu barədə demişdir: "İndi inkişaf etmiş bir çox ölkələrin şəhərlərinin kiçik qəsəbələrində belə turizm, tarixi yerlərdə yerli sakinlər bütün ümumi işlərə qoşulurlar, həm pul qazanırlar, həm öz tarixi, mədəniyyəti haqqında məlumat verirlər, eyni zamanda turistlər üçün də gözəl şərait yaradırlar. Ona görə bu, insanların artıq özlərindən asılı olacaq. Təbii ki, dövlət də lazımi kömək göstərəcək".

*Bahadur İMANQULİYEV,*
*"Azərbaycan"*

## "İstisu" kurortlar qrupunun işğaldan sonrakı bərpa perspektivləri






İnsanların məişətində yeraltı suların mühüm rolu vardır. Yeraltı suların növləri içərisində mineral sular xüsusi əhəmiyyətə malikdir. Bu suların vasitəsilə müxtəlif xəstəliklər müalicə olunur.

Ona görə də mühüm mineral su yataqları olan yerlərdə kurortlar və müalicəxanalar yaradılır. Hazırda isti sulardan müalicə məqsədilə yanaşı, digər sahələrdə də geniş istifadə olunur.

"İstisu" kurortlar qrupu Kəlbəcər şəhərinin yaxınlığında yerləşir. Kəlbəcərin suyu əsasən duzlu-qlauber-qələvili tipə aiddir. "İstisu" kurort rayonu isə fiziki-coğrafi şəraitinə görə xeyli mürəkkəbdir. Ərazi hər tərəfdən Kiçik Qafqazın çox parçalanmış dağ sistemi ilə əhatə olunmuşdur.

Bulaqları çox olan ərazi Tərtər çayının yuxarı axınlarında - cənub-şərqdən Mıxtökən, qərbdən Göycə, şimaldan isə Murov dağları əhatəsində yerləşir. Kurort rayonunu əhatə edən dağ silsilələrinin ayrı-ayrı zirvələrinin yüksəklikləri (Dəlidağ, Gəlinqaya, Sarımsaqlı, Keti və s.) 3000 metrdən çoxdur. Bu səbəbdən rayon təmiz dağ havası ilə fərqlənir.

"İstisu" kurortunun bulaqları meşəsiz yüksək dağlıq ərazilərdə subalp və alp çəmənliklərinin əhatəsindədir. Ərazilər təbii yem bitkiləri və otlaqları ilə fərqlənir ki, bu da heyvandarlığın inkişafına şərait yaratmaqla kurortların ət və süd məhsulları ilə təminatı deməkdir.

"İstisu" kurortu İsveçrənin dağ-iqlim stansiyaları Davos və Sen-Qotardla müqayisədə daha yüksəklikdə yerləşir. Burada yay Davos və Sen-Qotara nisbətən daha isti olur. Maksimal və minimal temperatur cəhətcə də İstisu daha əlverişlidir. İsveçrənin kurortlarında şaxtalı havanın temperaturu 28-30$^0$C soyuq olduğu halda, İstisuda belə şaxtaya rast gəlinmir. Bunlar göstərilən kurortlara nisbətən İstisuyun daha əlverişli olduğunun göstəricisidir. Təəssüf ki, erməni vandallarının törətdikləri vəhşiliklər "İstisu" sanatoriyasından da yan keçməmişdir. Bütün binalar uçulub dağıdılmış, xarabazarlığa çevrilmişdir. Bir zamanlar dünyanın hər yerindən gələn qonaqlara evsahibliyi etmiş müalicə ocağının indi xarabalıqlar içərisində yalnız qalıqları qalıb.

Tərtər çayının yuxarı axınlarında belə gözəl bulaqların olması çayın hövzəsinin mürəkkəb geoloji quruluşa malik olması və geoloji inkişafın tarixi ilə əlaqədardır. Qədim geoloji dövrlərdə - yüz milyon illər əvvəl bu ərazilər, o cümlədən indiki Kiçik Qafqaz ərazisi su altında olmuşdur. Burada Yer kürəsinin geniş ərazilərini əhatə edən, nəhəng Tetis okeanı yerləşmişdir. Okeanın əraziləri Qafqaz dağlarından qərbə doğru Alp, Karpat, Appenin və Piriney yarımadası boyu uzanaraq qərbdə Amerikanın mərkəzi hissəsinə, şərqdə isə Orta Asiyadan keçərək Çin və Yaponiyaya qədər uzanmışdır. Hazırda nəinki düzənliklərdə və dağətəklərində, həm də 3000-4000 metr və daha yüksəkliklərdə dəniz canlılarının qalıqlarına rast gəlinir. Kəlbəcər rayonunda da Dəlidağın zirvəsində fauna tapılmışdır.

Geoloji eralar keçdikcə sahillərin və okeanın dibinin cizgiləri dəyişmiş, okeanın dibində müxtəlif çöküntülər yaranmış, sualtı vulkan püskürmələri nəticəsində Yer qabığı müxtəlif istiqamətlərdə təzyiqə məruz qalmışdır ki, bu da vaxtaşırı pozulmaların (qırılmalar, tökülmələr, yerdəyişmələr) bu və ya digər sahələrdə əmələ gəlməsinə şərait yaratmışdır. Bütün bu geoloji proseslər indiki Kəlbəcər rayonunun ərazisini də əhatə etmişdir.

Tərtər çayının ayrı-ayrı hissələrinin torpaq örtüyü relyefdən asılıdır. Alçaq yamaclarda onların qalınlığı 5-10 metr və daha hündürdür. Məsələn, "İstisu" kurortunun yaxınlığında dərənin sağ yamacında və çayın terraslarında dördüncü dövr yaylasında torpaqlar çox məhsuldardır. Qısa desək, səthdən çatlar vasitəsilə süzülən atmosfer suları dərinliklərə hərəkət edir, aşağıdan isə karbon qazı qalxır və onlar müəyyən dərinlikdə rastlaşırlar. Qazla su qarışaraq yüksək həlletmə qabiliyyətinə malik olur. Bu proses böyük ərazilərdə getdiyi üçün bütün Kəlbəcər rayonu və onu əhatə edən ərazilərdə uzun illər ərzində mineral sulardan ibarət hövzə əmələ gəlir.

Bizim misalımızda bu hövzə Tərtər çayının başlanğıcından təqribən Çaykənd kəndinə qədər və bir az da aşağıya doğru uzanır. Təbii ki, belə hövzədə mineral sular yüksək təzyiq altında olur və buna görə də yerin səthinə çıxır. Yerin səthinə çıxdıqda isə yüksək temperaturu saxlayır. Lakin səthə yaxınlaşdıqca travertilərdən və ya son dövr allüvial və deluvial çöküntülərdən keçərək soyuyur. Ona görə də hətta bir-birindən çox da uzaq olmayan sular temperaturca bir-birindən fərqlənir. Əsas suayıran kanaldan olan məsafəsindən asılı olaraq onlar isti, ılıq və soyuq ola bilirlər.

Yuxarı İstisuda düz xətt üzrə yayılan bulaqlar mövcuddur ki, bu da çatlarla əlaqədardır. Mineral sular ayrılan çoxlu karbon qazı ilə müşayiət olunur. Onların miqdarı 1,5 qram/litrə çatır. İstisu sularının ümumi minerallığı (yəni suda həll edilmiş duzlar) 6-7 qram/litrə yaxın olur.

Aşağı İstisu mineral suları, "İstisu" kurort mərkəzindən 12 km cənubda yerləşir. Bu ərazi Tərtər çayının sağ və sol sahillərində, dərin dərənin dibindədir. Aşağı İstisu mineral bulaqları əsasən çayın sol sahillərində çox qalın travertin olan yerdə yayılmışlar. Mineral bulaqların çıxışı tektonik çatlarla əlaqədardır. Əsas olan 21 saylı bulaq Tərtər çayının sol sahilində çayın özündən 4 metr yüksəkdə yerləşir. İşğaldan əvvəl bu hovuzda yay aylarında Azərbaycanın müxtəlif rayonlarından gələn adamlar vannalar qəbul edirdilər.

22 saylı bulaq əvvəlkindən bir az yuxarıda yerləşir. O, əvvəlki bulağa oxşardır. Onun temperaturu əvvəlkindən 2$^0$C aşağı olub 39$^0$C-dir. 1952-ci ilin qışında 4 saylı quyu 3 metr yüksəkliyə fontan vurub. Onun temperaturu 55$^0$C olub. Bununla da Aşağı İstisuyun istifadəsi çox perspektivlidir. Kəlbəcər yaylası, buradakı dağ iqlimi istirahət və müalicə üçün əlverişlidir.

Ümummilli Lider Heydər Əliyev keçmiş SSRİ vaxtı Azərbaycanın rəhbəri olduğu illərdə Kəlbəcərin coğrafi əhəmiyyətini yaxşı bilirdi. Ermənistan tərəfindən Kəlbəcərə göz dikildiyindən və rayonu Ermənistana birləşdirmək istəmələrindən də xəbəri var idi. Ona görə də Ulu Öndər ötən əsrin 70-80-ci illərində Kəlbəcərdə bir sıra sosial-iqtisadi layihələr gerçəkləşdirərək bu bədnam planın qarşısını aldı.

Lakin düşmən öz məkrli planını 1993-cü ilin aprelin 2-3-də həyata keçirməyə müvəffəq oldu və Kəlbəcər rayonunu işğal etdi. 1997-ci ildən etibarən ermənilər xarici investorların maliyyə yardımı ilə Kəlbəcərin termal sularını "Cermuk" suyu adı ilə xarici ölkələrə yüksək qiymətə satıb milyonlarla valyuta qazandılar. Bu yerdə xatırladaq ki, çox böyük potensiala malik İstisu mineral bulaqlarından hər il 3 milyard 963 min litr su çıxır. Vaxtilə sudoldurma məntəqələrində ildə bunun cəmi 22 min litrindən istifadə edilirdi. Yerdə qalan 3 milyard 941 milyon litrdən artıq su isə çaylara axıb gedirdi. Yeri gəlmişkən, İstisuyun Tərtər çayı ilə axan hissəsi çayboyu rayonların əkin sahələrini şorlaşdırır və gələcəkdə bunun qarşısını almaq üçün tədbirlər görülməlidir. Məsələn, axıdılan istisudan ayrılan duzlardan xammal mənbəyi kimi xalq təsərrüfatının müxtəlif sahələrində istifadə etmək olar.

*Telman XƏLİLOV,*
*Bakı Dövlət Universitetinin professoru*



## Kiş çayı və ətraf ərazilərdə ekoloji monitorinq aparılıb

**AMEA-nın Şəki Regional Elmi Mərkəzinin Ekoloji coğrafiya şöbəsinin əməkdaşları tərəfindən Kiş çayının Qaynar qolu və onun ətraf ərazilərində ekoloji monitorinq aparılıb.**

Bu barədə AZƏRTAC-a Şəki Regional Elmi Mərkəzinin Ekoloji coğrafiya şöbəsinin rəhbəri Yusif Rəhimov məlumat verib.

Bildirilib ki, monitorinq zamanı çayın gətirmə konusunda may ayı ərzində müşahidə edilən intensiv yağışların törətdiyi fəsadların öyrənilməsi üçün ölçü işləri yerinə yetirilib, torpaq və bitki örtüyü müayinə olunub. Eyni zamanda regionun təbiət abidələrindən biri olan Qaynar şəlaləsinin turizm potensialının dəyərləndirilməsi istiqamətində tədqiqat işləri aparılıb.





## «AZƏRBAYCAN» qəzetinin 1918-ci il 22 oktyabr (çərşənbə axşamı günü) tarixli XIX nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Səşənbə, 15 məhərrəmülhəram sənə 1337. 22 təşrini-əvvəl sənə 1918.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Kolyubakinskaya küçədə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 6-91.

Tək nüsxəsi 50 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Yanvarın birinədək Bakı üçün 35, başqa şəhərlərə 42 rublədir.
Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir.

Elan fiatı: sətri 2 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

## ORDU QƏRARGAHINDAN TƏBLİĞİ-RƏSMİ

1. Dərbənd cəbhəsində: 19.10.34-də piyada və süvari kəşf [kəşfiyyat] qolları fəaliyyəti oldu. Düşmən topçuları sipərlərimizə təsirsiz bir qaç mərmi atdı.

2. Qarabağda: Şuşa məntəqəsindəki köylərdən müxtəlifülcins bir çox əslihə [silah] və bir makinalı tüfəng [pulemyot] toplanmışdır.

3. Orduyi-mənatiqi-sairəmizdə [sair məntəqələrdəki ordularımızda] sükunət vardır.

## TELEQRAF XƏBƏRLƏRİ

Təşrini-əvvəlin [oktyabrın] 15-də Berlindən rəsmi surətdə xəbər verilir ki, Bəhri-mühitdə [okeanda] bizim sualtı qayıqlarımız 41 min ton həcmində bir neçə düşmən ticarət gəmilərini qərq etmişlərdir. O cümlədən bir neçə zirehli və mühimmati-hərb [sursat] ilə yüklü gəmilər qərq edilmişdir.

## E. TSUQMAYER İLƏ MÜSAHİBƏ

Almaniya Məlumat İdarəsi naziri professor Tsuqmayer, Tiflis qəzetələri müxbirləri ilə müsahibə əsnasında sülh məsələsi haqqında böylə məlumat vermişdir:

Təcili mütarikə [atəşkəs] təklifinin Amerika tərəfindən rədd olunmasına baxmayaraq, sülh müzakiratı [müzakirələri] Vilson tərəfindən təklif edilən əsaslar üzərində aparılır. Vilsonun 14 maddəlik proqramı mövcibincə [proqramına uyğun olaraq], işğal edilmiş yerlərin təxliyyəsi tələb edilir. Təxliyyə məsələsi Almaniya tərəfindən məqbul görülür; fəqət düşmənlərin məzkur [adı çəkilən] yerlərdən istifadə etməmələri şərt qonulmalıdır.

Amerikalıların təminatı, bitərəf xətt təşkili və firənglər tərəfindən işğal edilmiş Elzas-Loren [Elzas-Lotaringiya] hissəsinin təxliyəsindən ibarət olmalıdır.

Bolqariyanın şimali hissəsi almanlar əlindədir. Sofiyaya İtalya-firəng [fransız] - İngiltərə əsakiri [əsgərləri] daxil olmuşdur. Rum [yunan] [və] serblər isə Bolqariya paytaxtına girməmişlər. Türkiyə ilə əlaqə dəniz, Filibe [Plovdiv] - Tırnovo dəmiryolu vasitəsi ilə saxlanılmışdır.

Cəmahiri-müttəhidə [Amerika Birləşmiş Ştatları], Yaponyaya bir nota təqdimiylə, Sibiryada başladığı hərəkati-hərbiyyənin [hərbi hərəkatın] dayandırılmasını tələb etmişdir. Ehtimal ki, Yaponiya bu tələbi rədd edəcəkdir. Bundan dolayı da iki hökumətin arasında ixtilaf baş qalxızacağı mühəqqəqdir [qətidir].

Rusiya işləri, xüsusi beynəlmiləl konqres müzakiratında həll ediləcəkdir. Rusiya Etilaf Hökumətləri ilə hali-hərbdə olduğundan naşi [müharibə şəraitində olduğundan], sülh nümayəndələrinin Sülh Konfransına buraxılması işbu hökumətlər tərəfindən qəbul edilməyəcəkdir. Şayiata [şayiələrə] görə, Rusiya Hökuməti Brest Müahidə-naməsini [müqaviləsini] pozmuşdur. Bu həqiqət olarsa, Şura Hökuməti başqa hökumətlərdən ayrı qaldığından dolayı, fənalığa uğrayacaqdır. Bu şayiatın doğruluğuna hələlik bir dəlilimiz yoxdur.

## TÜRKİYƏDƏ

**İstanbulda yeni bəhriyyə [dənizçilik] məktəbi**

İşbu yaxın vaxtlarda İstanbulda təntənəli surətdə yeni bəhriyyə [dənizçilik] məktəbi açılmışdır. Məktəb Heybəli adasında vaqe rum deyri məktəbi [yunan kilsə məktəbi] mülkündə yerləşdirilmişdir. Rəsmi-güşadda [açılış mərasimində] Bəhriyyə [Hərbi Donanma] naziri və məktəb müəllimləri isbati-vücud [iştirak] edirmişlər.

Bu məktəbdə ikmali-təhsil edənlər (məzunlar) bəhriyyə aliləri ali bargahlara qəbul olunacaqlar. Burada təhsil dörd sənədir.

Yeni daxil olmuş mütəəllimin [tələbələr] sırasında Şahzadə Seyfəddin əfəndinin məxdumları [oğlu] da vardır.

**Türkiyədə alman ticarət odaları [palataları]**

"Q. D." Breslaudan istixbar edir [xəbər verir]:

Türkiyədə iki Alman Ticarət Odası [Palatası] açılacaqdır. Bunların biri İstanbulda bulunaraq, Almaniya ilə Avropayi-türki [Türk Avropası] arasındakı münasibati-ticariyyə və iqtisadiyyə [ticari və iqtisadi münasibətlər] ilə iştiğal edəcəkdir [məşğul olacaqdır]. Digəri digər bir şəhəri mərkəz ittixaz [qəbul] edərək Qafqaziya və İran ilə olan ticarəti təşviq eyləyəcəkdir. Eyni zamanda Sofiya və Bükreşdə [Buxarestdə] alman ticarət odaları təsis ediləcəkdir.

## ZƏRBEYİ-İNQİLAB [İNQİLAB ZƏRBƏSİ]

**1**

Dəryayi-nisyana [unudulma dəryasına] qarışmış olan ulu babalarımızın, əmvaci-xüruşani-həvadis [hadisələrin coşğun dalğaları] içində yuvarlanaraq bizə yetişən, məhsuli-təcrübə pək çox hikmətamiz neçə-neçə sözləri vardır ki, hər biri bir düsturi-həyat olmağa səza [yaraşan] və şayandır [layiqdir]. Şu əmvaci-cahan [cahan dalğaları] içində yuvarlanaraq ənsali-hazirəyə [bugünkü nəsillərə] yetişən hikmətnümun [hikmətli] sözlərdən biri də budur: "Min nəsihətdən bir müsibət daha xeyirlidir." Filhəqiqə [doğrudan da], şu kiçik cümlədə böyük bir hikməti-ictimaiyyə və fəlsəfeyi-həyatiyyə [həyat fəlsəfəsi] mündəmicdir [cəm olmuşdur]...

Ta əzəldən bəri bəşəriyyəti-naməs-udun sərgüzəşti-xuninini [xoşbəxtlik tapmayan bəşəriyyətin qanlı sərgüzəştlərini] guşi-ibrətü intibahımıza [ibrət və oyanış qulağımıza] tərənnüm edən tarixlər pək açıq bir surətdə göstərirlər ki, ağuşi-qəflətdə [qəflət qucağında] uyuyan millətləri ayıldan amil, nafiz [nüfuzlu] nəsihətlərdən ziyadə müsibətlər, məhrumiyyətlər və fəlakətlər olmuşdur. Bu naqabili-inkar bir həqiqəti-tarixiyyədir [inkar edilməsi mümkün olmayan bir tarixi həqiqətdir]. Bir həqiqəti-tarixiyyə ki, günəş qədər parlaq... Bu xüsusda sizə pək avampəsəndanə [avamyana, avamların da anlayacağı] bir misal söyləyəcəyəm:

Yanmaqda bulunan bir çırağa əlini uzadan və onun şöləsiylə oynamaq istəyən bir çocuğa dəfələrlə deyirsən ki: "Övladım, öylə yapma, şu şölə, şayani-baziçə [oyun oynamağa uyğun] bir şey deyil! Əlini yaxar, yandırar." Çocuq şu sözlərdən bir şey idrak edə bilmədiyi üçün yenə də hərəkəti-kudəkanəsində [uşaqcasına hərəkətində] davam edər. Ən nəhayət, o mini-mini əli çırağifü-ruzanın [yanan çırağın] şüşəsinə təmas edər, çocuğun əli yanar. Atəşin xasiyyəti-möhriqəsinə [yandırma qabiliyyətinə] vaqif olan və acısını dadan çocuq, bir daha çırağa yaxlaşmaz, əlini uzatmaz.

İştə, pədəranə nəsihətləri [ata nəsihətlərini] dinləməyən çocuq, müsibəti-atəşin [yandırıcı bir müsibət] ilə bidar olar [oyanar], uslanar [ağıllanar]. İdrak və şüurdan məhrum bulunan ətfalmisal [uşaq kimi] millətlər də bol-bol nəsayehlə [nəsihətlərlə] deyil, müsibətlər, məhrumiyyətlər və fəlakətlərlə ayılmışlardır. Binaileyh [ona görə], əqvam və miləli [qövmləri və millətləri] şəhrahi-intibaha [intibah yoluna] sövq edən əvamilin [amillərin] ən müəssiri [təsirlisi], ən kəskini məsaib [müsibətlər] olmuşdur.

İştə, Qafqaziyanın, bu feyizli və bərəkətli yurdumuzun, sineyi-harü nəvazişkarında [isti və nəvazişli qoynunda] bəslənən, pərvərişyabi-həyat olan [yetişən] biz türklər də, hükəma, şüəra və üdəbamızın [mütəfəkkirlərimizin, şairlərimizin və ədiblərimizin] qələmi-nəsayih-pərvəranələrindən [nəsihətlər verən qələmlərindən] tərəşşöh edən [damcı-damcı süzülən] kövsəri-hikmətü irfana [hikmət və irfan kövsərinə] həvəs və təmayül göstərəmmədik, ancaq ki, onların pədəranə öyüdlərini dinləmək qabiliyyətindən məhrum olduğumuzu göstərdik. O rəhbərani-irfanın [irfan yolunu göstərənlərin] füsunkar, səhhar [sehirli] və müsəxxər [ələ alan, ələ keçirən] qələmlərindən süzülən rəşəhati-"Həyat"ü "Füyuzat"ı ["Həyat" və "Füyuzat" damcılarını] əfkarımıza nuş etdirmək [içirmək] istedadından bütün-bütünə məhrum olduğumuzu isbat etdik. Hikmətli qələmlərdən uçan o parlaq nəğmələr, pək sönük olan əfkar və idrakımıza intibahbəxşi-"İrşad" olmadı, olammadı ["İrşad" intibahını bəxş etmədi, edə bilmədi]. Şu ülvi nəğmələr, şu ilahi təranələr, şu mələkuti [mələklər aləminə məxsus, ilahi] səslərlə xabi-nuşini-qəflətdən [qəflətin şirin yuxusundan] ayılmayanlar, barı əlli bir aydan bəri davam edən beynəlmiləl müharibədən və onun təbii nəticələri bulunan inqilab zərbələri, ixtilal atəşləri ilə gözlərini açsınlar. Gözlərini açsınlar da, şu yaşadıqları torpağa, bilxassə [xüsusilə], yaşadıqları müddətcə beşikləri, öldükləri zaman da məzarları olacaq bu fəyyaz [bərəkətli], məhsuldar Qafqaziyanı, bu rəngin və zəngin olan əraziyi-zisərvəti [sərvətli ərazini] düşməndən xilas edərək, mədəniyyət və ümranına [abadlığına] çalışsınlar. Bilməyənlər varsa bilsinlər, öyrənsinlər ki, Qafqaziya pək çox sərvətdar [sərvətlərə malik] bir vətəni-müqəddəsdir. Fəqət, heyhat ki, kiseyi-idrakımız boş, əfkarımız yoxsuldur. Pək çox sərvəti-təbiiyyə [təbii sərvət] və məadini-bakirəyə [bakir mədənlərə] malik olan Qafqaziyadan bəhəqqin [layiqincə] istifadə edə bilmək üçün kiseyi-idrakımızı mərifət sərvəti ilə, fənn [elm] sərmayəsi ilə doldurmalıyız.

Nəsihət kövsərləri bizi ayıltmadıysa da, barı içində qovrulduğumuz müsibət atəşləri, inqilab zərbələri bizi bidar və hüşyar etsin [oyatsın və ağıllandırsın]...

*Əbdülsəlimzadə*
*Məhəmməd Hadi*

## TƏHLÜKƏ QARŞISINDA

*Qarabağın son günləri*

(keçən nömrələrdən mabəd)

Şəhəri yalnız davaya hazırlamaq və eyni zamanda davanın önünü alaraq, camaatı salamat saxlamağın nə qədər mühim bir məsələ olduğunu düşünənlər bilirlər ki, bu xüsusda nə qədər zəhmətlər çəkilmişdir. Böylə işlər isə şübhəsiz ki, cəmiyyətlər tərəfindən görülür. Bundan dolayıdır ki, bu uğurda çalışan cəmiyyətlərdən bəhs etməyi vacib sayaraq, bu gün dəxi Şuşanın təşkilatından yazalım.

**Təşkilat işləri**

Şəhər müdafiə halına gətirilmək və davaya hazırlaşmaqda ikən, bütün Qarabağda vəba və yatalaq kimi sari [yoluxucu] xəstəliklər peyda olaraq, gündə otuz-qırx adam ölürdü. Köylərdə camaata tibbi müavinət [yardım] gös-tərilməsi qeyri-mümkün olaraq, xəstə-liklərin önü alınmayırdı. Zira nə lazımi miqdarda təbib və heyəti-tibbiyyə var-dı, nə xəstəxana, nə dərman.

Şəhərdə isə çalışmaq mümkün olurdu. Binaileyh [ona görə] şəhər komandanının nəzarəti ilə səkkiz təbibdən və bir neçə tələbədən ibarət bir səhiyyə bürosu açılaraq, hər məhəllədə dəxi səhiyyəçilər təyin edilərək, çalışmağa başladılar. Yaxşı nəticələr dəxi hasil oldu.

Müdafiə hazırlığı üçün bir Hərbiyyə İdarəsi təsis olunaraq, şəhərin bütün müdafiə işləri ona tapşırılmışdı.

Yenə həman Hərbiyyə İdarəsi nəzdində bir dənə də Ərzaq İdarəsi təsis edilmişdi. Fəqət yollar bağlı olub, şəhərə ərzaq gətirilmədiyindən və şəhərdə taxıl və sair məkulat [ərzaq məhsulları] mövcudu gündən-günə azalmağa, hətta qurtarmağa başladığından, Ərzaq İdarəsinin fəaliyyəti öylə gözə çarpacaq bir nəticə vermədi. Bilxassə ki, doğru [birbaşa] vəzifəsi olduğu halda kənardan məkulat [ərzaq] ala bilmədi. "Yox" olan şeyi də ədalətlə təqsim edəmməyəcəkdi.

Nəhayət, şəhərdə sari xəstəlik bəlası dəf olunduqdan sonra, o zamanlar ki, hər dəqiqə müsəlləh müsadimə [silahlı toqquşma] gözlənirdi, təbiblərlə tələbələr bir iclas quraraq dava düşdüyü təqdirdə məcruhlara [yaralılara] müavinəti-tibbiyyə [tibbi yardım] göstərməyi düşündülər və heyəti-tibbiyyəni artırmaq qəsdi ilə "Şəfqət qardaşları" kursu açıldı. İyirmi altı tələbə kursa daxil olub, birinci kömək və sarğı qaydalarını öyrəndi. Müavinəti-tibbiyyə qəsdi ilə ibtida [əvvəlcə] şəhərdə bir xəstəxana açıldı. Bunun üçün tələbələr tərəfindən hələ keçən illərdən müsamirə [tamaşa] və sairə tərtibi vasitəsi ilə 12000 manat pul yığılmışdı. Bu dəfə həman məbləğin üstünə bir qədər də para toplandı. Və şəhərin hər işində ciddi surətdə iştirak edən "Müdafieyi-milliyyə" cəmiyyəti bu işi öz öhdəsinə götürərək, 18000 manat pul buraxdı. ("Müdafieyi-milliyyə" cəmiyyəti Şuşada son zamanlar təşkil edilmiş bir cəmiyyətdir ki, hal-hazırda ən artıq çalışan və az ömründə çox fəaliyyət göstərən, həm də böyük nüfuz və etibara malik bir cəmiyyət olmuşdur.)

Xəstaxanaya iki təbib və səkkiz tələbə baxacaqdır. Burası mərkəz təşkil edəcəkdir. Bundan əlavə, dava düşdüyü təqdirdə, cəbhə təşkil edəcək olan xətdə sol cinah, mərkəz və sağ cinahda olmaq üzrə, üç yerdə dəxi ayrı-ayrı "sarğı nöqtəsi" qərar verilmişdir. Bu nöqtələrin hər birində bir təbib və beş tələbə duracaqdır.

**Beynəlmiləl Komitə**

Bunca hərbə hazırlaşmaqla bərabər, kərratla [dəfələrlə] zikr olunduğu üzrə, müsəlmanlar daima sülh və müsalimətlə [əmin-amanlıqla] yaşamağa çalışırlardı. Ermənilər arasında dəxi zəif olsa da sülhcu [sülhpərvər] bir cərəyan vardı, dedik.

Məzkur [adı çəkilən] sülhcular, ermənilər ilə müsəlmanlar arasında münasibati-sülhcuyanəni [sülhpərvər əlaqələri] davam etdirmək və əlaqəni kəsməmək qəsdi ilə bir "Beynəlmiləl Komitə" təsis etmişlərdi. Burası altı türk, altı ermənidən ibarət bir heyət olub, daima ermənilər ilə müsəlmanlar arasında vüqu bulan ixtilafları yatırmaq, ixtilaflı məsələləri sülhlə həll etmək, xülasə, şəhərdə asayiş və müsaliməti [əmin-amanlığı] davam etdirmək uğrunda çalışırlardı. Həm pək böyük xidmət gördü. Bu komitə olmasaydı, bəlkə Şuşada üç-dörd dəfə qanlı müsadimə də baş verərdi. Bir neçə dəfə məzkur komitənin varlığı tərəfeyn [hər iki tərəf] üçün böyük rol oynadı.

Məsələn, əvvəla Araz ilə Kür arasında sükunət edib də yayda dağa, yəni yaylağa köçən dörd yüz min əhali "elat" nisan [aprel] ayının axırlarından etibarən köçməyə başlamalı ikən, dağ yerlərinin erməni əlində olması və ermənilərin yollarda xalqa əzab və əziyyət vermələrindən dolayı həziran [iyun] ayınadək köçə bilməyib aranda qalmışdı. Burası köçərilər üçün bir fəlakət təşkil edirdi. Zira həm əhali, həm mal-qoyun qızdırma tutub qırılırdı. Beynəlmiləl Komitənin türk əzasının təşəbbüsü ilə nəhayət, elata yol verilərək dağa köçməyə imkan oldu. Fəqət yollarda ermənilər camaata yenə çox əziyyət verdilər. Böylə ki, nərədə bir erməni əsgəri köçə təsadüf etsə qoyun alır, silah axtarır, habelə nələr qayırırdı. Hər halda, Beynəlmiləl Komitənin vücudu ilə köçərilər yaylağa köçə bildilər.

Digər bir xidmət daha. Bir gün şəhərə xəbər gəldi ki, on iki min erməni qaçqını şəhərə gəlmək istəyir. Böyük Yarmada Zarıslı və Musurmanlar denilən camaat onların qabaqlarını kəsərək yol vermirlər. Filhəqiqə [doğrudan da], içərisində mini təcavüzə müsəlləh [silahlı] kişi olmaq üzrə, neçə min erməni qaçqını gəlirmiş. Zarıslılar qabaqlarını kəsirlər. Dörd gün, dörd gecə atışma davam etdi. Bu hadisənin təsiri altında şəhərdə də hər dəqiqə müsadimə [toqquşma] gözlənirdi. Beynəlmiləl Komitə bu dəfə yenə şəhərdə davanın önünü aldı. Salamat keçdi. Qaçqınlar isə bir qədər tələfat verdikdən sonra şəhər ermənilərinin göndərdiyi imdadiyyə [yardım] sayəsində keçib gələ bildilər. Və qismən şəhərdə, qismən də ətraf kəndlərdə sakin oldular.

Fəqət Beynəlmiləl Komitənin ümdə xidməti son günlər oldu ki, bu xüsusda vaxtıyla yazılacaqdır.

**Ətraf ilə əlaqə**

Şəhərin yolu hər tərəfdən bağlı olduğundan, bittəbii [təbii olaraq] bütün cahandan əlaqəsi kəsilmiş, dünyadan bixəbər, adəta qaranlıqda qalmış bir çocuq kimi qalırdı. Ətraf ilə şəhər arasında əlaqəni kəsməmək üçün bir çarə vardı: Bəzi bələd adamlar cığır yollar ilə şəhərdən çıxaraq, gecə ikən Ağdama, ya Qaryaginə gedərək məktub aparsın, cavab gətirsin. Başqa çarə yox idi. Buna görə idi ki, Abdal Qasım, Gülablı Heydər və Daşdəmir nam üç şəxs Şuşa üçün qasid kəsilmişdi. Birincisi Malakana, digər ikisi Ağdam yoluna bələdçi və qasid təyin edilmişlərdi. Son zamanlar həmin adamların bələdçiliyi ilə məzkur [deyilən] dağ yoluyla şəhərə silah dəxi daşınırdı. Böylə ki, Gülablı kəndindən bir neçə adam göndərərək Ağdamdan Gülablıya; Malıbəylinin adamları Gülablıdan Malıbəyliyə daşıyırlardı. Nəhayət şəhərdən hər məhəllədən üç müsəlləh kişi seçilərək Malıbəylidən gecə ikən şəhərə gətirirlərdi.

(yenə var)

*Xəlil İbrahim*

**Qafqaz duyğuları**
*Şimali Qafqaziyalılara*

**4**

**Haydi, qalx!**

Ey qardaşım, sən atəş qarşısında
titrərkən,
Mən qəlbimdə yaxılan atəş ilə
yanardım.
Sən bir yudum soyuq su yalvararaq
istərkən,
Mən daşqın nəhrə kiçik deyə
ağlardım...

Sən orada zindanda bir aydınlıq
görməzdin,
Mən intiqam gününə baxa-baxa kor
oldum.
Qarlı dağlar aşmaqdan xəstə oldum,
yoruldum,
Sən zəncirlər altında inildərdin də,
gəzməzdin.

Titrədiyin atəşlər sənin artıq
sönmüşdür,
Qır zənciri, haydi, qalx, yürü, çalış,
usanma!
Bəklədiyin işıqlar parıldıyor, yanmışdır,
Sənə atəş, sənə su, sənə işıq, sənə yol
Sənə hər şəy gətirdim: iştə tüfəng və
bomba,
Al bunları, yürü, aş, sən də bizə yoldaş
ol!

*9/8/334*
*Arif İrfan Qaraosman*

## TÜRKİYƏ MƏTBUATI

Sabiq çar Nikolayın edamı münasibətilə "Sabah" qəzetəsi şu sətirləri yazır:

Çarın edamı xəbəri bir çox təkziblərdən və bir-birini naqiz [inkar edən] xəbərlərdən sonra ən nəhayət təhəqqüq etdi [təsdiqləndi]. Çarın səbəbi-edamı məlumdur. Ural Sovetləri Yekaterinburq şəhərində bulunan Çar Nikolayı çex-slovak qüvvətlərinin əlinə düşməmək üçün qısa bir mühakimədən sonra qurşuna dizi vermişlər [yubanmadan güllələmişlər] və bu surətlə çar ətrafında bir buçuq sənədən bəri cərəyan edən müxtəlif şayiələrə, dedi-qodulara bir ölüm pərdəsi çəkmişlərdir. Çar Nikolay dünyanın ən müstəbid hökmdarlarından və bəşəriyyəti qasıb-qovuran bu hərbi-müxribin [dağıdıcı hərbin] bəlli-başlı müsəbbiblər[in]dən [baiskarlarından] biri olduğundan şübhə yox idi. Fəqət Çarın bu seyyiatı [qəbahətləri] kəndisinin edam edilməsi üçün mə'qul [məntiqli] və mühiqq [haqlı] bir səbəb təşkil edəmməzdi. Bolşeviklər onu xəl' eylədikdən [taxtdan saldıqdan] və kəndilərinə məzərrət iras edəmməyəcək [ziyan vura bilməyəcək] bir hala qoyduqdan sonra, əllərini müdafiəsiz, haqqında tarixin verəcəyi hökmə müntəzir [hökmü gözləyən] bir hökmdarın qanı ilə ləkələməməli idilər. Bu kimi cinayətlərin failləri heç bir vaxt tarixin hökmi-tənqidindən azadə qalammaz. Bu cinayət hər hansı nöqteyi-nəzərdən tədqiq və mühakimə edilsə, heç bir vəchlə məzur görüləmməz. Bolşeviklər Rusiyada mütləqiyyətin övdətini mən' [qadağan] etmək və mütləqiyyət tərəfdarlarının gözləri önün[d]ə hükmdarlıq timsalını ortadan qaldırmaq üçün çarı öldürmüş olduqlarını, bəlkə məqami-müdafiədə dərmiyan edəcəklərdir [meydana qoyacaqlar]. Fəqət düşünülməlidir ki, çarı öldürməklə rus əqvamının [xalqlarının] fikrinə mülayim gələn çarlıq, mütləqiyyət fikrini də bərabər qaldırammamışlar. Bəlkə də bu fikri daha ziyadə təqviyə etmiş [qüvvətləndirmiş] oldular.

Bir fikir onu təmsil edən adamın ortadan yox edilməsi ilə məhv ediləmməz. Çünki fikir, mənəvi bir qüvvətdir. Mənəvi qüvvət və məfkurə cəbr və zorla izalə ediləmməz [aradan qaldırıla bilməz].

Çarın edamı Rusiyada sükuni-daxilinin [daxili asayişin] daha uzun müddət övdət eləməməsi [qayıtmaması] üçün pək mühim bir amil olacaqdır. Çünki çar bu vasi [geniş] ölkə nüfusunun yüzdə doxsanını təşkil edən qara cahil xalq tərəfindən qüdsi bir mövcud [varlıq] ədd [hesab] olunur və ona o surətlə hörmət edilirdi. Binaileyh [ona görə], çarın ifnasını [məhv edilməsini] bolşeviklərə xəsmican [can düşməni] olan ünsürlər kəndi mənfəəti-siyasiyyələrini təmin üçün rus cahil təbəqatı [təbəqələri] nəzdində bolşeviklərə qarşı bir silah məqamında qullanacaqlar və Rusiyadakı münaziəti-daxiliyyəni [daxili çəkişmələri] körükləyəcəklərdir. Bolşeviklər Etilafın intiriqalarından başqa, mujiklərin, çarı məbud kimi tanıyan Rusiyadakı qüvvətli röhban [din xadimləri] sinfinin də düşmənliklərinə köks gərmək, kəndi nüfuz və qüvvətlərini mühafizə üçün onlarla da çarpışmaq məcburiyyətində qalacaqlardır.

Çarın qətli bu daxili hərc-mərclik körüklənməsinə dəyərmiydi? Heç zənn etməyiriz. Çünki Rusiyada mürtəcelər rə'si-kara [iş başına] övdət etsələr belə, çarın bir dəfə daha məqami-hökmdariyə [hökmdarlıq mövqeyinə] süud etməsinə [yüksəlməsinə] imkan və ehtimal yox idi. Çünki o maddətən olduğu qədər, mənən də ölmüş, həyati-siyasiyyəsinə müəbbəd bir xatimə çəkmişdi. Fəqət bolşeviklər bu cinayətləriylə onu xalqın nəzərində yüksəltmişlər. Heç də müstəhəqq [layiq] olmadığı bir payəni ona vermişlər və lüzum və ehtiyac bulunmaqsızın [olmadığı halda], kəndilərini də hökümdar qatili yapmışlardır.

Çarın qətli əsrlərdən bəri canımıza, həyatımıza, mövcudiyyətimizə, istiqlalımıza qəsd etmiş çarlığın buz ovalarında dəfn edildiyini təzəmmün [ehtiva] edər. Çarlığın bir dəfə daha övdət etməməsi türklüyün mənafeyi icabatındandır [şərtlərindəndir]. Təmənna edəlim ki, məqtul [qətl edilən] İkinci Nikolay Rusiyanın son çarı olmuş olsun.

## NƏZARƏTLƏRDƏ [Nazirliklərdə]

**Səhiyyeyi-Ümumiyyə Nəzarətindən [Xalq Səhiyyəsi Nazirliyindən]**

İşbu Nəzarətin Qaçqınlara Müavinət [yardım] şöbəsi tərəfindən bilafərqidin və millət [din və millət fərqi olmadan], bütün Azərbaycana dağılmış qaçqınları öz yerlərinə qaytarmaq üçün ciddi tədabir ittixaz edilmişdir [tədbirlər qəbul edilmişdir].

# «AZƏRBAYCAN» qəzetinin 1918-ci il 22 oktyabr (çərşənbə axşamı günü) tarixli XIX nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Tədricən Şamaxı nahiyəsinə gəlməkdə olan ermə-ni qaçqınları yenə də Mədrəsə qəryəsini [kəndini] iskan etməyə [məskən tutmağa] başlamışlardır.

Bu günlərdə erməni qaçqınlarının altı minə baliğ [çatan] ikinci dəstəsi Bakıdan Kürdəmirə getmişdir. Qaçqınların əhvalından müxbir [xəbərdar] olmaq qəsdi ilə Bakı Valisi həzrətləri özü bu yerlərə əzimət [səfər] etmişdir. Yerli müsəlman əhalisinin erməni qaçqınları ilə əlaqələri dostanə bir surətdədir. Qaçqınlar keçib gedəcək məkanlarda Səhiyyeyi-Ümumiyyə Nəzarəti tərəfindən səhiyyə və iaşə məntəqələri təşkil edilməkdədir. Lakin qaçqınlar mütəəddid [çox] olması, ərzağın azlığı, şu idarənin işlərini bir qədər çətinləşdirməklə bərabər, bir çox izafə [artıq] para sərf edilməsinə səbəb olur.

Bunların həpsini intizam üzrə qoymaq və qaçqınlara ərzaq cəhətdən müavinət etmək üçün Səhiyyeyi-Ümumiyyə Nəzarəti, məhəlli camaat təşkilatı qüvvələrini buraya cəlb etmək istəyir.

**Dövlət Kontrolu**

Kontrol Palatasının müdiri tərəfindən Kontrolun atidəki [gələcəkdəki] idarəsi və onun gələcək əməliyyatı haqqında hazırlanmış layihə (proje) nəzarət [baxılmaq] üçün verilmişdir. Bu xüsusda müzakirə üçün Əbdüləli bəy Əmircanov təhtisədarətində [sədrliyi altında] olmaq şərti ilə bir qaç müşavirə məclisləri tərtib veriləcəkdir. Kontrol Palatası nəzarətlərdən ədd edilməklə [nazirlik səviyyəsində sayılmaqla] bərabər, içində həp hesabatın təftişi olmaq şərti ilə Xüsusi Dövlət Kontrolu İdarəsi ismi ilə mövcud olacaqdır. Təşəkküli-idarə təxminən rus Kontrol İdarəsi kimi olacaqmış.

* * *

Heyəti-Vüzəra Sədrinin [Baş Nazirin] dəftərxanasında belə bir elan asılmışdır: Heyəti-Vüzəra Sədrinin əmri mövcibincə [əmrinə uyğun olaraq], xüsusi işləri olanlar qəbul olunmayırlar. Növbətçi kargüzar məmura həvalə olunur ki, Heyəti-Vüzəra Sədri ilə görüşmək istəyənlərin işlərini müxtəsər surətdə məruzə ilə bildirsin.

* * *

Maliyyə Nəzarəti Birja Komitəsi təsis etmək təsəvvüratındadır. Bu günlərdə Birja Komitəsinə sədr təyin edilməsi gözlənir.

**Azərbaycan Hökuməti Maliyyə nazirinin Bakı nahiyəsi Aksiz Vergisi İdarəsinə verdiyi əmr**

Azərbaycan Hökumətində olan tacirlərə elan olunur ki, xaricdən gətirilmiş və ya daxildə hazırlanmış banderolsuz tənbəki, ciğara və papiros alış-verişi qadağan edilir. Bu əmri xələldar edənlərin [pozanların] banderolsuz tənbəki, papiros və ciğaraları xəstəxanalar və əsgərlər ehtiyacatından ötrü zəbt ediləcəkdir. Müqəssirlər isə qanuni mücazata [cəzalara] giriftar olacaqlardır. Baxılması və təsdiq edilməsi üçün işbu layihə bu günlərdə Hökumət Şurasına təqdim ediləcəkdir.

## BAKI XƏBƏRLƏRİ

Ərzaq Nəzarəti ümuma elan edir ki, Bakıya ancaq Gəncə, Qazax və Zaqatal nahiyələrindən məkulat [ərzaq] gətirməyə icazə verilir.

* * *

Bakı Şəhər İdarəsi Polis müdirinə bu məzmunda bir məktub yazılmışdır:

"Təşrini-əvvəlin [oktyabrın] on dördündə üç yüz əlli yeddi nömrəli əmrinizdə Şəhər İdarəsindən icazənaməsi olan xırda alış-verişçilərə mümaniət [maneçilik] edilməməsini pristavlara hökm etmişdiniz. Lakin yenə bu alış-verişçilər Şəhər İdarəsinə müraciətlə, polis nəfəratından [nəfərlərindən] narazılıq edirlər. Hətta inzibat [asayiş] məmurları Şəhər İdarəsi nazirlərinə [müfəttişlərinə] də müavinət [yardım] əvəzinə mümaniət edirlər. Nazirlər polis tərəfindən təqib edilirlər. Məsələn, srağa gün Salman Ağayev namında bir nazir bazarda vəzifəsini icra etdiyi vaxt ikinci uçastok məmurları tərəfindən həbs edilmişdir. Təkrarən cənabınızdan rica edirəm, pristavlara əmr verib, xırda alış-verişçilərə mümaniətdə bulunmamalarını və Şəhər İdarəsi nazirlərinə müavinət etmələrini tələb edəsiniz."

* * *

Bakı Bələdiyyə Məmur və Xidmətçiləri İttifaqı öz üzvlərinə məlum edir ki, çaharşənbə günü təşrini-əvvəlin [oktyabrın] iyirmi üçündə Şəhər Dumasının zalında ittifaqın ümumi iclası vaqe olacaqdır. İclas saat dörddə təyin edilib, üzvlər az gəlsə saat beşdə qanuni hesab ediləcəkdir.

Baxılacaq məsələlər:

1. İttifaqın illik hesabatının müzakirə və təsdiqi (1917-ci il 1 iyundan – 1918-ci il 1 iyunadək).
2. Axırıncı hadisələrdən zərərdidə olan ittifaq üzvlərinə İttifaq xəzinəsindən maddi müavinət [yardım].
3. İttifaq üzvləri üçün Lənkərana ərzaq almağa getmiş nümayəndələrin hesabatı.

Bu iclasda hamı üzvlərin hazır olması mütəmənnadır [arzu edilir].

**Məktəblər haqqında**

Mədən və zavod dairələrinin hansı cəhətlərində [tərəflərində] məktəb açmaq məsələsini aydınlaşdırmaq üçün məlumat toplamaq lazım gəlir. Binaileyh [ona görə] Neft Mədənçiləri Şurası ticarət və səna'ət [sənaye] müəssisələrində xidmət edən bütün zəvatdan [şəxslərdən] rica edir ki, övladını məktəbə vermək istəyən zəvat məktəbə girəcək olan namizədlər haqqında məlumat versinlər. İşbu məlumat keçən sənədə məktəbdə təhsil edənlərlə bərabər, yeni məktəbə daxil olmaq xəyalında olan çocuqlar barəsində verilməlidir.

Məlumat vərəqələrində göstərilən suallara cavab verməlidir. Övladını məktəbə vermək istəyən zəvat, atidə [aşağıda] mündəric [qeyd olunan] dairələrdə yazılıb, məlumat vərəqələri ala bilərlər:

1. Bibiheybət-Bayıl dairəsi – Bayıl məktəbində;
2. Çornıqorod dairəsi – Çornıqorod məktəbi;
3. Belıqorod dairəsi – Belıqorod məktəbi;
4. Əski mədən dairəsi – Üçüncü Sabunçu məktəbi (Bierinqin mülkündə; telefon mövqifi də [stansiyası] buradadır);
5. Suraxanı dairəsi – Suraxanı ambulatoriyasında;
6. Binəqədi dairəsi – Şəhərdə "Samopomoş" dükanında (Budaqovski və Telefonnı caddələrin küncü; Binəqədidə 72 nömrəli uçastokdakı Səlimov mədəni kantorasında).

Məlumat vərəqəsi yazıldıqdan sonra təşrini-əvvəlin 31-dən gec olmamaq şərti ilə yuxarıda göstərilən dairələrə və yaxud bilavasitə İttifaqa (Sovet Syezd) göndərilməlidir (Merkuryevski caddə, nömrə 20).

Qabaqlarda, ələlxüsus oktyabrın 14-də yazılan namizədlərin siyahılarını etibardan saqit [düşmüş] elan edir. İş bu məsələ fəqət məlumat vərəqələri cəm edildikdən sonra həll ediləcəkdir. Məlumat vərəqələrinin böyük əhəmiyyəti olduğundan, İttifaq bütün mədən və zavod dairələrində işbu elanının nəşr və təbliğini rica edir.

## XARİCİ XƏBƏRLƏR

**Sülh ətrafında**

Vaşinqtonda Almaniyanın cavabı kafi ədd [hesab] edilir. İşğal edilmiş yerlərin təxliyəsinədək sülh müzakiratının başlanmayacağı təkid olunur.

**Xivə xanının qətli**

Daşkənddən verilən xəbərlərə görə, Xivə xanı əsgərlər tərəfindən qətl edilmişdir. Xivə xanlığına məqtulun [qətl edilənin] qardaşı təyin edilmişdir.

**Petroqrad üsyanının dəf'i**

Xarkovda çıxan "Vozrajdeniya" qəzetəsi 29 sentyabr tarixli nömrəsində aşağıdakı teleqrafları dərc etmişdir:

Kursk – Buraya verilən xəbərlərə görə, Rusiya şimalında vaqe olan iğtişaşlar yatırılmış hesab oluna bilər. Bir çox tələfata və böyük xəsarətə düçar olan kəndlilər öz başçılarını tutub bolşeviklərə təslimlə təbəiyyətlərini [tabeçiliklərini] izhar etmişlərdir. Petroqradda hər tərəfdən mühasirəyə alınmış Ağ qvardiya əsgərlərinin bir hissəsi pərakəndə olub, digər hissəsi ceneral Sivers başda olmaq üzrə Voloqdaya getmək ümidi ilə şimali dəmiryol xəttilə bir neçə qatarlarda qaçmaq istəmişdir. Kəndlilər bolşeviklər tərəfindən ağır mücazata [cəzalara] giriftar olacaqlarından qorxub, özlərinin əfv olunması üçün bir xidmət göstərmək niyyətilə geri çəkilməkdə olan Ağ qvardiya əsgərlərini Mena mövqifi [stansiyası] yanında dayandırmağa çalışmışlar, lakin birinci iki dəstə öz əvvəlki müttəfiqlərinin tüfəng və pulemyot atəşləri altında qaçıb qurtarmağa müvəffəq olub, ceneral Sivers ilə bərabər olan üçüncü qatar isə dəmiryol xətti kəndlilər tərəfindən xarab edildiyinə görə, dayanmağa məcbur olmuşdur. Ağ qvardiya əsgərləri kəndlilərə atəş açdıqda, kəndlilər hücum edib onların hamısını tələf etmişlərdir. Ceneral Sivers güllə ilə qətl edilmişdir. Dörd yüz nəfərdən ibarət dördüncü dəstə qaçmaq istəmişsə də, kəndlilər tərəfindən Pepla mövqifinə qədər təqib edilərək Petroqraddan gəlib çatan bəhriyyə əsgərləri [matroslar] tərəfindən mühasirə edildikdən sonra, hamısı qırılıb tələf olmuşlardır. Şlisselburq yanında olan kəndlilər iğtişaş salmaq istəmişsələr də, şiddətli mücazat ilə [cəzalarla] sakit edilmişlərdir.

Kolpində üsyan çıxaran fəhlələr sakit edilib, başçıları tutularaq güllələnmişlərdir.

Petroqrad həyatı sönük bir haldadır. Küçələrdə ancaq bəhriyyələr [matroslar] və Qırmızı ordu əsgərləri ilə avtomobillər hərəkət etməkdədirlər. Əhali evlərdə gizlənmişdir. Şəhərdə evlər axtarılıb, bir çox adamlar həbs edilməkdədir. Tutulanları dəstələrlə birbaş aparıb müqəssir olduğunu aşkar etmədən güllələyirlər. Ev nökərinin şeytənəti [şeytanlığı, xəbərçiliyi] bütün bir ailənin qırılmağına kifayətdir. Ölənlərin miqdarı hesaba gəlməyəcək dərəcəyə varmışdır. Ətraf kəndlərə pulemyotlar ilə qüvvətli matros dəstələri göndərilmişdir. Kəndlilər bilamümaniət [maneəsiz] öz silahlarını təslim etməklə bərabər, dəhşətli mücazatlardan [cəzalardan] qorxub, iğtişaşa bais olan dövlətliləri nişan verməkdədirlər. Dövlətlilər dərhal güllələnib ev əşyası zəbt edildikdən sonra, ailələri küçəyə buraxılırlar.

Moskva ilə Petroqrad arasındakı dəmiryol əlaqəsi təhdid edilmişdir [məhdudlaşdırılmışdır]. Xüsusi adamların Petroqrada gəlməsi və Petroqraddan çıxması qadağan edilmişdir. Nikolayev dəmiryol xəttinin hamı körpüləri və mövqifləri [stansiyaları] qüvvətli Şura əsgərləri tərəfindən mühafizə edilməkdədir. Şayiata [şayiələrə] görə, Qırmızı Ordu əsgərlərinin müharibə ruhunu yüksəltməkdən ötrü, Xalq Komissarları Şurası tərəfindən ixtira edilmiş mötəbər nişanlardan Petroqrad üsyanını yatırdanlara göndərilmişdir. Şimalda olan iğtişaşı dəf etməklə, Moskva və ətrafında müşahidə edilən həyəcan dəxi bərtərəf olmuşdur [aradan qalxmışdır]. Bir çox kənd əhalisi silahlarını təslim etmişlərdir. Əhali xeyli düşkün bir haldadır.

Sentyabrın 25-də Vitebskdən alınan teleqrafda denilir ki, Voloqdadan alınan xəbərlərə görə, Şura əsgərləri Sud mövqifində inadlı müqavimət göstərməkdədirlər. Bir çox hücumlar Şura əsgərləri tərəfindən dəf edilmişdir. Ağ qvardiya əsgərləri kamali-intizam ilə Şeksna mövqifinə çəkilmişlər. Hücuma keçməyə çalışan Qırmızı ordu əsgərləri böyük tələfat ilə dəf edilmişlər. Hal-hazırda müharibə xəttində sakitlikdir. Ağ qvardiya əsgərləri böyük qüvvə ilə ciddi hücuma hazırlaşırlar. Bu bir neçə gündə hər iki tərəfdən 1500 nəfər əsgər tələf olmuşdur. Ölülər arasında rus çinində və nişanında və ingilis paltarında bir neçə adamlar tapılmışdır. Tixvindən Qırmızı ordu əsgərlərinə köməyə gələn əsgərlər Tetemel mövqifini üsyançı kəndlilərdən təmizləmişlərdir. Babayevo ve Siuç mövqifini işğal edən kəndlilər, Şura əsgərlərinin yavuqlaşdığından xəbərdar olaraq, qaçıb ətrafa dağılmışlardır. Bolşeviklər öz dəstələrini Şeksna çayında hərəkət etməkdə olan Qırmızı ordu əsgərlərinə yetirməkdən ötrü kəndlilər tərəfindən xarab edilən dəmiryollarını təcili surətdə təmir etməkdədirlər.

Kurskdan alınan teleqraflara görə: Peterburqdan çıxıb qaçmış olan Ağ qvardiya ordu əsgərləri Tixvin[in] qərbində məhəlli [yerli] Qırmızı [ordu] əsgərlərinə rast gəlmişlərdir. Qırmızı ordu əsgərləri qaçmaqda olan Ağ qvardiya əsgərlərini dayandırmaqdan ötrü dəmiryol xəttini xarab etmişlərdir. Ağ qvardiya əsgərləri artıq tələfat ilə dəmiryol xəttindən məmləkət içərisinə qovulmuşlardır. Onları təqib etməkdən ötrü Petroqraddan mitralyozlar ilə bəhriyyə dəstələri göndərilmişdir.

## TEATRO VƏ MUSİQİ

Bu yaxınlarda Bakıda olan sənətkar və mahir artistlərdən, müdiriyyətimiz təhtində [altında] bir dəstə təşkil edilib, Mart hadisatından indiyə qədər teatro tamaşasından məhrum qalan camaatımıza Hökumət Teatrosunda (sabiq Mailov qardaşları teatrosu) drama, opera və operetta nümayişləri göstərilməyə başlanacaqdır.

Səhnəmizin teatro əsərlərindən xeyli kasıb və yoxsul olduğunu nəzərə almaqla, yazıb möhtərəm camaatdan və səhnə həvəskarlarından xahiş edirik ki, hər kəsdə Türkiyə yazıçılarının əsəri və İstanbul çapı (təbi) teatro kitabı varsa, mövqeyi-tamaşaya qoyulmaq üçün aşağıdakı ünvan ilə müdiriyyətimizə gətirib, şəraitini [şərtlərini] məlum eyləməklə səhnəmizə müavinətdə [yardımda] bulunsun. Bundan əlavə, Qafqaziya yazıçılarının əsərlərindən təb' edilib ancaq əl yazısı teatro əsərlərinə malik olanların da həman əsərləri müdiriyyətimizə gətirib və bu barədə məlumat almaları xahiş olunur.

Ünvan: Qubernski küçədə 42 nömrəli ev, ikinci mərtəbə.

*Müdiriyyət tərəfindən:*
*Zülfüqar bəy Hacıbəyli.*

## ELAN

1. 19 ilə 24 yaşında bulunan əsgərlərdən teleqraf müxabirəsinə [xəbərləşməsinə] aşina [bələd] və ya müxabirə məmurluqlarında bulunmuş olanlar orduda istixdam [xidmətə qəbul] ediləcəklərindən, məzkur [göstərilən] sinlərdə [yaşlarda] bulunanlarla daha yuxarıkı yaşda bulunanlardan könüllü olaraq daxil olmaq istəyənlərin təşrini-əvvəlin qayətinə [axırına] qədər Bakı əxziəsgər [əsgərliyə qəbul] şöbəsinə müraciətlə isimlərini qeyd etdirmələri elan olunur.

*20 təşrini-əvvəl sənə 34*
*[20 oktyabr 1918]*

2. Kaffeyi-cəvananlara [bütün cavanlara] və heyəti-möhtərəməyə [ağsaqqallar heyətinə] bəyan olunur ki, təşri-ni-əvvəlin qurtarılmasına on gün qalmışdır. Arzu olunur ki, zəngin və fəqir əsnan ərbabı [müəyyən yaşda olanlar], yəni on doqquz, iyirmi, iyirmi bir, iyirmi iki, iyirmi üç, iyirmi dört yaşlarındakı cavanların kaffəsi Bakı əxzi-əsgər şöbəsinə gəlsinlər, heyəti-möhtərəmələri ilə bərabər bulunsunlar, müayinəyi-əsgəriyyələri anlaşılsın.

a) İşbu cavanlar, heyəti-möhtərəmələrinin ifadələrində nöqsan görürlərsə, yaxud məiyyətlərindən iş görəmməyəcəklər var isə şöbədə ifadədə bulunsunlar.

*20 təşrini-əvvəl sənə 34*
*[20 oktyabr 1918]*
*İslam Ordusu*
*Əxzi-əsgər rəyasəti*

## ELANİ-RƏSMİ

Bilümum [ümumiyyətlə] Bakı və ətrafı əhalisinə:

1. Qadın və erkək, böyük və kiçik, hər hansı milliyyət, din, sinif və təbəədən olursa olsun, Bakı və həvalisi [ətrafı] sakini bilcümlə əhali: kəndi ev və məhəllələri heyətiidarə və ixtiyariyyəsindən [idarə və ixtiyar heyətindən] namlarına mühərrər [adlarına yazılmış], isim, pədər [ata] ismi, məmləkət, məhəllə və soqaq [küçə], xanə nömrəsi, yaş, əşkal və əlaməti-fariqə [görünüş və fərqləndirici əlamət], sənət və ya məmuriyyət və sair xüsusati-mətlubəyi [tələb olunan xüsusları] göstərən "hüviyyət [şəxsiyyət] vərəqə"sindən birər dənə edinməyə [hərə bir ədəd əldə etməyə] məcburdurlar.
2. Tarixi-elandan iyirmi gün sonra çarşı, bazar, soqaq və evlərdə surəti-məxsusədə [xüsusi surətdə] sıx-sıx yapılacaq yoxlamalarda kəndi hüviyyət vərəqəsini ibraz [təqdim] edəmməyən hər kəs cəza görəcək və şübhəli ədd [hesab] edilərək daxili-məmləkətə [ölkənin içlərinə] sövq olunacaqlardır.
3. Hüviyyət vərəqəsi olmayan şəxsin dəvairi-rəsmiyyəcə [rəsmi qurumlarda] heç bir işi görülməyəcəyi kimi, bey'üşəra [alqı-satqı], əqdi-icar [kirayə müqaviləsi] və sairə kimi işlərdə hüquqi-mədəniyyədən saqit [mədəni hüquqları əlindən alınmış] ədd ediləcək [sayılacaq] və hər hansı bir yerə səyahətində kəndisinə heç bir surətlə səyahət vərəqəsi verilməyəcəkdir.
4. Hüviyyət vərəqəsi olmayanları; ev, mağaza, otel, yazıxana, ticarətxana, fabrika və dəvairi-rəsmiyyəyə qəbul edənlər, şübhəli əşxası [şəxsləri] hökumətin nəzəri-təftişindən saxlamış ədd ədilərək və müxalifi-qanun hərəkətlərindən naşi [qanuna müxalif hərəkətlərinə görə] şədidən [şiddətli] cəza görəcəklərdir.
5. Tarixi-elandan iyirmi gün sonra hüviyyət vərəqəsini ibraz edəmməyən hər kəsi zabitə [asayiş keşikçiləri] tövqif və əxbara [həbs etməyə və xəbər verməyə] məcburdur.
6. İşbu əmr, tarixi-elanından etibarən Bakıda müntəşir [nəşr olunan] bilümum qəzetələrcə bir həftə müddətlə mütəmadiyyən nəşr olunacaqdır.

*Polis Müfəttişi-ümumisi Bəhaəddin*

## ELAN

Azərbaycan əhalisindən gərəksə Bakı və gərək Gəncə vilayətindən on doqquz, iyirmi, iyirmi bir, iyirmi iki, iyirmi üç, iyirmi dört yaşında olan cavanlardan qunduraçı [çəkməçi], bərbər, dərzi, mühəndis, konduktor, gəmiçi, betonçu, maranqoz [xarrat], dülgər və daha sair sənət sahibi olanlar Bakıdakı qitəyə [hərbi hissəyə] veriləcəkdirlər. Həman [dərhal] Bakı şöbəsinə müraciətlə qeydlərini yapdırsınlar. İyirmi beş, iyirmi altı, iyirmi yeddi, iyirmi səkkiz, iyirmi doqquz, otuz yaşlarındakı cavanlardan işbu sənətlərə aşina olub da könüllü olaraq əsgər olmaq istərlərsə, onlar da əxzi-əsgər dairəsinə pasportlarıyla müraciət və qeyd olunsunlar. Bu iş təşrini-əvvəlin otuzunda qurtarılacağından istical olunmaq [tələsmək] gərəkdir.

*21 təşrin fi sənə 34*
*[21 oktyabr 1918-ci il]*

**Diş müalicəxanəsi**

S. M. İtkinin süni diş laboratoriyası. Dişlərin ağrısız çəkilməsi. Təzə üsul ilə farfor və qızıl dişlər qondarılması. Dişlərini qayıtdırmaq və diş qoydurmaq xahişində olanlar səhər saat 9-dan birə və 4-dən 6-ya qədər qəbul olunurlar.

Ünvan: Bolşoy Morskoy küçədə 37 nömrəli ev, telefon 06-25.

* * *

Azərbaycan Dəmiryolu İdarəsi elan edir ki, bu ilin 4 təşrini-əvvəl[in]dən Bakı ilə Tiflis şəhərləri arasında 3 və 4 nömrəli qatarlar bu qərarla hərəkət edəcəklər:

**Elan**

Bakıda olan böyük firmalardan birində buxqalter vəzifəsini ifa edən ukraynalı, müsəlman firmalarından birində kantora müdiri və ya buxqalter xidməti etmə arzusundadır.

| Mövqiflərin [stansiyaların] adı | Qatar nömrə 3 gəlir saat | gəlir dəqiqə | çıxır saat | çıxır dəqiqə |
|---|---|---|---|---|
| Bakı | - | - | 7 | 7 axşam |
| Hacıqabul | 11 | 22 axşam | 11 | 57 axşam |
| Yevlax | 5 | 35 sabah | 6 | sabah |
| Gəncə | 8 | 3 sabah | 8 | 23 sabah |
| Ağstafa | 11 | 15 günüz | 11 | 23 günüz |
| Tiflis | 3 | 56 günüz | - | - |

| Mövqiflərin [stansiyaların] adı | Qatar nömrə 4 gəlir saat | gəlir dəqiqə | çıxır saat | çıxır dəqiqə |
|---|---|---|---|---|
| Tiflis | - | - | 11 | 10 axşam |
| Ağstafa | 4 | 22 günüz | 4 | 47 axşam |
| Gəncə | 7 | 34 axşam | 7 | 59 axşam |
| Yevlax | 9 | 44 sabah | 2 | 4 sabah |
| Hacıqabul | 3 | 24 günüz | 3 | 39 günüz |
| Bakı | 7 | 36 axşam | - | - |

45-58 nömrəli telefon ilə danışmaq və ya "Azərbaycan" idarəsində bir nömrə qəbzi nişan verənə məktub ilə müraciət etmək mümkündür.

**Müsəlman diş təbibəsi**
**Ayna xanım**

Malakan bağının qarşısında Zeylidsonun kabinəsində hər gün xəstə qəbul və hər növ diş emal və tədavi [müalicə] edir. Zabitan və əfradın [zabitlərin və əsgərlərin] dişləri əhvən şəraitlə [münasib şərtlərlə] tədavi və emal edilir.

**Müdirlər:**
**Ceyhun bəy Hacıbəyli**
**Şəfi bəy Rüstəmbəyli**

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Ordu qərargahından:***
***Təbliği-rəsmi***

*"19.10.34": Burada il, rumi təqvimlə verilmişdir (1334-cü il). Miladi təqvimlə 19 oktyabr 1918-ci ilə uyğundur.*

***Türkiyədə***

*"Bu məktəbdə ikmali-təhsil edənlər (məzunlar) bəhriyyə aliləri ali bargahlara qəbul olunacaqlar.": Bu cümlə anlaşılmazdır. Yeni açılan dənizçilik məktəbindən məzun olanların, gələcəkdə ali dənizçilik məktəbinə və gəmiqayırma məktəbinə daxil ola biləcəklərini demək istəmişdir.*

***Zərbeyi-inqilab***

*"Həyat"... "Füyuzat"... "İrşad": "füyuzat" feyzlər, maddi və mənəvi bolluq, "irşad" doğru yolu göstərmə mənasına gəlməklə birlikdə, dırnaq içində verilən bu adlarla Hadi dövrün mətbuat orqanlarına işarə vurmuşdur.*

*"Nəsihət kövsərləri bizi ayıltmadıysa da...": İslami inanışa görə kövsər cənnətdəki müqəddəs suyun (bulaq, çay, yaxud hovuzun) adıdır.*

***Təhlükə qarşısında***

*"Son zamanlar həmin adamların bələdçiliyi ilə şəhərə silah dəxi daşınırdı." Mətndə "silah" sözü xüsusi vurğulanmışdır.*

***Qafqaz duyğuları***

*Bu şeirin bəzi misralarında vəzn pozulmuşdur.*

*"9/8/334": Burada ay və il, rumi təqvimlə verilmişdir (8-ci ay, 1334-cü il). Miladi təqvimlə 9 avqust 1918-ci ilə uyğundur.*

***Türkiyə mətbuatı***

*"Çarın edamı xəbəri bir çox təkziblərdən və bir-birini naqiz xəbərlərdən sonra ən nəhayət təhəqqüq etdi." Qəzetdə "təhəqqüq" sözü "təhqiq" kimi getmişdir.*

*"...çex-slovak qüvvətlərinin...": səh. 222-dəki izaha bax.*

*"Təmənna edəlim ki, məqtul İkinci Nikolay Rusiyanın son çarı olmuş olsun." Qəzetdə "Üçüncü Nikolay" kimi getmişdir.*

***Bakı xəbərləri***

*"İttifaqın illik hesabatının müzakirə və təsdiqi (1917-ci il 1 iyundan – 1918-ci il 1 iyunadək)." Qəzetdə səhvən "...1918-ci il 1 iyundan..." kimi getmişdir.*

***Xarici xəbərlər:***
***Xivə xanının qətli***

*Öldürülən Xivə xanı Əsfəndiyar xan 1871-ci ildə anadan olmuş, 1910-cu ildə atasının yerinə Xivə xanlığının taxtına keçmişdir. 1918-ci ildə dövlət çevrilişi əsnasında, Basmaçılar hərəkatının Xarəzmdəki rəhbərlərindən biri olan Cüneyd xanın adamları tərəfindən öldürülmüşdür. Əsfəndiyar xandan sonra, yerinə onun qardaşı Səid Abdulla xan keçsə də, faktiki hakimiyyət Cüneyd xanda olmuşdur.*

***Teatro və musiqi***

*"Bundan əlavə, Qafqaziya yazıçılarının əsərlərindən təb' edilib ancaq əl yazısı teatro əsərlərinə malik olanların...": güman ki, "təb' edilib" yerinə "təb' edilməyib" olmalıdır.*

*"Müdiriyyət tərəfindən": Hacıbəyov Qardaşları Müdiriyyəti nəzərdə tutulur.*

***Elan***

*"20 təşrini-əvvəl sənə 34": Burada il, rumi təqvimlə verilmişdir (1334-cü il). Miladi təqvimlə 20 oktyabr 1918-ci ilə uyğundur.*

***Elan***

*"21 təşrin fi sənə 34": Burada il, rumi təqvimlə verilmişdir (1334-cü il). Miladi təqvimlə 21 oktyabr 1918-ci ilə uyğundur.*

# "Azercell" Milli Mətbuat Günü münasibətilə bütün media nümayəndələrini təbrik edib

## Lider operator jurnalistlərə peşə bayramları münasibətilə 5GB internet paketi hədiyyə verib

22 İyul - milli və ümumbəşəri dəyərlərin təbliğində müstəsna rol oynamış Azərbaycan mətbuatının yaranması günüdür. Ölkənin lider mobil operatoru "Azercell Telecom" MMC ənənəvi olaraq jurnalistlərin peşə bayramında media nümayəndələrinə özəl hədiyyə təqdim edib.




"Mediacell" tarifinin bütün istifadəçiləri və II Qarabağ müharibəsində iştirak etmiş media əməkdaşları "Azercell"dən hədiyyə olaraq 5 GB mobil internet paketi alıblar. Jurnalistlər hədiyyə paketini iyulun 22-23-də 1875 açar sözünü 2723 qısa nömrəsinə göndərməklə əldə edə bilərlər.

Milli Mətbuat Günündə "Azercell" şirkəti düşmən atəşi altında peşə fəaliyyətini həyata keçirən şəhid jurnalistlər Məhərrəm İbrahimov və Sirac Abışovun da xatirələrini yad edib. Şirkət nümayəndələri şəhidlərin ruhuna dərin ehtiramlarını və dəstəklərini nümayiş etdirmək üçün onların ailə üzvlərinə xüsusi hədiyyələr təqdim edib.

Mətbuat nümayəndələri üçün 2011-ci ildən etibarən "Mediacell" adlı xüsusi tarif paketini təqdim edən "Azercell" fəaliyyəti boyunca ölkəmizdə KİV nümayəndələrinin inkişafına, onların peşəkar bacarıqlarının artırılmasına yardım etmək məqsədilə çoxsaylı layihələr həyata keçirib, jurnalistlər üçün ixtisaslaşmış seminar və treninqlər təşkil edib. Tək "Azercell"in ingilis dili kurslarına indiyədək 550-ə yaxın media nümayəndəsi qatılıb. Mobil operator tərəfindən Vətən müharibəsi zamanı Azərbaycanın mövqeyini və dürüst xəbərləri xalqımıza və dünyaya çatdıran jurnalistləri də dəstəkləyən müxtəlif təşəbbüslər reallaşdırıb.

"Azercell Telecom" MMC bu şərəfli peşə nümayəndələrini təbrik edir, onlara əhəmiyyətli və məsuliyyətli işlərində müvəffəqiyyətlər arzulayır.

# İslamşünaslıq ixtisasına qəbul başlayır

Azərbaycan İlahiyyat İnstitutu İslamşünaslıq ixtisasına qəbul olmaq üçün müsahibədə iştirak etmək istəyən abituriyentlər 24 iyul saat 23:59-dək (https://eservices.dim.gov.az/qabiliyyet/?frm=egov) Dini Psixoloji Komissiya (DPK) üzrə qeydiyyatdan keçə bilərlər.

Abituriyentlər buraxılış vərəqələrini 25-27 iyul tarixlərində çap edə biləcəklər. İslamşünaslıq ixtisası üzrə DPK Bakıda fəaliyyət göstərəcək. Müsahibələr DPK tərəfindən aparılacaq.

Müsahibədə III ixtisas qrupunu seçmiş və müsabiqə şərtlərinə əsasən ümumi balı 150, o cümlədən qəbul imtahanının II mərhələsi üzrə minimum 50 bal toplamış abituriyentlər iştirak edə bilərlər. Müsahibədən məqbul qiymət almış abituriyentlər ixtisas seçimi zamanı elektron ərizələrində İslamşünaslıq ixtisasını qeyd edə biləcəklər. Müsahibədə abituriyentin dünyagörüşü və dini bilikləri, dini baxışlar və dünyəvilik anlayışı, psixoloji parametrlərinin İslamşünaslıq ixtisasına uyğunluğu, tolerantlıq və multikulturalizm təsəvvürləri, ənənəvi dəyərlərə sadiqlikləri, vəhdət anlayışına münasibətləri, dinin mənbələrinə münasibətləri, dini maariflənmə tələbatları, iman və dindarlığa münasibətləri, ibadət həyatları yoxlanılır.




Müsahibədən uğurla keçən abituriyentlər ixtisas seçimi zamanı digər ixtisaslarla yanaşı, Azərbaycan İlahiyyat İnstitutunun İslamşünaslıq ixtisasını da seçə bilərlər. DPK-nın tərkibinə ilahiyyat sahəsi üzrə mütəxəssislər, ekspertlər və DİM-in əməkdaşları daxil edilirlər.

III ixtisas qrupunun İslamşünaslıq ixtisası üzrə müsabiqə abituriyentin qəbul imtahanında (iki mərhələnin nəticəsində) topladığı ümumi bal əsasında aparılır.

*"Azərbaycan"*

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

**balansında olan Şahdağ yedək-təchizat gəmisi üçün Deutz BF6M1015MC köməkçi mühərriklərin ehtiyat hissələrinin satın alınması məqsədilə**

***müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 5 avqust 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı, Mikayıl Useynov küç., 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1071.**

***Tender komissiyası***

# Dünya iqtisadiyyatı tənəzzülə doğru gedir

## Müstəqilliyini təmin edən Azərbaycanda isə iqtisadi artım müşahidə edilir

Avropa Mərkəzi Bankı (AMB) avrozonada artan inflyasiyanın qarşısını almaq üçün son 11 ildə ilk dəfə faiz dərəcələrini artırıb.

Bankın İdarəçilər Şurası 3 əsas uçot dərəcəsini 50 faiz bəndi artırmaq barədə qərar qəbul ediblər. Qərara əsasən, iyulun 27-dən etibarən bazar uçot dərəcəsi 2011-ci ildən bəri ilk dəfə olaraq 0,5 faizə, qısamüddətli kreditlər üzrə faiz dərəcəsi isə 0,75 faizə qaldırılıb. Avropa Mərkəzi Bankı onu da elan edib ki, bankın yaxınlarda olan növbəti iclaslarında faiz dərəcələrinin normallaşdırılması istisna edilmir.

Qeyd edək ki, İngiltərə Mərkəzi Bankı və ABŞ Federal Ehtiyat Sistemi də qiymət artımlarını cilovlamaq məqsədilə faiz dərəcələrini yüksəltdikdən sonra AMB uçot dərəcəsini artırıb.

### Çin iqtisadi resessiya astanasındadır

Aİ ölkələri arasında ən yüksək illik inflyasiya Estoniyada qeydə alınıb. Bu ölkədə göstərici 22 faiz, Litvada 20,5 faiz, Latviyada isə 19,2 faiz olub.

ABŞ və Avropa İttifaqında gözlənilən tənəzzül təhlükəsi artdığı bir zamanda, dünya iqtisadiyyatının üçüncü ən mühüm mərkəzi - Çinin iqtisadi resessiya astanasında olduğu meydana çıxıb. Ölkənin statistika idarəsi bildirib ki, Çinin ÜDM artımı 2022-ci ilin ikinci rübündə demək olar ki, dayanıb və illik müqayisədə cəmi 0,4 faiz yüksəlib.

2022-ci ilin aprel-iyun aylarında Çində ÜDM-i yanvar-mart ayları ilə müqayisədə 2,6 faiz azalıb. Əgər növbəti rübdə bu proses davam edərsə, o zaman ölkə iqtisadiyyatı tənəzzülə uğrayacaq.

Bunun mühüm səbəblərindən biri Çinin bir neçə sənaye mərkəzlərində uzunmüddətli kilidləmə və hər şeydən əvvəl, aprel və may aylarında Şanxayda tətbiq olunan iki aylıq sərt karantin rejimidir. Bunun nəticəsində çoxsaylı sənaye müəssisələri və dünyanın ən böyük limanı olan Çinin ən böyük şəhərində (26 milyon nəfər) ÜDM-i illik ifadədə 13,7 faiz azalıb.

Hazırda Qərbi Avropanın müxtəlif ölkələrinin pandemiyanın yeni güclü dalğasına məruz qaldığını, habelə payız və qış üçün proqnozların nə qədər bədbin olduğunu nəzərə alsaq, üçüncü rübdə və sonrakı aylarda Şanxaydakı kimi lokdaunlar Çində təkrarlana bilər. Hazırda Çinin daşınmaz əmlak bazarında da böhran davam edir.

### Yoxsulluğa qarşı dörd ildən artıq davam edən irəliləyiş puç olub

Ukraynadakı vəziyyət və COVID-19 pandemiyası ilə bağlı problemlər bütün dünyada gündəlik xərclərin artmasına səbəb olub. Avrozona hələ də Rusiya neft və qazından çox asılı olduğu üçün həssas məkana çevrilib. Moskvanın bu il qaz tədarükünü tamamilə kəsəcəyindən və bunun qiymətlərin daha da sıçrayışına səbəb olacağından ehtiyatlanan Aİ-də Rusiyadan enerji tədarükünü nizama salmaq barədə müzakirələr aparılır.

Faiz dərəcələrini artırmaq qərarını açıqlayan AMB prezidenti Kristin Laqardın dediyinə görə, iqtisadi aktivlik aşağı düşür. Enerji və ərzaq qiymətlərində davamlı artımları, eləcə də enerji daşıyıcılarının qiymətlərdə oynadığı rolu nəzərə alaraq, inflyasiyanın bir müddət ərzində arzuolunmaz dərəcədə yüksək qalacağı gözlənilir. Daha yüksək borc xidməti xərclərinin ilk növbədə İtaliya və Yunanıstan kimi böyük xarici borcu olan Avropa ölkələrinə mənfi təsir edəcəyi ilə bağlı narahatlıq yaşanır.

İqlim böhranı, COVID-19 pandemiyası və dünyada münaqişələrin artması Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) nail olmağı risk altına salıb. Bu barədə BMT-nin 6 aylıq hesabatında məlumat verilir. Hesabat müəllifləri bəşəriyyətin üzləşdiyi problemlərin miqyasına diqqət çəkirlər. Belə ki, "pilləli" və kəsişən böhranlar ərzaq təhlükəsizliyinə, səhiyyəyə, təhsilə, ətraf mühitə mənfi təsir göstərir, həmçinin daha dayanıqlı, dinc və bərabərhüquqlu cəmiyyətin qurulması planlarını pozur.

Hesabatda bildirilir ki, COVID-19 pandemiyası bitməkdən çox uzaqdır. Bu, indiyədək Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaqda ölkələrə əhəmiyyətli zərbə vurub. 2021-ci ilin sonu üçün koronavirusla birbaşa və ya dolayısı ilə əlaqəli "həddindən artıq ölüm" sayı 15 milyona çatıb.

Yoxsulluğa qarşı dörd ildən artıq davam edən irəliləyiş puç olub və 2020-ci ildə əlavə 93 milyon insan ifrat dilənçilik vəziyyətinə düşüb. Son iki ildə 147 milyon uşaq planlaşdırılmış dərslərin yarısından çoxunu buraxıb. Pandemiya səhiyyə sistemləri xidmətlərini ciddi şəkildə pozaraq DİM-ə (sağlamlıq və rifah) nail olmaq istiqamətində əldə edilmiş irəliləyişə xələl gətirib.

### Dünya iqlim fəlakətinin astanasındadır

Hazırda dünya iqlim fəlakətinin astanasındadır və bunun təsirləri artıq milyardlarla insan tərəfindən hiss olunur. Hesabat müəlliflərinin fikrincə, enerji ilə bağlı $CO_2$ emissiyaları 2021-ci ildə 6 faiz artaraq rekord həddə çatıb və pandemiya ilə bağlı azalmanı tam kompensasiya edib.

Böhran ərzaq, yanacaq və gübrə qiymətlərini artırıb, təchizat zəncirlərini və qlobal ticarəti pozub, maliyyə bazarlarını sarsıdıb və qlobal ərzaq təhlükəsizliyini təhdid edib. Cari il üçün qlobal iqtisadiyyatın proqnozlaşdırılan artımı 0,9 faiz azalıb.

Birləşmiş Millətlər Təşkilatının İqtisadi və Sosial Məsələlər üzrə Baş katibinin müavini Lü Cenminin fikrincə, Dayanıqlı İnkişaf Məqsədlərində müəyyən edilmiş yol xəritəsi aydındır. Böhranların mənfi təsiri onlar bir-birinə bağlı olduqda daha da güclənir. Odur ki, üzləşdiyimiz problemlərin həllinə kompleks yanaşmaq lazımdır. Hesabatda həmçinin vurğulanır ki, böhrandan güclü çıxmaq və gələcəyin hələ bilinməyən çağırışlarına daha yaxşı hazırlaşmaq üçün informasiya infrastrukturunun maliyyələşdirilməsi həm milli hökumətlər, həm də bütün beynəlxalq ictimaiyyət üçün prioritet olmalıdır.

Dünya iqtisadi tənəzzülün astanasında olduğu bir zamanda, Azərbaycan dinamik inkişafını davam etdirir.

Prezident İlham Əliyevin cari ilin altı ayının yekunlarına həsr olunmuş müşavirədə dediyi kimi, Azərbaycanın nail olduğu uğurlar hər bir ölkə üçün nümunə ola bilər. Prezident dünyada baş verən iqtisadi böhran fonunda Azərbaycan iqtisadiyyatının artım tempini rəqəmlərlə göstərib. Belə ki, iqtisadiyyatda 6,2 faiz, qeyri-neft iqtisadiyyatında 9,6 faiz, sənaye sahəsində ümumi sənaye istehsalında 2,1 faiz, qeyri-neft sənaye sahəsində 11,5 faiz artım var. Bununla yanaşı, qeyri-neft ixracımız 25 faizdən çox artıb. Xarici ticarət balansının müsbət saldosu 6 ayda 12,1 milyard dollardır: "Bütün bu rəqəmlər hər bir ölkə üçün qürur mənbəyi ola bilər. Keçən il iyulun 1-də bizim xarici dövlət borcumuz ümumi daxili məhsulun 16,6 faizini təşkil edirdi. Bu da dünya miqyasında ən gözəl nəticələrdən biri sayıla bilərdi və əslində, belədir".

Prezident İlham Əliyev dünya iqtisadiyyatında mənfi tendensiyaların yaranmasına toxunaraq bildirib ki, indi çox böyük ehtimallara əsasən, dünya iqtisadiyyatı tənəzzülə uğrayacaq. Yəni resessiya haqqında mötəbər beynəlxalq qurumlar, maliyyə qurumları artıq bu barədə qaçılmaz fakt kimi danışırlar. Azərbaycan da dünyanın bir parçası olduğu üçün bu prosesə hazır olmalıdır.

Ancaq bu bir həqiqətdir ki, dünyada ən islahatçı Prezident kimi tanınan İlham Əliyevin hər zaman istənilən böhrana qarşı hazırladığı proqramlar, layihələr Azərbaycanın çətin sınaqlardan az itki ilə çıxmasını şərtləndirib. Bunun ən mühüm səbəbi isə iqtisadi müstəqillikdir. Məhz İlham Əliyevin 19 ildə həyata keçirdiyi siyasətlə Azərbaycan iqtisadi və siyasi müstəqilliyini təmin edib. Bu da gözlənilən böhranın ölkəmizə o qədər də böyük təsir göstərə bilməyəcəyini söyləməyə əsas verir.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

*Təkrar*

## "Azərenerji" ASC Regional sınaq və diaqnostika mərkəzlərinə tələb olunan yeni avadanlıq və cihazların satın alınması üzrə

***açıq tender elan edir***

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 2 000 (iki min) manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu əldə edə bilərlər (əlaqələndirici şəxs: Azad Məmmədov, telefon: 490-09-27, 598-05-56; e-mail: azad.mammadov@azerenerji.gov.az).

**Hesab: AZ35AIIB33020019441024659102**
**VÖEN: 9900000421**
**Bank: "Kapital Bank" ASC Mərkəz Filialı**
**Kodu: 200026**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.İ.F.T: AIIBAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət və iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı tender təklifinin qüvvədə olduğu müddətdən ən azı 30 bank günü artıq olmalıdır;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində (və ya fəaliyyətə başladığı dövrdən) özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə müvafiq dövlət orqanından arayış;*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə müvafiq dövlət orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *mallar sifariş verildiyi vaxtdan sonra ən çoxu 30 gün (1 ay) müddətinə çatdırılmalıdır;*
- *iddiaçının analoji satınalmalarda təcrübəsi haqqında məlumat;*
- *iddiaçının son 3 (üç) illik iş təcrübəsi, yerinə yetirdiyi cari işlər və müqavilələr barədə məlumatlar;*
- *müvafiq sertifikatlar və lizensiyalar.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **19 avqust 2022-ci il saat 15:00-a** qədər bank təminatını və tender təklifi isə **29 avqust 2022-ci il saat 15:00-a** qədər Bakı şəhəri, Ə.Əlizadə küçəsi, 10 ünvanına "Tender və Müqavilə" şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların tender təklifləri **30 avqust 2022-ci il saat 15:00-da** yuxarıda göstərilən ünvanda (online qaydada) açılacaqdır. Onlayn iclasın linki əlaqələndirici şəxs tərəfindən iştirak edəcək iddiaçıların e-maillərinə müraciət əsasında göndəriləcəkdir.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***







## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi "Gəmiqaya" şirkətinin təsisçisi Emin Uçara anası

**HALİMƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Aqrarkredit" Səhmdar Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Cavanşir və Şirzad Abdullayev qardaşlarına anaları

**MUZAYYƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Gəncə Dövlət Universitetinin rektoru Yusif Yusibov və universitetin kollektivi Gəncə şəhər icra hakimiyyəti başçısının birinci müavini Səməd Tomuyevə atası

**İSAQ TOMUYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
***e-mail:***
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

**Qeydiyyat nömrəsi 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

***Gündəlik qəzet***

**Tiraj 5073**
**Sifariş 1981**
**Qiyməti 40 qəpik**